Günün sözü

**Prezident İlham Əliyev:**

**Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq.**

## Türkiyənin sürətli inkişafı türk dünyasını gücləndirir

Səhifə ⇨ 7





Səhifə ⇨ 11

## Milli ermənişünaslığın hədəfləri


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 78 (30194) 15 aprel 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Zamanın korrektə edə bilmədiyi strategiya

*Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir.*

Prezident İlham Əliyevin ilk andiçmə mərasimindəki nitqindən
Bakı, 31 oktyabr 2003-cü il



**Son zamanlar dünyanın müxtəlif ölkələrindən Azərbaycan Prezidentinin ünvanına gələn məktublarda, telefon zənglərində, ölkə rəhbərlərinin çıxış və nitqlərində, aparıcı mətbuat vasitələrinin məqalə və ya ekran-efir məlumatlarında dövlət başçımızın siyasi sabitqədəmliliyi olduqca yüksək qiymətləndirilir. Hətta bəzi ekspertlər Prezident İlham Əliyevin on, iyirmi il əvvəl dediyi fikirləri bu gün də olduğu kimi, səsləndirməsini lider dönməzliyi kimi xarakterizə edirlər. Təbii ki, bu da təsadüfi deyil. Çünki artıq beynəlxalq aləmdə ötən il dediyini bu il xatırlamayan siyasətçi və dövlət başçıları istənilən qədərdir və ona görə də Azərbaycan Prezidentinin "dediyi sözün üstündə durması" nümunə kimi qəbul edilir.**

Bu sətirləri qələmə alarkən əvvəlcə onu xatırladım ki, "zamanın çağırışları" ilə "zamanın korrektəsi" fərqli məsələlərdir. Məsələn, ulu öndər Heydər Əliyev 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasına 2002-ci il avqustun 24-də keçirilən referendumla bəzi dəyişiklik və əlavələrin edilməsi zərurətini zamanın çağırışları ilə əsaslandırmışdı. Onun fikrincə, ictimai həyatın ən müxtəlif sahələrində özünü göstərən yeniliklər Əsas Qanunun xarakterində təkmilləşmə və müasirləşməni obyektiv zərurət kimi ortaya çıxarır. Eləcə də iqtisadi inkişaf tempinə adekvat olaraq, insanların demokratik-siyasi şüurunda baş verən kardinal dəyişikliklər cəmiyyətin hüquqi bazasının əsasını, istinad mənbəyini təşkil edən Konstitusiyada bir sıra əlavə və dəyişikliklərin edilməsinə obyektiv tələbat yaradır.

Birmənalı olaraq, deyə bilərik ki, həm 2002-ci ildəki referendum, həm də ondan sonrakı analoji siyasi tədbir Azərbaycan dövlətinin 2003-cü ilin yayında müəyyən etdiyi və cidd-cəhdlə reallaşdırdığı siyasi strategiyada nəinki dəyişiklik, hətta korrektə də etməmişdi. Ancaq ətrafımızdakı dövlətlərin bir çoxunda on-on beş il əvvəl qəbul edilmiş strategiyalarda korrektələri də görürük, dəyişiklikləri də. Hətta Ermənistanda belə hallar ildə bir neçə dəfə olur.

Arqumentlərimizi bəzi konkret məqamlarla əsaslandıraq. Məsələn, cənab Prezident 2003-cü il oktyabrın 31-dəki andiçmə mərasimində demişdi: "Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kim can atırsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik".

Dövlət başçımız 2022-ci ilin noyabrında isə demişdir: "Mən İranın əvvəlki üç prezidenti ilə – Prezident Hatəmi, Prezident Əhmədinejad və Prezident Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində heç vaxt indiki vəziyyətimizə oxşar bir şey olmayıb. Heç vaxt Azərbaycana qarşı nifrət və təhdid dolu sözlər işlədilməyib, sərhədimizdə heç bir hərbi təlim keçirilməyib, ancaq bir neçə ay ərzində iki hərbi təlim keçirilib.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan–Bosniya və Herseqovina əməkdaşlığında yeni mərhələ

**Son illərdə Azərbaycan-Bosniya və Herseqovina əlaqələri yüksələn xətlə inkişaf edib. Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr hər iki ölkə arasında münasibətləri yüksək səviyyəyə qaldırıb. Tərəflərin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini bütün məsələlərdə dəstəkləmələri mühüm önəm daşıyıb. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edib.**

Azərbaycan–Bosniya və Herseqovina münasibətlərində iqtisadi əməkdaşlıq mühüm yer tutur. Tərəflər arasında ticari əlaqələr getdikcə genişlənir. Ötən il bu ölkələrin ümumi ticarət dövriyyəsinin həcminin 5 milyon ABŞ dolları, o cümlədən idxalın həcminin 2 milyon dollar, ixracın həcminin isə 3 milyon dollar təşkil etməsi bunun bariz ifadəsidir. Xatırladaq ki, 2022-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 3,2 dəfə artaraq 5,1 milyon dollar olub. Bu da 2020-ci illə müqayisədə 7 dəfə çoxdur. Tərəflər arasında ticarət dövriyyəsinin böyük həcmdə artırılması üçün daha böyük potensial var.

Azərbaycan müxtəlif vaxtlarda bu ölkəyə humanitar yardım etməklə etibarlı dostluq nümunəsi göstərib. Belə ki, 2014-cü ildə Bosniya və Herseqovinaya baş vermiş təbii fəlakət nəticəsində sel daşqınlarından zərər çəkmiş insanlar üçün respublikamız tərəfindən 336 min ABŞ dolları dəyərində humanitar yardım göndərilib. Koronavirusla mübarizəyə dəstək məqsədilə Azərbaycandan bu ölkəyə 2020-ci ildə 244 min dollar dəyərində tibbi və gigiyenik məhsullardan ibarət humanitar yardım, 588 min dollar məbləğində humanitar məqsədli maliyyə yardımı edilib.

Respublikamız Bosniya və Herseqovinanın enerji təhlükəsizliyində də önəmli rol oynayır. Ötən il oktyabrın 1-də istifadəyə verilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru, Serbiyanı ümumi sistemlə birləşdirəcək və hazırda üzərində iş aparılan interkonnektor, eləcə də İonika-Adriatik dənizi layihəsi dost ölkənin enerji təchizatına əhəmiyyətli təsir göstərmək gücündədir.

Bütün bunlar barədə Prezident İlham Əliyevin Bosniya və Herseqovinya rəsmi səfəri çərçivəsində keçirilən görüşlərdə də ətraflı bəhs olunub. Bu ölkənin Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç mətbuata bəyanatında deyib: "Biz nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik.

Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük".

*(ardı 7-ci səhifədə)*

# İrəvanda "qarabağlı" – yerli qarşıdurması

Səhifə ⇨ 6

## Millətə, ümmətə xidmət, Vətənə, dövlətə sədaqət

Səhifə ⇨ 10



## "Daşlar ölkəsi"ni daş kimi diyirlədirlər



Səhifə ⇨ 6

## İnvestisiyaya "açıq qapı" siyasətinin uğurları

Səhifə ⇨ 8

## Paşinyan sovetlərin tikanlı məftillərinə "ilişib"

Səhifə ⇨ 3




## Təxribatçıya dəstək verən kimdir?

Səhifə ⇨ 3

## Debatlarda Qərbə münasibətdə fərqli mövqelər sərgilənir

Səhifə ⇨ 13



## Qurudakı yataqların neft ehtiyatları tükənməyib

Səhifə ⇨ 8



# Makron Avropada böyük təcrid qarşısında

Səhifə ⇨ 13

# Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

**Əziz həmvətənlər!**

Pasxa bayramı dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzidir. Bu əziz gün münasibətilə bir daha hər birinizə səadət, ailələrinizə xoş bayram ovqatı və firavanlıq arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” 1999-cu il 4 avqust tarixli 176 nömrəli, “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” 2000-ci il 6 mart tarixli 291 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 16-cı maddəsinin 1-ci, 2-ci (hər iki halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 16-cı maddəsinin 1-ci, 2-ci (ikinci halda) (dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 5-ci hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (ikinci halda) (yay, qış otlaqlarının icarəyə və bələdiyyə mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 3-cü hissəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə rayon (şəhər) icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) “informasiya sistemi” dedikdə “Elektron kənd təsərrüfatı” informasiya sistemi nəzərdə tutulur.

**2.** “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486; 2000, № 3 (I kitab), maddə 158; 2001, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 4, maddə 231; 2006, № 8, maddə 660; 2008, № 3, maddə 174, № 8, maddə 714; 2009, № 7, maddə 542; 2012, № 11, maddə 1080; 2014, № 10, maddə 1217, № 12, maddə 1552; 2016, № 2 (II kitab), maddə 239; 2017, № 7, maddə 1320, № 12 (I kitab), maddə 2342; 2019, № 3, maddə 436, № 5, maddə 843; 2020, № 5, maddə 559; 2022, № 12, maddə 1432; 2023, № 1, maddə 71) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddən “16-cı maddəsinin 8-ci hissəsində,” sözləri çıxarılsın;

2.2. 2.1-1-ci bəndə “Məcəllənin” sözündən sonra “16-cı maddəsinin 1-ci, 2-ci (hər iki halda) hissələrində, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində,” sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.1-2-ci, 2.3-2-ci, 2.5-1-ci və 2.5-2-ci bəndlər əlavə edilsin:

“2.1-2. həmin Məcəllənin 16-cı maddəsinin 1-ci, 2-ci (ikinci halda) (dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 5-ci hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

“2.3-2. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (ikinci halda) (yay, qış otlaqlarının icarəyə və bələdiyyə mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə) və 3-cü hissəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə rayon (şəhər) icra hakimiyyəti orqanları nəzərdə tutulur;”;

“2.5-1. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.5-2. həmin Məcəllənin 16-cı maddəsinin 2-ci hissəsində (birinci halda) “informasiya sistemi” dedikdə “Elektron kənd təsərrüfatı” informasiya sistemi nəzərdə tutulur;”;

2.4. 2.3-1-ci bəndə “müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini” sözlərindən sonra “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün verilən torpaq sahələrinə dair sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə uyğun olaraq),” sözləri əlavə edilsin.

**3.** “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 158; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 2, maddə 69; 2006, № 8, maddə 660; 2007, № 11, maddə 1110; 2008, № 3, maddə 174, № 6, maddə 498; 2010, № 7, maddələr 542, 610; 2012, № 11, maddə 1081; 2014, № 11, maddə 1419; 2016, № 2 (II kitab), maddə 240; 2021, № 7, maddə 728; 2022, № 12, maddə 1432) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzasa “otlaqları torpaqlarının” sözlərindən sonra “(dövlət mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə verilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

3.2. səkkizinci abzasdan “16-cı maddəsinin 1-ci hissəsində,” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanununun tətbiqi və “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (birinci halda) “informasiya sistemi” dedikdə “Elektron kənd təsərrüfatı” informasiya sistemi nəzərdə tutulur;

1.4. həmin Qanunun 10-1.3.2-ci maddəsində, 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 10-1.6-cı maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) nəzərdə tutulur.

**2.** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 577; 2005, № 11, maddə 1016; 2006, № 7, maddə 590; 2007, № 11, maddə 1110; 2010, № 7, maddə 610; 2014, № 11, maddə 1418; 2016, № 2, maddə 254, № 11, maddə 1818; 2018, № 6, maddə 1228; 2020, № 4, maddə 416; 2022, № 12, maddə 1445) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “10-1.1-ci maddəsinin birinci cümləsində” sözlərindən sonra “(hər iki halda)” sözləri əlavə edilsin;

2.2. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. həmin Qanunun 10-1.3.2-ci maddəsində, 10-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 10-1.6-cı maddəsində (birinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məqsədləri üçün icarəyə verilən torpaq sahələrinə münasibətdə) nəzərdə tutulur;”;

2.3. 2.8-ci bəndə “10-1.1-ci maddəsinin birinci cümləsində” sözlərindən sonra “(birinci halda)” sözləri əlavə edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

“2.9. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 10-1.1-ci maddəsinin birinci cümləsində (birinci halda) “informasiya sistemi” dedikdə “Elektron kənd təsərrüfatı” informasiya sistemi nəzərdə tutulur.”.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## M.Q.Məmmədovun Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məcnun Qadir oğlu Məmmədov Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## A.Q.Kərimlinin Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## A.Q.Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## Azərbaycan Respublikası Audiovizual Şurasının üzvlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikası Audiovizual Şurasının üzvləri təyin edilsin:

Xəlilov Aslan Xası oğlu
Məmmədov İsa Rəhman oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 826-VIQD nömrəli və “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036) ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.1.3-3-cü və 3.2.3-3-cü yarımbəndlər əlavə edilsin:

“3.1.3-3. “kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi” altsistemi;”;

“3.2.3-3. “kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsi” altsistemi vasitəsilə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar müraciətlərin qəbulu, baxılması və cavablandırılması;”.

2. 5.1.28-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.29-cu və 5.1.30-cu yarımbəndlər əlavə edilsin:

“5.1.29. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlər və həmin müraciətlərə baxılması üzrə sənədlər;

5.1.30. icarəyə götürülmüş dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair icarəçilər tərəfindən təqdim edilmiş məlumatlar.”.

3. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 18-ci və 19-cu abzaslar əlavə edilsin:

“18. dövlət mülkiyyətində olan torpaqları icarəyə (istifadəyə) götürmək məqsədilə müraciət etmək;

19. icarəyə götürdüyü dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair məlumat təqdim etmək;”.

4. 7.1.9-cu yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.10-cu və 7.1.11-ci yarımbəndlər əlavə edilsin:

“7.1.10. rayon (şəhər) icra hakimiyyəti orqanları:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlərə baxmaq;

7.1.11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti:

1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar daxil olmuş müraciətlər üzrə rəy vermək.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

# Zamanın korrektə edə bilmədiyi strategiya

(əvvəli 1-ci səhifədə)

Deməli, bu, o deməkdir ki, bu vəziyyəti yaradan biz deyilik. Biz bu vəziyyətin daha tez bitməsini istəyirik. Biz bütün qonşularımızla sülh və dostluq münasibətləri istəyirik. Eyni zamanda, biz həmişə öz ləyaqətimizi, müstəqilliyimizi, həyat tərzimizi müdafiə edəcəyik və heç bir xarici aktora öz standartlarını və iradəsini hökumətimizə və xalqımıza tətbiq etməyə imkan verməyəcəyik." Yəqin ki, diqqətli oxucumuz on doqquz il fərqlə səsləndirilmiş fikirlərdəki eyniliyi sezdi.

İlham Əliyev prezident kimi andiçmədəki həmin çıxışında demişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

On illər sonra isə dövlət başçımız Şuşada – qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə mətbuata bəyanat verərkən bildirdi ki, bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi.

Başqa bir fakt. Azərbaycan Prezidenti BMT tribunasından demişdi ki, bizim heç bir ölkəyə ərazi iddiamız və ya kiminsə daxili işlərinə qarışmaq niyyətimiz yoxdur. Ancaq, eyni zamanda, kiminsə bizim daxili işlərimizə qarışmasına da imkan verməyəcəyik. Ötən ilin noyabrında isə dövlət başçısı bu məsələni daha kəskin şəkildə qabardaraq demişdir: "İsraildə səfirlik, eləcə də Fələstində təmsilçilik ofisi açmaq qərarı bizim milli maraqlarımıza əsasən verilmiş bir qərardır, İsrail və Fələstinlə uzunmüddətli əməkdaşlığa əks etdirir. Əminəm ki, həmin qərar sülh işinə xidmət edəcək və bu, faktiki olaraq uzunmüddətli, mehriban əməkdaşlığın rəsmiləşdirilməsidir... Bizim məqsədimiz müəyyən stereotipləri olanları xoşbəxt etmək deyil. Məqsədimiz xalqımızı xoşbəxt etmək, Azərbaycan üçün doğru olanı etməkdir və biz bunu edirik".

Daha bir aktual məsələ. Dövlət başçımız çox illər öncə demişdi ki, Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Dövlət başçımızın 2023-cü ilin ölkədə "Heydər Əliyev ili" elan olunması haqqındakı sərəncamının preambulasında isə oxuyuruq: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

Vəssalam, hörmətli oxucu, sən də gördün ki, zaman İlham Əliyevin siyasi strategiyasında korrektə edə bilməyib. Çünki bu strategiya elmi şəkildə, haqqa, ədalətə, beynəlxalq hüquqa və milli-mənəvi dəyərlərimizə, ən başlıcası isə Heydər Əliyev siyasi kursuna istinad edərək hazırlanmışdır.

Bu strategiya bizə və dostlarımıza hələ çox uğurlar qazandıracaq!

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

**Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışında bildirib ki, Azərbaycan da eyni addımı atacağı təqdirdə Ermənistan öz qoşunlarını Ermənistan–Azərbaycan sərhədinin bütün xətti boyunca geri çəkməyə hazırdır. Paşinyan 1991-ci ilə qədərki sərhədləri nəzərdə tutub və xatırladıb ki, Avropa İttifaqı (Aİ) təhlükəsizliyin təminatı kimi belə ikitərəfli addımın atılmasını irəli sürüb. Qeyd edək ki, erməni baş nazir bunları aprelin 11-də tələfatla nəticələnmiş hərbi insidenti şərh edərkən deyib. Söhbət Azərbaycan və Ermənistan hərbçilərindən, ümumilikdə, 7 nəfərin həlak olduğu şərti sərhəd kimi qiymətləndirilən zonadakı qarşıdurmadan gedir.**

# Paşinyan sovetlərin tikanlı məftillərinə "ilişib"

## Alma-Ata Bəyannaməsi, Madrid prinsipləri və Nikolsayağı hiylə



Paşinyanın sözlərinə görə, Ermənistan tərəfinin səylərinə baxmayaraq, Tex (Dığ – red.) kəndi ərazisində sərhədçilərin yerləşdirilməsi prosesi gərginliksiz ötüşməyib. Deməli, o, ölkəsinin ərazidə hərbi birləşmələr yerləşdirmək məramının olduğunu təsdiqləyir. Bəs, bu addım nəyə lazımdır? Baş nazir konstruktiv davranmaq istəsəydi, Ermənistan nəyisə fürsət bilib sərhədçi yerləşdirməkdənsə, delimitasiya və demarkasiya işlərinə başlamağa qərar verərdi. Belə bir qərar yoxdur. Əvəzində, İrəvan tərəfindən vəziyyəti gərginləşdirmək niyyətləri var. Nəzərə alaq ki, belə niyyətlər əvvəllər də olub. 2020-ci ildən bu yana Ermənistan dəfələrlə spekulyasiyalara yol verib. Elə buna görə də Azərbaycan Ordusu şərti sərhəddəki yüksəkliklərə nəzarəti ələ alıb ki, mümkün eskalasiya perspektivini əvvəlcədən müəyyənləşdirə bilsin, qabaqlayıcı tədbirlər görsün.

Azərbaycanın hərəkətlərinin, guya, təxribat olduğunu deyən Ermənistan baş naziri bildirir ki, siyasi qiymətləndirmə nöqteyi-nəzərindən, Aİ-nin bəyanatı da 1991-ci il sərhədlərinə qayıdılmasını əsas götürür. Əvvələ, nə üçün bu qurum yeni nə isə deməlidir? Olmazdımı ki, 44 günlük müharibədən sonra Ermənistan konstruktiv mövqe tutub 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə yerinə yetirəydi? Bu gün də yerinə yetirmir və Aİ tərəfindən səslənmiş hansısa fikirə fokuslanır. Beləliklə, İrəvan müharibədən sonra formalaşmış reallıqlara alternativ irəli sürmək məqsədinə köklənir. Yəni, onun Aİ patronajlığına söykənərək "məqsəd" reallaşdırmaq istəyən Nikol Paşinyandır. O, 2020-ci ildə altına imza atdığı sənədin şərtlərinə əməl etsəydi, indi baş verənlər yaşanmayacaqdı...

Əslində, Nikolun səsləndirdiyi və müəllifinin Aİ olduğunu bildirdiyi təklifin özü də siyasi təxribat mahiyyəti daşımaqdadır. Belə çıxır ki, Azərbaycan Ermənistan ərazisini işğal edib. Halbuki, bu hal yoxdur. Digər tərəfdən, 1991-ci ildə sərhədlərin konkret müəyyənləşdirilməsinə dair sənəd olmayıb. Sərhədlərin özü də, həmçinin. Əgər Paşinyan Sovet İttifaqı dağıldıqdan sonrakı Alma-Ata Bəyannaməsinə istinad edirsə və edir də, o zaman həmin bəyannamənin məramını 30 ilə yaxın müddətdə heçə sayan tərəf Ermənistandır, Azərbaycan yox. Qarabağı bir kənara qoyaq, tutaq ki, mübahisəlidir (əslində, belə deyil) bəs Ağdam, Kəlbəcər, Zəngilan, Qubadlı, Füzuli, Laçın necə? Sözügedən rayonlar işğal edilməli idi? Azərbaycanın işğal müddətində çəkdiyi məhrumiyyətlər var. Bunu unutmaq olmaz. Üstəlik, müharibə aparaq ələ etdiyi Zəfərin qazandırdığı üstünlük də vurğulanmalıdır. Həmin üstünlüyə görədir ki, bu gün ölkəmiz öz haqlarını diktə edən tərəfdir və etməlidir də.

Paşinyan isə özünə sərfəli olanda keçmişə qayıdır, sərf etməyəndə keçmişi lənətləyir. Məsələn, o, parlamentdəki çıxışında onu da bildirib ki, Ermənistanın əvvəlki rəhbərliyi 2007-ci ilin Madrid prinsipləri ilə Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb. O zaman belə çıxır, Nikol indi canfəşanlıq etməklə, Sarkisyan-Koçaryan rejiminin yol verdiyi səhvi aradan qaldırmaq niyyətindədir və istəyir ki, özünü qəhrəman olaraq göstərsin. Hər halda, "Qarabağ Ermənistandır" deyib hərbə-zorba gələn məhz o idi. Necə deyərlər, həmin vaxt ağını çıxardı və müharibədə də cavabını artıqlaması ilə aldı.

Paşinyanın haqqında söz açdığı Madrid prinsipləri elə-belədən meydana çıxmamışdı. Beynəlxalq ictimaiyyət Ermənistan hakimiyyətinə təsir göstərmişdi. Təəssüf ki, bu təsir, ancaq, kağız üzərində qalmışdı. Sual yaranır: Paşinyan nəyə görə Madrid prinsiplərini müharibədən əvvəl xatırlamırdı? Bəs, yaxşı, indi hansı "həqiqətin" arxasına düşüb? Sualımız ritorikdir, çünki Nikolu düşündürən həqiqət deyil. İzah edək nədir.

Paşinyan, belə demək mümkünsə, 1991-ci ilə qayıtmaqla, manipulyativ mövqe tutmaqdadır. Çünki həmin ilin sərhədi Azərbaycan və Ermənistan SSR arasında keçmiş inzibati sərhəddir və qeyd etdiyimiz kimi, SSRİ-nin süqutundan sonra tərəflərin Alma-Atada Bəyannamə imzalaması nəticəsində dövlət sərhədinə çevrilmişdir. Burada maraqlı, daha doğrusu, məkrli niyyətə hesablanmış incə məqam var. Axı Qarabağın "müstəqilliyinin" tərəfdarları hesab edirlər ki, həmin bəyannamədə ərazinin müstəqil dövlət statusu formal olaraq müəyyənləşib və hazırda Bakı və Moskva mövcud istiqamətdə mübahisə edirlər. Deməli, Paşinyanın keçmişə boylanması, məhz, bu mübahisə zəminindədir. Görünür, dividend götürməyi düşünür.

Diqqət edək, Paşinyanın sözlərinə görə, qoşunların 1991-ci il sərhədindən ikitərəfli çıxarılması məntiqi olaraq, 2022-ci ildə Soçi və Praqada keçirilmiş sammitlərdə Azərbaycana Ermənistanın imzaladığı sazişlərdən irəli gəlir: "Ermənistan Ermənistan-Azərbaycan sərhədinin bütün uzunluğu boyunca oxşar addımlar atmağa hazırdır. Biz 2021-ci ildən hazır olduğumuzu bildiririk... Azərbaycan beynəlxalq platformalarda əldə olunmuş razılaşmalara əməl etmədiyini sistemli şəkildə nümayiş etdirir".

Bəli, vurğuladığımız kimi, Ermənistan baş naziri 44 günlük müharibəni və müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini "unudur". Üstəlik, manipulyativ niyyətini Soçi və Praqa görüşləri üzərinə gətirir. Həmin görüşlərdəki razılaşma ilə Alma-Ata bəyannaməsi arasında paralellər aparmaq fikrinə düşür. Halbuki hər iki görüşdə başlıca müzakirə predmeti üçtərəfli bəyanatdan irəli gələn öhdəliklər olmuşdu.

Nikol 1991-ci ilin üzərinə gəlirsə, deməli, avtomatik olaraq, Qarabağda Ermənistana məxsus hərbi birləşmələrin mövcudluğunun mübahisə predmetinə çevrilə bilməyəcəyini vurğulamış olur. Ancaq bunun mübahisəsi getməlidir. Digər tərəfdən, üçtərəfli Bəyanata əsasən, Ermənistanın üzərinə götürdüyü konkret öhdəliklər var. Həmin öhdəliklərə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun açılması da daxildir, Naxçıvandakı və Qazaxdakı anklav kəndlərin ölkəmizə qaytarılması da. Paşinyan, nədənsə, bunlardan söz açmır. Əslində, söz açmalıdır.

Belə çıxır ki, qoşunlar Paşinyanın nəzərində tutduğu nöqtələrə qayıdacaq, rəsmi İrəvan isə əvvəllər olduğu kimi, yenə də bildirəcək ki, Qarabağda erməni hərbi birləşmələri yoxdur, oradakı Xankəndi, Ağdərə polisidir və s. Beləcə, bölgədəki separatçılıq meyilləri saxlanılacaq. Erməni baş nazirin hiylə ilə dolu açıqlaması, heç şübhəsiz, diqqəti məhz, buna – Qarabağ mövzusundan yayındırmağa hesablanıb. Hər halda, niyyəti baş tutmayacaqdır. Çünki Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması mahiyyətinə kompleks yanaşılması vacib olan məsələdir. Burada hər hansı "ağıllı gedişlərə" nəinki yer yoxdur, hətta, belə gedişlər təhlükəlidir. Başda N.Paşinyan olmaqla, Ermənistanın siyasi hakimiyyəti anlaqsız və anlaşılmaz davranışları ilə təhlükəni böyüdür, özü üçün yeni iflas reallığı formalaşdırır. Ancaq bunun fərqində deyil.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

# Təxribatçıya dəstək verən kimdir?

## *Fransa Avropada anti-Azərbaycan cəbhəsinin moderatoru rolunda çıxış edir*

**Bu ilin 11 aprel tarixində ermənilərin Laçın istiqamətində ordumuzun mövqelərini ağır silahlardan atəşə tutması və nəticədə 3 hərbi qulluqçumuzun şəhid olması Azərbaycan xalqının qəzəbinə səbəb olub.**

Ölkə ictimaiyyətində narazılıq doğuran digər bir amil isə erməni təxribatından qısa müddət sonra Fransa XİN-in səsləndirdiyi bəyanatdır. Bəyanatda baş verənlərdən "narahatlığını" ifadə edən Fransa, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünə "hörmət etməyə" səsləyib. Rəsmi Paris Azərbaycana tövsiyə edib ki, öz qoşunlarını "işğal edilmiş mövqelərdən" çıxarsın. Bəyanatda deyilir ki, gələcəkdə oxşar insidentlərin baş verməməsi üçün Azərbaycan Ordusu "işğal etdiyi" mövqelərdən geri çəkilməlidir.

Məlumat üçün qeyd edək ki, cari ilin 16 mart tarixində Fransa Senatı Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə bəyanat qəbul edib. Həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının rəhbəri Markus Ritter də Azərbaycan əleyhinə bəyanat səsləndirib, ölkəmizi Ermənistana hücum etməkdə suçlayıb.

### Parisdən gələn bəla

Son iki ayda ölkəmiz əleyhinə üç bəyanatın səslənməsi fonunda diqqət çəkən məqam bu bəyanatların Fransanın bilavasitə səyi və təkidi ilə qəbul edilməsidir. Fransa Senatı və XİN-i adından ölkəmiz əleyhinə təxribat xarakterli bəyanatlar səsləndirən Fransa Avropa İttifaqı missiyasının rəhbərliyini də anti-Azərbaycan koalisiyasına cəlb edə bilib. Bütövlükdə, bu gün açıq-aşkar ermənipərəst siyasət yürüdən Fransa Avropadakı anti-Azərbaycan cəbhəsinin moderatoru rolunda çıxış edir. Avropadakı ermənipərəst qüvvələr məhz Paris tərəfindən idarə olunur. Bu isə onun Cənubi Qafqazda gərginliyin artmasında, regional sülh və təhlükəsizlik üçün yeni təhdidlərin meydana çıxmasında maraqlı olduğunu göstərir.

Avropa İttifaqı missiyasının Ermənistana gəlişindən sonra erməni təxribatlarının daha da genişlənməsi faktı da Fransanın bölgədə vəziyyəti israrla gərginləşdirməyə çalışdığından xəbər verir.

Avropa İttifaqı missiyasının bölgədəki mövcudluğu fonunda özlərini təhlükəsizlikdə hiss edən ermənilər həvəslə yeni təxribatlara əl atır, Fransanın təbliğat maşınının köməyi ilə bu təxribatlara görə Azərbaycanın ittiham edilməsinə nail olurlar. Halbuki, 44 günlük Vətən müharibəsi nəticəsində düşmən üzərində parlaq Zəfər qazanan və işğaldakı bütün torpaqlarının azad edilməsinə nail olan Azərbaycanın bu cür təxribatlara heç bir ehtiyacı yoxdur. Sadəcə, Avropanın ən qədim "demokratiya və ədalət beşiklərindən" biri olan Fransa məqsədli şəkildə həqiqəti təhrif etməklə Azərbaycanı bütün dünyanın qınaq hədəfinə çevirməyə, onun yüksək nüfuzuna, müsbət imicinə xələl gətirməyə çalışır.

### Faciələrdə Fransa əli

Terror dövləti olan Ermənistanı himayə etmək və qanlı erməni qiyafəsində Cənubi Qafqazda söz sahibi olmağa çalışan Fransa öz məqsədinə nail olmaq üçün erməni terrorunu açıq-aşkar dəstəkləməkdədir. Fransa Ermənistana siyasi-diplomatik, maddi-mənəvi dəstək göstərməklə onu yeni cinayətlərə sövq edir. Bu baxımdan əminliklə demək olar ki, erməni təxribatı nəticəsində həlak olan hər bir vətəndaşımızın qətlində Ermənistanla yanaşı, həm də Fransanın əli var. Çünki Fransanın bunca dəstəyi olmadan Ermənistanın Azərbaycana qarşı geniş terror cəbhəsi açması, silsilə təxribatlar həyata keçirməsi mümkün deyildi.

Rəsmi Paris Fransanın regiondakı maraqlarını Azərbaycan insanının qanına batan əlləri ilə təmin etməyə, bu qanlar üzərində siyasi-iqtisadi dividend qazanmağa çalışır. Bu baxımdan, Azərbaycanın erməni terrorçuları tərəfindən şəhid edilən hər bir vətəndaşının ölümünə görə Ermənistanla yanaşı, həm də Fransanı ittiham etməyə, beynəlxalq təşkilatlardan onun məsuliyyətə cəlb olunmasını tələb etməyə haqqı var.



### Həqiqətlə yalanın savaşı

Fransanın Azərbaycana qarşı həyata keçirdiyi dezinformasiya siyasətinin kifayət qədər geniş auditoriyaya malik olmasına baxmayaraq, onun Parisə uğur gətirməyəcəyi birmənalıdır. Çünki dünyamızın bugünədəki təcrübəsi göstərir ki, həqiqətə yalanla qalib gəlmək mümkün deyil. Əksinə, şübhə yoxdur ki, yalan və böhtanı beynəlxalq siyasətin avanqardına çevirən Fransa tutduğu yanlış siyasət xətlə öz nüfuzunu sürətlə itirəcək, onun qeyri-ciddi, etibarsız, yalançı dövlət imici formalaşacaq. Bu isə Fransa hakimiyyətinin, hər şeydən öncə, öz xalqına ən böyük bədxahlığı demək olacaq.

Ona görə də rəsmi Paris, gec də olsa, terrorçu Ermənistana himayədarlıqdan imtina etməli, bütün dünyada, eləcə də Cənubi Qafqazda baş verən olaylarla bağlı obyektiv mövqe sərgiləməlidir. Yalnız belə bir mövqe Fransanın regionda və dünyadakı nüfuzunu yüksəldə, Azərbaycanın Parisə etimadını bərpa edə bilər.

*Seymur ƏLİYEV,*
*"Xalq qəzeti"*

*Ekoaksiyanın gündəliyi*

# Doğru yolu oğru yoluna çevirmək olmaz!

**Uzun illər idi ki, hər orucluqda evimizdə cavabını bilmədiyim sual eşidirdim: Görəsən, əsgərlərimiz arasında oruc tutan varmı? Varsa, onlar növbədə olanda orucu necə açırlar? Sonra öyrəndim ki, hərbçilərimiz arasında oruc tutanlar var və onların ibadəti üçün hər cür şərait yaradılıb.**

Builki Ramazan günlərində isə bir yas mərasimində iştirak edən köhnə dostumuzdan maraqlı fikirlər eşitdim: "Əmim oğlu ekofəalların etiraz aksiyasında iştirak etdiyi günlərdə də orucunu davam etdirdi". Yerdən səs gəldi ki, orada iştirak edən cavanlar bizim fəxrimizdirlər.

Həmin məqamda mən dövlət başçımızın bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirləri xatırladım: "Laçın –Xankəndi yolunda etiraz aksiyası keçirən gənclər bizim fəxrimizdir. Gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər. Bunun, necə deyərlər, bir addımlığında separatçılar dünyaya tamamilə yalan informasiya ötürməklə məşğuldurlar".

Xatırladaq ki, artıq dörd aydan çoxdur ki, davam edən bu tədbir bütün dünya Azərbaycan təbiətinə ekoloji ziyan vuran xarici şirkətlərin və Ermənistan iş adamlarının fəaliyyətinə etiraz edən könüllülərin aksiyası kimi qəbul edir. Ermənistan və onun havadarları isə vay-şivən qoparırlar ki, Xankəndi guya blokadaya alınıb. Ancaq heç bir dəlil-sübutları yoxdur. Bu dörd ayın hər günündə həmin yoldan həm rus sülhməramlılarının, həm Beynəlxalq Qızıl Xaç Komitəsinin avtomobilləri, həm də humanitar məqsədli nəqliyyat vasitələri tam sərbəst şəkildə istifadə edirlərsə, hansı dəlil-sübutları ola bilər? Artıq beynəlxalq aləmdə hamı görür ki, ermənilərin iki əsrdən bəri davam edən çoxsaylı yalanlar seriyasına absurd "blokada" riyakarlığı da əlavə edilib.

Dövlət başçımız hələ yanvarda demişdi ki, orada blokadadan söhbət gedə bilməz. Çünki qısa müddətdə həmin yoldan sülhməramlıların dörd yüzə yaxın yük avtomobili keçmişdir. Fikir verin, aksiyalar dekabrın 12-də başlanmışdı. Cənab Prezident isə oradan 400 avtomobilin keçdiyini yanvarın 10-da – yeni aksiyanın başlanmasından heç bir ay ötməmiş deyirdi. Bir ayda dörd yüz maşın keçibsə, bunun harası blokada oldu?

Azərbaycan tərəfi aksiya keçirilən əraziyə dəfələrlə xarici siyasətçiləri, diplomatları, mətbuat təmsilçilərini aparıb. Hamı görür və etiraf edir ki, yol humanitar məqsədli nəqliyyat vasitələri üçün tam açıqdır. Ermənistan və ermənipərəst dairələr isə hələ də feyk məlumatlar yayırlar ki, guya, Azərbaycan aksiya keçirilən yerdə yolu tam bağlayıb. Dövlət başçımız "blokada" adıyla dünya ictimaiyyətini aldatmağa çalışanları fakt qarşısında qoyur: "Əlbəttə ki, oradan keçən, hətta bu aksiyaya qədər keçən bütün nəqliyyat vasitələri nəzarət altında idi. Biz haradan öyrəndik ki, İran maşınları oraya yanacaq aparır? Biz orada gördük. Halbuki, İran tərəfi bunu əvvəllər inkar etməyə çalışırdı. Hətta İran maşınları üzərinə saxta erməni nömrələrini yapışdırmaqla bizi belə primitiv səviyyədə aldatmaq istəyirdilər".

(ardı 6-cı səhifədə)

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.2.3-cü yarımbəndə ikinci halda "qeydiyyatının aparılması," sözlərindən sonra "karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi ilə əlaqədar hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi," sözləri əlavə edilsin.

**2.** 5.1.28-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.29-cu yarımbənd əlavə edilsin:

"5.1.29. karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi ilə əlaqədar heyvanların, heyvan mənşəli məhsulların və xammalın məhv edilməsi, emalı və ya təkrar emalı məqsədilə götürülməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, habelə həmin xəstəliklər nəticəsində hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi barədə məlumatlar.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

## "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011; 2008, № 8, maddə 718; 2009, № 8, maddə 630; 2010, № 3, maddə 186; 2015, № 7, maddə 841; 2018, № 4, maddə 672, № 12 (I kitab), maddə 2553; 2019, № 8, maddə 1386; 2020, № 4, maddə 405, № 5, maddə 562; 2022, № 8, maddə 867; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2038 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.7-1-ci bənddə ", 24.1-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 2.7-5-ci bənd əlavə edilsin:

"2.7-5. həmin Qanunun 24.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (götürülməsi, məhv edilməsi, zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı ilə bağlı qərar qəbul edilməsinə münasibətdə) və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (götürülməsinin, məhv edilməsinin, zərərsizləşdirilməsinin, emalının və ya təkrar emalının təmin edilməsinə münasibətdə) nəzərdə tutulur.".

**3.** 2.8-ci bəndə "birinci halda" sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 aprel 2023-cü il**

# "Ermənistanın iddiaları tamamilə əsassız və yalandır"

**Milli Məclisin Sədri Sahibə Qafarova bu fikirləri Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində MDB-yə Üzv Dövlətlərin Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasında çıxışı zamanı səsləndirib. O, deyib ki, Ermənistan götürdüyü öhdəliklərin əksinə olaraq hələ də öz silahlı qüvvələrini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmayıb: "Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbi qulluqçusu hələ də Azərbaycan ərazisindədir. Həmçinin Ermənistan Laçın yolundan minaların, hərbi texnikanın və silahların daşınması, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində şəxsi heyətin rotasiyası, habelə Azərbaycanın qanunsuz istismar edilmiş faydalı qazıntılarının Ermənistana daşınması üçün istifadə edir. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin 2022-ci il dekabrın 12-dən başlayaraq Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiya məhz buna qarşı yönəlib. Laçın yolu yalnız humanitar məqsədlər üçün istifadə olunmalıdır".**



Parlament Sədri diqqətə çatdırıb ki, Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin 6 mindən çox nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin, humanitar yüklərin Laçın yolundan maneəsiz keçməsi sübut edir ki, Ermənistanın, guya, bu yolun bağlanması, qondarma "humanitar fəlakət" barədə iddiaları tamamilə əsassızdır və yalandır: "Laçın yolunun Ermənistan–Azərbaycan sərhədində sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifi bu yolun istifadəsində şəffaflığı təmin edəcək. Lakin erməni tərəfi bunda maraqlı deyil və təklifi qəbul etmir. Həmçinin üçtərəfli Bəyanata uyğun olaraq, Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri hələ də yerinə yetirmir".

S.Qafarova deyib ki, Ermənistan regionda vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürüdür. Avropa İttifaqının missiyasının bu ölkədə olmasından sui-istifadə etməsi və vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürütməsi aydın müşahidə olunur: " Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri Azərbaycan–Ermənistan sərhədi boyunca və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində atəşkəs rejimini pozmaqda davam edirlər ki, bu da insan tələfatına səbəb olur. S.Qafarova üç gün əvvəl Ermənistanın sərhəddə növbəti hərbi təxribat törətdiyini və nəticədə üç azərbaycanlı hərbçinin həlak olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri beynəlxalq təşkilatları Ermənistanın bir neçə gün əvvəl sərhəddə itkin düşmüş iki Azərbaycan hərbçisinə qarşı işgəncə və zorakılığını araşdırmağa və ona müvafiq qiymət verməyə çağırıb. Müvafiq beynəlxalq təşkilatlar sözügedən zorakılığı araşdırmalı və ona lazımi qiymət verməlidirlər.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# Ermənistan sülh prosesində maraqlı deyil

**Aprelin 14-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov Səmərqənd şəhərində keçirilən Müstəqil Dövlətlər Birliyinin (MDB) Xarici İşlər Nazirlərinin məhdud tərkibdə keçirilən iclasında çıxış edib.**



Xarici İşlər Nazirliyindən bildirilib ki, nazir müavini çıxışında ölkəmizin MDB çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığa və hökumət başçıları, o cümlədən xarici işlər nazirlikləri səviyyəsində məhsuldar qarşılıqlı fəaliyyətin davam etdirilməsinə əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Çıxış zamanı MDB-nin qarşılıqlı fəaliyyət məsələləri ilə yanaşı, müasir dünyada təhlükəsizlik və yeni çağırış və təhdidlərə qarşı mübarizənin aktual məsələlərinin müzakirə olunduğu siyasi məsləhətləşmələr mexanizmi olduğu bildirilib. Mövcud çətin beynəlxalq şəraitdə MDB ölkələrinin xüsusən təhsil, elm, mədəniyyət, səhiyyə, gənclər və idman sahələrində əməkdaşlığı genişləndirməkdə davam etdirdiyi diqqətə çatdırılıb.

Nazir müavini daha sonra Azərbaycanın keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması, o cümlədən ölkəmizin regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində davam edən səylərindən, Azərbaycan hökuməti tərəfindən işğaldan azad edilmiş ərazilərin genişmiqyaslı bərpası və inkişafı məqsədilə həyata keçirdiyi layihələrdən, erməni əsilli əhalinin reinteqrasiyası prosesindən bəhs edib.

Azərbaycan tərəfindən atılan müsbət addımların fonunda Ermənistanın əksinə, vəziyyəti gərginləşdirməkdə davam etdiyini bildirən nazir müavini, qarşı tərəfin müxtəlif təxribat xarakterli hərəkətlərdən istifadə etməklə Azərbaycanın və bütövlükdə beynəlxalq ictimaiyyətin iki ölkə arasında sülhün bərqərar olması və münasibətlərin normallaşdırılması istiqamətində ardıcıl səylərini sarsıtmaq cəhdlərindən söz açıb. Bu xüsusda, nazir müavini aprelin 11-də Ermənistanın Gorus rayonunun Dığ kəndi istiqamətindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan Respublikasının Laçın rayonu ərazisindəki Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması nəticəsində Azərbaycan Ordusunun hərbçilərinin şəhid olduğunu və yaralandığını bildirib.

Nazir müavini beynəlxalq ictimaiyyətin sülh sazişi üzrə danışıqlara dair ciddi çağırışları fonunda Ermənistanın bu kimi təxribatlarının sülh prosesində maraqlı olmadığının bariz nümunəsi olduğunu iclas iştirakçılarının diqqətinə çatdırıb.

Çıxışında Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması ilə bağlı erməni tərəfinin fərziyyələri ilə bağlı məsələyə aydınlıq gətirən nazir müavini Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarının, bu sərvətlərin Ermənistana daşınmasının və sırf humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının yolverilməz olduğunu vurğulayıb. Suveren Azərbaycan ərazilərində bu kimi fəaliyyətlərin Azərbaycan dövlətinin təhlükəsizliyinə və bütövlüyünə ciddi təhlükə yaratdığını bildirib.

Bu xüsusda, nazir müavini Azərbaycanın Ermənistandan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatının, eləcə də Praqa və Soçi razılaşmalarının bütün müddəalarının, xüsusən də qeyri-qanuni erməni silahlı birləşmələrinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən çıxarılmasının təmin olunması, habelə nəqliyyat kommunikasiyalarının açılması, dövlət sərhədinin delimitasiyası ilə bağlı danışıqlar prosesinin davam etdirilməsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində real addımlar atmasını gözlədiyini vurğulayıb.

**"Xalq qəzeti"**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 104** **Bakı şəhəri, 12 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 636) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nın 1.1-1.3-cü bəndləri müvafiq olaraq 1.2-1.4-cü bəndlər hesab edilsin və həmin Siyahıya aşağıdakı məzmunda 1.1-ci bənd əlavə edilsin:

"1.1. toksiki istehsalat tullantılarının utilizasiyası;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 105** **Bakı şəhəri, 13 aprel 2023-cü il**

***"Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi və "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 343, № 11, maddə 1858; 2021, № 3, maddə 298) ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na aşağıdakı məzmunda 136-1-ci, 136-2-ci və 136-3-cü hissələr əlavə edilsin:

"136-1. 050811 Ümumi fiziki hazırlıq

136-2. 050812 Kütləvi-sağlamlaşdırıcı idman

136-3. 050813 Adaptiv bədən tərbiyəsi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 106** **Bakı şəhəri, 13 aprel 2023-cü il**

***"Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestrinin aparılması qaydaları"nın təsdiq edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 2.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestrinin aparılması qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2.1. yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestrinin altı ay müddətində formalaşdırılmasını təmin etsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**3.** Yerli icra hakimiyyəti orqanları yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri fəaliyyətə başladıqdan sonra qəbul etdikləri qeyri-normativ hüquqi aktların mütəmadi olaraq həmin reyestrə daxil edilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 107** **Bakı şəhəri, 13 aprel 2023-cü il**

***"Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında***

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu dərc olunduğu gündən 2 (iki) il sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan və ABŞ arasında hərbi təhsilin inkişaf perspektivləri müzakirə olunub

**Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Amerika Birləşmiş Ştatlarında səfəri çərçivəsində bu ölkənin Milli Müdafiə Universitetini (MMU) ziyarət edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, universitetlə tanışlıqdan sonra general-leytenant R.Tahirov ABŞ-ın Milli Müdafiə Universitetinin 17-ci prezidenti general-leytenant Mayk T.Plen ilə görüşüb.

Tərəflər ABŞ-ın hərbi təhsil sisteminin və MMU-nun bu sahədə təcrübəsinin öyrənilməsinə dair fikir mübadiləsi aparıb. General-leytenant R.Tahirov Azərbaycanda yeni yaradılan Milli Müdafiə Universiteti barədə ətraflı məlumat verib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycanı hərtərəfli inkişafa, milli yüksəlişə qovuşdurmuş lider



**Ötən əsrin 70 – 80-ci illəri Azərbaycanın həyatında hərtərəfli sosial-iqtisadi inkişaf və milli-mənəvi yüksəlişlə səciyyələnən bir dövr olmuşdur. Sovet İttifaqının digər respublikalarında həmin vaxt durğunluq və mənəvi tənəzzül hökm sürsə də Azərbaycanda bütün sahələrdə tərəqqi baş vermişdir. Bunun səbəbi nə idi?**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. O vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə, dirçəlişə, inkişafa, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. Həmçinin 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatda intibah dövrü başladı.

Dövrə aid sənədlərin təhlili göstərir ki, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında istehsalın həcmi genişlənmiş, məhsuldarlıq yüksəlmiş, böyük uğurlar qazanılmış, yeni, müasir istehsal sahələri yaradılmış, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Heydər Əliyevin fədakar əməyi, xüsusi təşkilatçılığı ilə iqtisadi inkişaf dinamikası Azərbaycanda keçmiş ittifaq respublikalarından xeyli yüksək olmuşdur. Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaq respublikaları arasında öndə gedərək daima plan və tapşırıqları vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdir.

Heydər Əliyev mərkəzdəki nüfuzundan istifadə edərək respublikanın xalq təsərrüfatının inkişaf etdirilməsi üçün iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin aşağıdakı müvafiq qərarlarının qəbul edilməsinə nail olmuşdur: 1) 1970-ci il iyulun 23-də "Azərbaycan SSR xalq təsərrüfatının inkişaf etdirmək tədbirləri haqqında"; 2) 1970-ci il iyulun 25-də "Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında"; 3) 1975-ci il iyulun 9-da "Azərbaycan SSR kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"; 4) 1976-ci il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində"; 5) 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsrrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında". Onu da qeyd edək ki, bu qərarların yerinə yetirilməsi üçün mərkəzi büdcədən Azərbaycana xeyli vəsait ayrıldı. 1969-1982-ci illərdə respublikada 250-dən çox zavod, fabrik istifadəyə verilmiş, 630 min yeni iş yerləri yaradılmışdır.

Bu illərdə neft hasilatının, neft emalı və qazçıxarma sahələrinin inkişafında yeni mərhələ başladı. Yeni neft yataqları aşkar edildi və istifadəyə verildi. Neft və qaz mədənlərinin 80 faizi avtomatlaşdırıldı. Xəzər dənizinin dərin akvatoriyalarında geoloji-kəşfiyyat işlərinin gücləndirilməsinə diqqət artırıldı, neft və neftayırma, qaz sənayesi əsaslı şəkildə yenidən quruldu.

Heydər Əliyev neft-kimya sənayesinin inkişafını Azərbaycanın sosial-iqtisadi inkişafında başlıca amil hesab edirdi. Arxiv sənədlərinin və materiallarının təhlili göstərir ki, 1969-1982-ci illərdə kimya sənayesi məhsullarının, xüsusilə kükürd, plastik kütlə, sintetik, kauçuk və digər kimyəvi vasitələr istehsalında böyük nailiyyətlər əldə edilmişdir. Araşdırmalar, arxivdəki faktiki və statistik materiallardan məlum olur ki, bu dövrdə respublika sənayesinin yeni sahələri olan elektrotexnika, cihazqayırma, elektron dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmışdır. "Azon", "Ulduz" cihazqayırma zavodları və Sumqayıt kompressor zavodu və s. işə salındı. Heydər Əliyevin gərgin əməyi nəticəsində Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan KP MK-nın Büro iclasının 13 oktyabr 1972-ci il qərarı ilə Bakı məişət kondisionerləri zavodunun tikintisinə başlandı. Tikinti-quraşdırma işləri üçün əlavə 18 milyon manat ayrıldı. Xarici ölkələrdən 25 milyon manatlıq kompleks avadanlıqlar və s. alınıb quraşdırıldı. Nəticədə zavod qısa müddətdə tikilib, 1975-ci ildə istifadəyə verildi. 1982-ci ildə, hazırda ulu öndərin adını daşıyan Dərin Dəniz Özülləri zavodunun tikintisinə başlanıldı.

Heydər Əliyev Bakıda metropoliten tikintisinə də böyük diqqət yetirirdi. 1978-ci ildə "Nizami", 1980-ci illərin əvvəllərində isə bu qolun başqa stansiyaları "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar" və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi.

Bu dövrdə Azərbaycanın enerji müstəqilliyi təmin olundu. Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, "Azərbaycan" DRES-1 işə salındı. Bakı şəhəri və Abşeron yarımadasının içməli su ilə təchizatının yaxşılaşdırılması haqqında qərar qəbul olundu. Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə avqustun 1-nə kimi tam başa çatdırılması qərarlaşdırıldı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə kənd təsərrüfatının dinamik inkişafı, respublikanın iqtisadiyyatında onun rolunun artrması ən mühüm iqtisadi nəticələrdən biridir. Üzüm plantasiyaları 1985-ci ildə 1970-ci ildəkindən 2 dəfə artaraq 268 min hektara çatmış, kənd təsərrüfatının ümumi məhsul həcmi 2,6 dəfə çoxalmışdı. Ümummilli lider Heydər Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq 1981-ci ildə respublikanın tarixində ilk dəfə olaraq 1 milyon 151 min ton pambıq, 1 milyon 616 min ton üzüm, 644 min ton tərəvəz, 41 min ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton ət, 340 min ton süd və s. tədarük edilmişdir.

Baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatları, xalqın maddi rifahının yüksəlməsi Azərbaycanda mədəniyyət sahəsində də böyük inkişafa səbəb olmuşdu. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuşdu. Həmin il Bakıda böyük kinokonsert mərkəzi olan, indiki Heydər Əliyev adına Respublika Sarayı tikilmişdir.

Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə ən əhəmiyyətli xidmətlərindən biri, onun çox böyük prinsipial səyləri hesabına 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbitinə nail olması idi.

Heydər Əliyev respublikada elmin inkişafına və təhsil səviyyəsinin qaldırılmasına böyük diqqət yetirirdi. Azərbaycanda onlarla yeni elmi-tədqiqat müəssisələri yarandı. 1975-ci ildə Elmlər Akademiyasının nəzdində "Xəzər" Elmi Mərkəzi fəaliyyətə başladı. 1978-ci ildə mərkəzin əsasında Kosmik Tədqiqatlar İnstitutu təşkil edildi.

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda inşaat-mühəndisləri institutunun yaradılması haqqında qərar qəbul olundu.1979-cu ildə Azərbaycan Kardiologiya elmi-tədqiqat institutu yaradıldı, 5 nömrəli şəhər kliniki xəstəxanasının kardioloji korpusunda elmi-tədqiqat institutunun yerləşdirilməsi qərara alındı və 500 çarpayılıq kardioloji xəstəxananın tikintisinə başlanıldı. 1974-ci ildə Bakı şəhərində Zaqafqaziya respublikaları üçün neyrocərrahiyyə mərkəzinin təşkil olunması haqqında qərar qəbul olundu.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna, uzaqgörən xidmətlərindən biri də gənclərin Azərbaycandan kənarda ali təhsil almasına yaratdığı şəraitdir. Bunun nəticəsi idi ki, keçmiş SSRİ-nin 50-dən çox böyük şəhərinin 175-ə qədər nüfuzlu ali məktəblərində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin yüksək ixtisaslı mütəxəssis kimi hazırlandı.

Heç şübhəsiz ki, uzaqgörənliyi, fitri istedadı, iti və dərin duyumu hesabına Azərbaycanın gələcək müstəqilliyini proqnozlaşdıran ulu öndər Heydər Əliyev suveren dövlətçiliyimizin sosial-iqtisadi, ictimai-siyasi və xüsusilə də təhlükəsizlik sahəsində hansı ciddi problemlərlə sınağa çəkiləcəyini də görməyə bilməzdi. Bu baxımdan ümummilli liderin hələ sovet dövründə respublikamız üçün milli hərbi kadrların hazırlanması sahəsində atdığı uzaqgörən addımların Ermənistanın təcavüzünə məhz qaldığımız zamanda necə misilsiz əhəmiyyət daşıdığının bir daha şahidi olduq. Onu da qeyd edək ki, SSRİ dövründə ordu quruculuğu da məlum siyasi-ideoloji prinsiplərlə əsaslanırdı. Sovet rəhbərliyi müsəlman-türk respublikalarında milli hərbi kadrların hazırlanmasına hər vasitə ilə mane olurdu. Amma 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış hərbi təmayüllü internat məktəbi təşkil olundu.

Bu dövrdə Azərbaycan xalqının mənəvi dəyərlərinə böyük diqqət yetirilirdi. Nizami Gəncəvi, Əcəmi, Nəsimi, N.Tusi, M.P.Vaqif, Aşıq Ələsgər Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Hüseyn Cavid və başqa görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyi təntənə ilə qeyd olundu.

Hüseyn Cavid şəxsiyyət kimi Heydər Əliyevin həmişə diqqət mərkəzində idi. Şair dramaturqun 90 illiyi təntənə ilə qeyd edildi, 100 illik yubileyi ərəfəsində Heydər Əliyevin çox cəsarətli səyləri ilə 1937-ci ildə "pantürkist" kimi represiya olunmuş böyük Azərbaycan şairinin cənazəsi tapılmış, Qərbi Sibirdən Azərbaycana gətirilmiş və Vətəndə dəfn olunmuşdur.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi uzaqgörən siyasətinin nəticəsi idi ki, bu illərdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər. Lakin 1987-ci ildə Heydər Əliyev Sovet rəhbərliyindən uzaqlaşdırıldıqdan iki həftə sonra erməni təcavüzkarları Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi iddiası ilə kütləvi çıxışlara başladılar.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Azərbaycan SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və milli dəyərlərini qoruyub saxlayan respublikaya çevrildi. Sonralar ulu öndər qeyd edirdi ki, "Azərbaycanını sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır... Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi... 1970-1981-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

***İbrahim ZEYNALOV,***
***Bakı Dövlət Universitetinin professoru***

## "Heydər Əliyev irsi – yeni sosial islahatlar"



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində "Heydər Əliyev və Azərbaycanda yeni sosial müdafiə sisteminin formalaşdırılması" mövzusunda "dəyirmi masa" keçirilib. Öncə ümummilli lider Heydər Əliyevin nazirliyin foyesindəki büstü qarşısına gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad olunub.**

"Dəyirmi masa"da Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə, hökumət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri iştirak ediblər.

Tədbir Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişovun "Heydər Əliyev irsi – yeni sosial islahatlar" mövzusunda təqdimatı ilə başlayıb. Sahil Babayev, Musa Quliyev və Arif Rəhimzadə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin ölkəmizdə etibarlı sosial müdafiə sisteminin qurulması və inkişafı sahəsində misilsiz tarixi xidmətlərini qeyd ediblər. Bildirilib ki, ümummilli liderin 1993-cü il iyunun 15-də Azərbaycanın rəhbərliyinə qayıdışı ölkəmizi dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edib. Ulu öndər tərəfindən Azərbaycanda sosial müdafiə sisteminin gücləndirilməsi üçün ardıcıl tədbirlərin həyata keçirilməsi təmin olunub.

Ümumilikdə, 1995–2003-cü illər ərzində respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləğində 8 dəfə, orta aylıq əməkhaqqında 6 dəfədən çox artım olub, sosial sahədə qanunvericilik bazası yaradılıb. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlar üçün bir sıra sosial müdafiə, o cümlədən mənzillə təminat tədbirlərinə başlanıb.

Ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycanın qazandığı tarixi uğurlar, 44 günlük Vətən müharibəsindəki möhtəşəm Zəfərimiz qeyd olunub. Ölkəmizdə aparılan ardıcıl sosial islahatlar, xüsusilə son 5 ildə 4 sosial islahat paketi icra olunaraq sosial ödənişlərdə ciddi artımlar edildiyi, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişləndiyi, sosial sahədə innovativ həllərin geniş tətbiq edildiyi qeyd olunub.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***



## Bölgələrdə yubiley tədbirləri

Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü, rayon Tarix Diyarşünaslıq Muzeyi, Dövlət Rəsm Qalereyası və Lənkəran-Astara Regional Təhsil İdarəsi Masallı rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə "Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanın milli sərvətidir" mövzusunda tədbir keçirilib. Bu barədə maraqlı söhbətlər edilib və sonda şagirdlərin muzeyə və qalereyaya ekskursiyası təşkil olunub.

*

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Bozayran kənd orta məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə "Azərbaycan xalqının xilaskarı" mövzusunda tədbir keçirilib.

*

Cəlilabad rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyevin Cəlilabad rayonuna səfərlərindən xatirələr" adlı layihəyə başlanılıb. Layihə çərçivəsində keçirilən ilk görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı ulu öndərin 1998-ci ildə Cəlilabad rayonuna səfəri ilə bağlı xatirələrini bölüşüb.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# İrəvanda “qarabağlı” – yerli qarşıdurması

**Azərbaycanın 2020-ci ildə apardığı Vətən müharibəsində qazandığı tarixi Zəfər, Ermənistanın isə məğlubiyyəti haylar arasında hələ də ciddi müzakirə olunmaqdadır. Bu müzakirələr zamanı haylar bir-birini kəskin tənqid edir, səhvləri başqasının üzərinə atmağa çalışır, “qarabağlılar” ermənistanlıları, ermənistanlılar isə “qarabağlıları” ittiham edirlər.**



Belə mübahisələrdən birini erməni sosial şəbəkə istifadəçisi, İrəvan sakini Aro Sukiasyanın paylaşımı yaradıb. O, 2020-ci ilin payızında Qarabağda Azərbaycanın suverenliyinin bərpa olunduğu günlərdə Qarabağ ermənilərinin bölgədən kütləvi qaçışını əks etdirən video paylaşıb. Bu isə ermənilərin iki qolu arasında növbəti qəzəbli toqquşmaya səbəb olub. “Əgər siz birdən onları haradasa görsəniz, soruşun ki, onlar belə enerji ilə hara qaçıblar? Niyə onlar öz sevimli “Artsax”ını tək qoyub, onu taleyin ixtiyarına buraxıblar?!” – deyə Sukiasyan videonun təsvirində qeyd edib.

Əvvəlcə onu qeyd edək ki, 2 dəqiqə 40 saniyəlik videoda ermənilərin Qarabağdan avtomobillərlə qaçmaları əks olunub. Bu qısa vaxt ərzində kadrlarda 200-dən artıq avtomobil görünür. Kadrlarda o da görünür ki, Qarabağdan qaçanlar kasıb insanlar deyillər: maşınların mütləq əksəriyyəti xarici istehsaldır, onların arasında bahalı yolsuzluq avtomobilləri üstünlük təşkil edir. Və məhz bu video ətrafında hayastanlılarla şurtvatslar (Ermənistanda Qarabağdan gələnlərə verilən ad. Mənası dönənlər, dəyişənlər deməkdir) arasında şifahi döyüş başlayıb. Bu davada hər şey var: həm qorxaqlıq, həm də ittihamlar. Həmçinin onlara xatırladılıb ki, məhz Qarabağdan olanlar – Koçaryan və Sarkisyan Ermənistanın bu gün belə acınacaqlı vəziyyətə düşməsində günahkardırlar. Qeyd edilib ki, Ermənistan 30 ildir qarabağlıların qarnını doyurur, əvəzində heç nə almır.

***

“Onlar Qarabağı müdafiə etməmək üçün qaçdılar”, – deyə Anna Səfəryan adlı istifadəçi qeyd edib.

Xaçatur Sarkisyan isə yazıb: “Onların hamısının İrəvanda evləri var”.

“Niyə o zaman “sərhədi” bağlamadılar? Gərək, özlərini müdafiə edərək öləydilər”, – Lusine Şimalyan şərh edir. Qayane Sosiyan qaçan erməniləri “pisliklər” sözləri ilə səciyyələndirib. “Onlar insan deyil, nankor heyvanlardır”, – Hratsin Yesayan vurğulayıb.

Bundan sonra ittihamlar qartopu kimi böyüməyə başlayıb. Hayastanlılar xatırladıblar ki, Qarabağ erməniləri həmişə azərbaycanlılar arasında yaşayıblar, buna görə də onları “təmiz erməni” (?) hesab etmək olmaz.

İrəvanlılar 44 günlük müharibə günlərində kişilərin hərbi polisin onları tapmaması üçün Qarabağdan qadın geyimində və ya xalçaya bükülmüş halda qaçdıqlarını da opponentlərinə xatırladıblar.

Nəhayət, Marina Kamisidi adlı istifadəçi Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyət zonasında, guya, 120 min nəfərin yaşadığı barədə erməni təbliğatına zərbə vurub. Marina Kamisidinin sözlərinə görə, 44 günlük müharibə zamanı Qarabağı 11 min, münaqişə nəticəsində isə ümumilikdə 50 min erməni tərk edib. “Həqiqi statistika var”, – deyə Kamisidi yazıb.

Daha sonra erməni istifadəçilər yazıblar: “Sağlam kişilərdir, amma biabırçı şəkildə qaçırlar, yalnız bir türk görüblər”; “Niyə hamı bura gəlib bizə necə yaşamağı öyrədir və bizi xəyanətdə ittiham edir? Niyə bizim oğlanlar sizin üçün ölməli idilər?”; “Biz niyə sizi yedirtməliyik?” və sair.

***

Görünyü kimi, hayların iki qolu arasında parçalanma və nifrət hər gün daha da güclənir. 44 günlük müharibədə məğlubiyyət, “dəmir yumruğ”un gücü Ermənistanda cəmiyyətin müəyyən hissəsini ayıldıb. Bütün baş verənlərdən sonra onlar çətin ki, yenidən “miatsum”la xəstələnmək istəsinlər. Amma, əlbəttə, haylar baş verənləri yenidən unutsalar və revanşizmə başlasalar, yenidən “dəmir yumruğ”u öz başlarında görəcəklər.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

## *Ekspert rəyi*



**Tofiq ABBASOV, politoloq**

Ermənistan cəmiyyətində seqreqasiya deyilən bir proses gedir. Seqreqasiya latıncadır, “ayrılma” deməkdir və əhalinin bir qrupunun cəmiyyətdən müəyyən əlamətlərə görə zorla ayrılması siyasətidir. Biz bilirik ki, erməni cəmiyyəti, ümumiyyətlə, həmişə millətçi cəmiyyət olub. Onlarda həm özgələrə, həm də öz daxillərindəki müxtəlif kateqoriyalı insanlara qarşı radikalizm var. Ona görə də bunlar Qarabağ ermənilərini ömür boyu “ikinci sort” sayıblar, onlara həmişə yuxarıdan aşağı baxıblar. Bu baxımdan haylar arasında heç vaxt anlaşma olmayıb. Elə bir ixtilafdır ki, tarix boyu özünü göstərib. Təsadüfi deyil ki, Ermənistanda Sarkisyan və Koçaryanla bağlı nifrət özünü büruzə verir. Ümumiyyətlə, indi Ermənistan cəmiyyətində belə bir fikir var ki, ölkənin belə ağır duruma düşməsinin bilavasitə səbəbkarları məhz gəlib rəhbərliyə çatmış Qarabağ ermənilərdir. Onlar rəhbərliyə çatmamışdılar, onu oğurlamışdılar. Ona görə də hazırda erməni cəmiyyətinin ortaq fikri bundan ibarətdir ki, onlar özləri bura gəlməklə, hakimiyyəti ələ keçirməklə korrupsiyanı genişləndiriblər, qohum-əqrəbalarına qulluq etməyə başlayıblar. Faktiki olaraq onlar erməni xalqına rəhbərlik etməyiblər, öz ətraflarına, ailələrinə, dost-tanışlarına rəhbərlik ediblər və onlar üçün əlverişli şərait yaradıblar.

Bilirsiniz, bir etnosun içində nifrət, kin-küdurət varsa, başqa etnosu bəyənmirsə, hamını düşmən gözündə görürlərsə, əvvəl-axır o etnosun daxilində də bu cür parçalanma, bir-birini gözü götürməzlik kimi hallar baş qaldırır. Bu baxımdan erməni cəmiyyəti qətiyyən sağlam cəmiyyət sayıla bilməz. Hayların çox dərin xəstəlikləri var və onların epikrizinə nəzərə yetirsək, hansı səbəblərdən bu xəstəliyə mübtəla olduqlarını görə bilərik. Onlar vaxtilə Osmanlı imperiyasında da, Qafqazda da dostlarla düşmən, yaxınlarla özgə oldular. Türklərlə, azərbaycanlılarla düşmən oldular, bunu heç gizlətmirlər də. Öz daxillərində də parçalanma prosesi gedir. Bu, qeyri-sağlam cəmiyyətdir və belə bir cəmiyyətdə istər-istəməz bölünmə prosesləri getməlidir.

Haylar ölkə daxilində monocəmiyyət yaradıblar. Orada yaşayan bütün milli azlıqları – yezidləri, kürdləri, aysorları pərən-pərən salıblar. Yəni problem bunların özündə - erməni xislətindədir. Düzdür, onların da içində sağlam düşüncə sahibləri var. Amma biz görürük ki, onlar Ermənistan daxilində yaşaya bilmirlər. Çünki belə bir şəraitdə orada baş çıxarmaq, inkişaf etmək müşküldür. Ona görə də bacaran başını götürərək, o ölkədən qaçıb gedir.

# “Daşlar ölkəsi“ni daş kimi diyirlədirlər

**Üzləşdiyi problemlərin “həlli” üçün özünə arxa-dayaq tapmaq ümidilə Fransanın, Amerikanın, İranın, Rusiyanın, Hindistanın və hələlik bilmədiyimiz daha haraların qapısını döyən rəsmi İrəvanın etdiyi faydasız cəhdlərin tükənəcəyi gün yaxınlaşmaqdadır.**



### Hayastan regional alətə çevrilib

Rəsmi İrəvan dünənə kimi ona himayədarlıq edən ölkələr və qurumlar tərəfindən tərk edilmiş, ən yaxşı halda, bölgədə öz maraqlarını güdən aktorların əlində "regional alətə" çevrilib. Çünki həmin ölkələr Ermənistan rəhbərliyinin “sürüşkən” mövqeyinə dəfələrlə şahidlik etdiklərinə görə onlara yalnız dividend gətirən Bakı ilə münasibətlərinin pozulmasında qəti maraqlı deyillər. Azərbaycanın konkret, şəffaf və ədalətli mövqeyinin qarşısında sərgilədiyi yalançı, təhrifçi və avantürist hərəkətləri ilə özünü beynəlxalq dəstəkdən də məhrum etmiş Hayastanın bir çıxış yolu qalır: sülhə gəlmək.

Bu sülh təklifini ona Cənubi Qafqazda reallığı dəyişən, regionun şəriksiz lideri olan, indi həmin “köhnə qitə”nin etibarlı enerji partnyoru rolunu oynayan Bakı edir. Əgər İrəvan sülh prosesinin bundan sonrakı mərhələsində mövqeyini bu reallığa uyğun qursa, son nəticədə hamıdan çox özü qazanacaq. Bunu baş nazir Paşinyan da yaxşı başa düşür, sadəcə o, münaqişənin davam etməsində maraqlı olan erməni lobbisinin, diasporunun, daxildəki revanşist-ekstremist qüvvələrin təzyiqləri altında müstəqil qərar qəbul edə bilmir. Belə davam edərsə, yenə təxribatlar törədiləcək, yeni qurbanlar qaçılmaz olacaq?

Bəs, bu bədbin perspektiv kimə sərfəlidir? Əlbəttə ki, ilk növbədə, İrana. Son vaxtlar həm Ermənistana zəhərli təzyiqlərini, həm də anti-Azərbaycan siyasətini gücləndirən Tehranın İrəvandan regionu qeyri-sabitlik burulğanında saxlamaqdan ötrü alət kimi istifadə etməsi göz qabağındadır. Əks təqdirdə Hayastan hərbi gücünə və siyasi iradəsinə əyani bələd olduğu Azərbaycana qarşı 11 aprel tipli təxribatlara cürət eləməzdi.

Cəsarətsizin isə yalandan silah kimi istifadə etməsi təəccüb doğurmamalıdır. Bu məqamda yadımıza tanınmış gürcü alimi İlya Çavçavadzenin 1902-ci ildə Tiflisdə dərc olunan “Erməni alimləri və ağlayan daşlar” əsəri düşür. Müəllif hələ XIX əsrdə erməni yalanlarının Rusiya, Avropa və Qafqazda “ayaq tutub yeridiyin”dən, hayların “Böyük Ermənistan” iddiasından bəhs edir. Üstündən iki əsr keçib, amma hay zehniyyəti hələ də dəyişməyib.

### Artıq bütün kartlar masanın üstündədir

Beynəlxalq təşkilatların eqidası altında "təhlükəsizlik zəmanəti" qazanmağa çalışan İrəvanın bu ümidləri də boşa çıxdı. Axı, ABŞ və Qərbin böyük gücləri kimi, nüfuzlu BMT, ATƏT, Aİ qurumları da "buqələmun" xarakterli Ermənistana görə Azərbaycanla normal münasibətlərini korlamaq fikrində deyil. Əksinə, Cənubi Qafqazda şəriksiz geosiyasi iradə sahibi olan, Avropa İttifaqı üçün önəmli enerji resursları qaynağına çevrilmək potensialına sahib Azərbaycanla strateji tərəfdaşlıq ABŞ və Qərb üçün daha vacibdir. Azərbaycan Cənubi Qafqazda cərəyan edən proseslərə nəzarət edə bilmək qüdrətini birmənalı şəkildə ortaya qoyub. Həm də bunu atdığı konkret addımları, müasir dünyanın çağırışlarına səs verməsi, etibarlı və ədalətli tərəfdaş olması ilə sübuta yetirib. Qarabağ məsələsində isə heç bir güzəştə getməyəcəyini, öz prinsiplərindən geri addım atmayacağını hamının diqqətinə aydın şəkildə çatdırıb. Məhz belə ardıcıl və sağlam diplomatiyasına görə hətta Azərbaycanın rəqibləri, Cənubi Qafqazda nüfuz davası edən, regiondan kənardakı aktorlar da Bakının mövqeyinə hörmətlə yanaşmaq məcburiyyətində qalıblar. Çünki həmin aktorların İrəvanın üzərindən etdiyi geosiyasi manevrləri Azərbaycanın barışmaz reaksiyası ilə üzləşir.

İndi bütün “oyunçuların” bəli olduğu Qarabağ, eləcə də Cənubi Qafqaz siyasi podiumunda qapalı pərdə qalmayıb, kartlar masa üzərindədir.

### Zəngəzur dəhlizinin alternativi yoxdur

İrəvanın daha çox cənub qonşusunun təhriki ilə imzalamaqdan boyun qaçırdığı Zəngəzur dəhlizi layihəsi kimi, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatında yer almış, iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyasını nəzərdə tutan öhdəliyi yerinə yetirmək istəməməsi də kənar təhdid və təzyiqlərin nəticəsidir. Münaqişənin son nizamlanması mərhələsində vasitəçiliyi boynuna götürən Moskvanın sülh sazişi ilə yanaşı, bu məsələdə də İrəvana ünvanlanan çağırışları fayda vermir.

Güman edirik ki, Zəngəzur dəhlizinin bölgə dövlətlərinin hamısı üçün faydalı olacağına diqqəti çəkən Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun bu günlərdə “Haber Türk”ə verdiyi açıqlaması İrəvanda da maraqla qarşılanıb. M.Çavuşoğlu deyib: “Hərtərəfli sülh sazişini imzalamaqla, yolların bərpasına və yenilərinin çəkilməsinə (Zəngəzur dəhlizi -red.) başlamaqla mövcud gərginliyi aradan qaldırmaq vacibdir. Bu, Ermənistanın özünün xeyrinədir”. Türkiyəli nazir İrandan keçməklə Azərbaycandan Naxçıvana yolun olmasının əhəmiyyətini də vurğulayıb: “Biz bu layihəni dəstəkləyirik, çünki riskdən yayınmaq üçün həmişə alternativə ehtiyac var”.

Sərlövhədə “daşlar ölkəsi”ni futbol topuna bənzətməklə daş dövrünün təfəkkür tərzindən əl çəkə bilməyən Hayastan rəhbərliyinə ironiya ilə anlatmağa çalışmışıq ki, daşı ətəyindən tökməyəndə o daş qayıdıb başa dəyir...

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***



**Yeganə HACIYEVA, politoloq**

İrəvanın son zamanlar yürütdüyü siyasət, Paşinyanın açıqlamaları yeni təxribatların anonsu kimi səslənir. Bu açıqlamalar bir neçə istiqamət üzrə hakimiyyətin aqressiv ritorikasını artan xətt üzrə inkşaf etdirir. Paralel olaraq Paşınyan və hökuməti Bakının irəli sürdüyü bütün təşəbbüsləri bloklama yolunu tutub, Azərbaycana qarşı əsassız iddialarını artırıb və s. Onun uzun müddətdir sərgilədiyi mövqeyi üçtərəfli Bəyanat çərçivəsində bütün razılaşmaların pozulması, hətta həll olunmuş məsələlərin şübhə altına alınması gərginliyin artmasına xidmət edir.

Ümumiyyətlə, Paşinyan və Ermənistan hakimiyyətinin Azərbaycanla danışıqlar çərçivəsində mövcud problemlərin həllinə konseptual yanaşması yoxdur. İrəvanın son mesajları Azərbaycanla yanaşı, Cənubi Qafqaz kimi strateji regionda sülh və sabitliyin bərqərar olmasına çalışan digər maraqlı tərəfləri, beynəlxalq qurumları da narahat edir. Aİ bölgədə sülh və tərəqqinin işlək formatı sayılan, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın bəndlərini və onun icrası üçün müəyyənləşdirilən prinsipləri qəbul etsə də, onun erməni lobbisinin və Fransanın vasitəçiliyi ilə regiona göndərilmiş mülki missiyası Ermənistan və Azərbaycan arasında münasibətləri normallaşdırmaq əvəzinə, gərginləşdirməklə məşğuldur. Rusiyanın strateji hərbi tərəfdaşı olan Ermənistan həm də NATO təlimlərində iştirak edir, alyansın üzvü Yunanıstanla hərbi təlimlər keçirir. Amma özəyində Rusiyanın dayandığı KTMT-nın təlimlərinə ev sahibliyindən imtina edir. Paşinyan ATƏT-in sədri ilə görüşdə sərhədin delimitasiyası və regional məsələlərin müzakirəsinə hazır olduğunu deyir, amma ATƏT PA-nın sessiyası ərəfəsində sərhəddə hərbi təxribat törətməkdən çəkinmir və s. Paşinyan ciddi konfrantasiyada olan bütün qruplarla çarpaz əməkdaşlıq etsə də, bu proseslərdən hansısa nəticənin hasil olması mümkün deyil.

# Doğru yolu oğru yoluna çevirmək olmaz!



**(əvvəli 3-cü səhifədə)**

Xatırladaq ki, ekofəalların aksiyasının hələ ilk ayındaca İspaniyanın “EFE” xəbər agentliyi, “swissinfo.ch” portalının ispandilli versiyası, həmçinin Argentinanın “infobae” saytında Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində ekofəalların etiraz aksiyası barədə materiallar dərc olunmuşdu. Orada göstərilirdi ki, Rusiya sülhməramlıları həmin yolda sərbəst hərəkət edirlər. Bütün bunlara baxmayaraq, İrəvan rəhbərliyi Beynəlxalq Ədalət Məhkəməsinə şikayət etmişdi ki, Azərbaycan tərəfi Xankəndini blokadaya alıb. Guya, bu aksiya saxtadır və iştirakçılar Azərbaycan hökuməti tərəfindən öyrədilmiş şəxslərdir. Ermənistan bu yalanlarla məhkəməyə müraciət edərək, aksiyanın süni şəkildə təşkil olunmasının təsdiqini tapmaq istəyirdi.

Son zamanlar bütün cəhdləri boşa çıxan Ermənistan həmin məhkəmədən də bəhrələnə bilmədi. Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral 2023-cü il tarixli qərarında məhkəmə Ermənistanın vəsatətini də, aksiyanın Azərbaycan hökuməti tərəfindən təşkil olunması ilə bağlı fərziyyəni ləğv etmişdir. Daha nə istəyirsiniz?

Buna baxmayaraq, Ermənistan siyasətçiləri “blokada” nağılından əl çəkmək istəmədikləri kimi, işğalçı ölkənin mətbuat təmsilçiləri də “əsaslandırılmamış” ifadəsindən çox möhkəm yapışıblar. Elə bir gün olmur ki, erməni mətbuatında “Azərbaycanın Artsaxa əsaslandırılmamış iddiaları”, “Xankəndi –Laçın yolunda əsaslandırılmamış aksiya”, “Əliyevin beynəlxalq tribunalardan əsaslandırılmamış çıxışı”, Azərbaycan Müdafiə Nazirliyinin əsaslandırılmamış məlumatı”, “Ankaranın Bakıya əsaslandırılmamış köməyi” kimi cəfəng iddialar səsləndirilməsin.

Məlum məsələdir, gündən-günə itirə-itirə gedirlər. Ona görə də artıq başlarını da itirirlər. Yoxsa, bu qədər “əsaslandırma”ya nə ehtiyac vardı ki?

Sonda xatırladaq ki, AzTV-nin Şuşadakı xüsusi müxbiri hər axşam oradan verdiyi məlumatda deyir: “Təəssüf ki, bu gün də aksiya öz müsbət nəticəsini vermədi. Ancaq ekofəallarımızın mübarizəsi davam edir”.

Mən bu sətirlərin sonunda üzümü həmin müxbirə tuturam: Tələsmə, həmkar! Həmin müsbət nəticə uzaqda deyil! Doğru yolu isə oğru yoluna çevirməyə imkan verilməyəcək.

***İ.QAÇAYEV, “Xalq qəzeti”***

# Azərbaycan–Bosniya və Herseqovina əməkdaşlığında yeni mərhələ

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev də bəyanatında bu səfərlə iki ölkə münasibətlərində yeni bir səhifənin başlandığını, əməkdaşlığın daha da gücləmnməsi üçün yeni imkanlar açıldığını, imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamənin gələcək inkişaf istiqamətlərini şərtləndirdiyini bildirib. Dövlətimizin başçısı daha sonra siyasi və diplomatik müstəvidə olduğu kimi, iqtisadi sahədə də daha məqsədyönlü tədbirlər həyata keçiriləcəyini, bunun üçün Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edildiyini, konkret layihələr üzrə işçi qrupunun yaradılmasının razılaşdırıldığını diqqətə çatdıraraq deyib: "Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.

Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir".



Dövlətimizin başçısının bəyanatında, həmçinin iki ölkə arasında hidroenergetika, eyni zamanda, bərpaolunan digər enerji növləri üzrə birgə araşdırmalar aparılacağı, bu istiqamətdə ciddi addımların atılmasının mümkünlüyünə ciddi əminlik olduğu, Azərbaycan tərəfindən digər xarici ölkələrlə yanaşı, Bosniya və Herseqovinaya da böyük həcmdə investisiya yatırılacağı barədə fikirlərini səsləndirib.

Bəyanatda nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətlərinin geniş araşdırılması, ölkəmizin Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur tədbirlərini icra edərək başa çatdırması, eyni zamanda, digər coğrafiyalarda nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyması kimi məsələlərə də toxunulub.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş respublika konfransı

**Bakı Dövlət Universitetində (BDU) akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş respublika konfransı keçirilib.**




BDU-nun rektoru Elçin Babayev Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətlərindən bəhs edib. Rektor qeyd edib ki, bu il Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor, gözəl insan, fədakar ana Zərifə Əliyevanın 100 illik yubileyidir. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparıb.



Eyni zamanda, "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktorunun I müavini Hicran Namazova və digər çıxış edənlər akademik Zərifə Əliyevanın zəngin mənəvi keyfiyyətləri, oftalmologiya elminin inkişafındakı xidmətlərini diqqətə çatdırıblar.

Sonra akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyətindən bəhs edən video nümayiş olunub.

Sonda BDU-nun akademik Zərifə Əliyeva adına məqsədli təqaüdünün qalibi elan olunub.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

**"Xalq qəzeti"**

# Türkiyənin sürətli inkişafı türk dünyasını gücləndirir

**Prezident İlham Əliyev çıxışlarının birində Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində qardaş ölkənin son illər böyük, uğurlu yol keçdiyini qeyd edib. Dövlət başçısı daha sonra Türkiyədəki sabitlik və inkişafın göz önündə olduğunu deyib: "Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır. Ölkələr idarəolunmaz vəziyyətə düşür. İqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, böyük layihələr həyata keçirir. Bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir və hər kəs bununla hesablaşmalıdır. Hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır".**

Yeri gəlmişkən, Türkiyənin son illərdə güclü inkişaf yolu keçməsi qardaş ölkənin iqtisadiyyatında daha aydın nəzərə çarpır. Bu, statistik göstəricilərdə xüsusilə diqqət çəkir. Belə ki, Türkiyə Statistika Təşkilatının (TÜİK) açıqladığı məlumata görə, ölkə iqtisadiyyatı 2022-ci ildə 5,6 faiz artıb. Bununla yanaşı, ümumi daxili məhsul (ÜDM) istehsalı 5,6 faiz yüksələrək 15 trilyon 6 milyard 574 milyon TL və ya 905 milyard 501 milyon dollar təşkil edib. Ötən il Türkiyədə adam başına düşən ÜDM istehsalı 178 min 589 TL və ya 10 min 655 dollara bərabər olub.

ÜDM-i təşkil edən sahələr arasında sənaye 3,3 faiz, kənd təsərrüfatı 0,6 faiz, maliyyə və sığorta 21,8 faiz, xidmət sektoru 11,7 faiz böyüyüb. Bütün bu göstəricilərlə qardaş ölkə "G20" dövlətləri arasında ən sürətlə inkişaf yolu keçən dövlətlərdən birinə çevrildiyini təsdiqləyib.

Türkiyənin ixracatında da son illər mühüm uğurlar qeydə alınıb. Hesabat ilində ölkənin ixracatı bir il əvvəllə müqayisədə 12,9 faiz artaraq 254,2 milyard dollara çatıb. Bu, ölkə tarixində rekord göstəricidir. Bundan sonra əsas hədəf Türkiyəni dünyanın ilk 10 ixracatçı ölkəsindən biri etməkdir. Türkiyənin Ticarət Nazirliyinin məlumatlarına görə, cari ilin yanvar-fevral dövründə ixrac ötən ilin eyni dövrü ilə müqayisədə 1,4 faiz artaraq 38 milyard dollara, idxal isə 15,4 faiz artaraq 64,3 milyard dollara çatıb.

Bu gün tekstil sənayesi ölkə iqtisadiyyatında daha güclü inkişaf edən sahə kimi tanınır. Bu sektor Türkiyə iqtisadiyyatının lokomotiv sahələrindən biridir. Belə ki, tekstil ölkə ixracatının 17 faizin təşkil edir və əhalinin məşğulluğunda ilk sırada yer tutur. Əsas xammal-pambıq ehtiyacının yarısına qədəri yerli istehsal hesabına qarşılansa da, Türkiyə illik 700 min tonla (2019-cu ildə) dünyada ən çox pambıq idxal edən 6-cı ölkədir. Türkiyə pambığı əsasən ABŞ (50 faiz), Braziliya (12 faiz) Yunanıstan (9 faiz), Türkmənistan (5 faiz) və Azərbaycandan (5 faiz) idxal edir.

Qardaş Türkiyə, eyni zamanda, dünya ölkələri iqtisadiyyatına daha çox sərmayə yatıran dövlətlərdən biri kimi tanınır. Həmin sırada Azərbaycan xüsusilə fərqlənir. Belə ki, 1995-2021-ci illər ərzində Türkiyədən respublikamıza cəlb olunan birbaşa investisiyaların həcmi 13,3 milyard ABŞ dolları (10,4 milyard ABŞ dolları neft sektoruna, 2,9 milyard ABŞ dolları (1-ci yer) qeyri-neft sektoruna) təşkil edib. Türk şirkətləri əsasən enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə uğurlu fəaliyyət fəaliyyət göstərib.




Azərbaycan isə Türkiyəyə investisiya qoyuluşuna görə, Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. İki ölkə arasında birgə investisiya fondunun təsis edilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində birgə texnologiyanın transferinin həyata keçirilməsi və istehsalın lokallaşdırılmasını nəzərdə tutan iri müəssisə və layihələrin reallaşması investisiya həcminin dinamik artımını, qarşıda duran vəzifələrin icrasının sürətləndirilməsini şərtləndirir.

Hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 minə yaxın şirkət fəaliyyət göstərir. 1995-2021-ci illər ərzində respublikamızdan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dolları (17,1 milyard ABŞ dolları neft-kimya sektoruna, 3,2 milyard ABŞ dolları qeyri-neft sektoruna) olub.

Yeri gəlmişkən, SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu qardaş ölkəyə birdəfəlik yatırılan ən böyük investisiya hesab olunur. Ümumilikdə, Türkiyədə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir.

İqtisadi əlaqələrin digər önəmli sahəsi kimi, nəqliyyat-logistika qovşaqlarının şaxələnməsi ölkəmiz və qardaş respublikanın iqtisadi inkişafı ilə yanaşı, regionda sülhün və rifahın bərqərar olmasını təmin edir. 2020-ci ildə Bakı-Tbilisi-Qars dəmir-yolu üzərində daşınan yüklərin həcminin iki dəfədən çox artması nəqliyyat-kommunikasiya istiqamətində ölkələrin birgə layihələrin səmərəliliyinin bariz nümunəsidir.

Zəngəzur dəhlizinin açılması və Naxçıvana dəmiryolunun çəkilməsi nəticəsində Azərbaycan və Türkiyə arasında idxal-ixrac, habelə tranzit əməliyyatları da artacaq. Şübhəsiz ki, bu zaman nəqliyyat və daşınma xərcləri və müddəti azalacaq, eləcə də iqtisadi-ticari əlaqələrin miqyası genişlənəcək. Bununla da hər iki dövlətin xarici ticarət dövriyyəsi dinamik şəkildə sürətlənəcək.

Qardaş Türkiyənin Azərbaycan iqtisadiyyatının güclənməsində müstəsna fəaliyyəti bununla kifayətlənmir. Türk iş adamları tərəfindən işğaldan azad edilmiş torpaqlarımızda reinteqrasiya və reabilitasiya prosesində əhəmiyyətli layihələr həyata keçirilir. Hazırda türk şirkətləri Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında infrastruktur layihələrinin reallaşmasında, yolların çəkilməsində, sənaye, kənd təsərrüfatı müəssisələrinin qurulmasında, turizm obyektlərinin yaradılmasında fəal iştirak edirlər.

Nəhayət, ötən illər ərzində Azərbaycan–Türkiyə iqtisadi münasibətlərində regional iqtisadi əməkdaşlıq sahələri də daim diqqət mərkəzində saxlanılır. İki dövlətin birgə həyata keçirdikləri fəaliyyətin nəticəsi olaraq, beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Trans-Anadolu qaz boru xətti, Trans-Adriatik boru xətti və Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihələri bu baxımdan ən ümdə nümunələrdir.

**V.BİNYƏTOĞLU,**
**"Xalq qəzeti"**

# "ƏDV geri al" layihəsi uğurla davam edir

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) məlumatında bildirilir ki, respublikada "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan bu il aprelin 1-dək portalda qeydiyyatdan keçmiş istehlakçılara ümumilikdə 412 milyon manatdan çox vəsait geri qaytarılıb.**



"ƏDV geri al" nağdsız ödəmələrin genişlənməsinə mühüm təkan verən layihələrdən biridir. Məlum olduğu kimi, alınmış mallara və əldə edilmiş xidmətlərə görə ödəniş nağdsız qaydada olduqda ödənilmiş ƏDV-nin 17,5 faizi, nağd qaydada olduqda isə 5 faizi istehlakçılara geri qayıdır. Vətəndaşları pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahəsində nağdsız ödəmələrə cəlb etmək məqsədi daşıyan stimullaşdırıcı "ƏDV geri al" layihəsinin reallaşdırılması sözügedən sektorlarda nağdsız ödəmələrin xüsusi çəkisinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub.

Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində də işlər davam etdirilir. Hazırda ölkə üzrə tətbiq olunan onlayn NKA-ların sayı 87 mindən çoxdur. Bu ilin 3 ayı ərzində yeni nəsil kassalar vasitəsilə qeydə alınan dövriyyə 4,9 milyard manatdan artıq olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,6 faiz çoxdur.

# Orta aylıq əməkhaqqı 11 faiz yüksəlib

**Bu ilin yanvar-fevral aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 11,2 faiz artaraq 855 manat olub.**



Dövlət Statistika Komitəsinin bu barədə yaydığı xəbərdə bildirilir ki, cari ilin iki ayında iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, eləcə də peşə, elmi və texniki fəaliyyət sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrünə nisbətən 33,7 min nəfər və yaxud 2 faiz artaraq 1 milyon 715,8 min nəfər təşkil edib. Onlardan 901 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 814,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

**"Xalq qəzeti"**

# İnvestisiyaya "açıq qapı" siyasətinin uğurları

## Son 10 ildə ölkə iqtisadiyyatına 62 milyard dollar vəsait qoyulub

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub.**



Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən "açıq qapı" siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib.

Ölkədə davamlı investisiya artımını bir sıra amillər şərtləndirib. Belə ki, son illər ərzində Azərbaycan iqtisadiyyatı struktur və məzmunca xeyli dəyişib, yeni çağırışlar fonunda yeni tənzimləmələr aktuallaşıb. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan Azərbaycan iqtisadiyyatının biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb.

Prezident İlham Əliyevin imzaladığı 22 iyun 2022-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu da bu sahənin yeni mərhələyə daxil olmasını şərtləndirib. Xatırladaq ki, ölkədə yerli və xarici investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyətə malik adı çəkilən qanun dövlətimizin başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə uyğun hazırlanıb.

Məhz bütün bu həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 ildə Azərbaycan iqtisadiyyatına 62,3 milyard dollar investisiya cəlb olunub. Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların həcmi 57 milyard dollar təşkil edib. Bundan sonrakı dövrdə də birbaşa xarici investisiyaların həcminin artacağı proqnozlaşdırılıb. Qeyri-neft sektoruna cəlb edilən birbaşa xarici investisiyaların həcmi isə 10 milyard dollardan çox olub. Son 1 ildə isə neft-qaz sektoruna investisiyalar 23,8 faiz, qeyri neft-qaz sektoruna investisiyalar isə 51,7 faiz artıb.

Bu ilin yanvar-mart aylarında isə Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda əsas kapitala 3 milyard 523,1 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 40,3 faiz çox vəsait yönəldilib. Hesabat dövründə istifadə olunmuş vəsaitin 1 milyard 941,3 milyon manatı və yaxud 55,1 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 396,5 milyon manatı və yaxud 39,6 faizi xidmət sahələrinə, 185,3 milyon manatı və yaxud 5,3 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Bu dövrdə əsas kapitala yönəldilmiş vəsaitlərin 2 milyard 577,3 milyon manatını və yaxud 73,2 faizini daxili vəsaitlər təşkil edib, 2 milyard 517,5 milyon manatı və yaxud 71,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,8 faiz, büdcə vəsaitləri 39 faiz, əhalinin şəxsi vəsaitləri 6,4 faiz, bank kreditləri 4,1 faiz, sair vəsaitlər isə 4,7 faiz paya malik olub.

Xarici investisiyaya gəldikdə isə deyə bilərik ki, son bir neçə ildir ölkəmizdə milli iqtisadiyyatımızın investisiya cəlbediciliyi baxımından bir sıra uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır. Yeni şəraitdə reallaşdırılan islahat tədbirləri sırasında investisiyaların səmərəli təşviqi mexanizminin işə salınması böyük əhəmiyyət daşıyır. Azərbaycanın qeyri-neft sektorunda Türkiyə şirkətləri tərəfindən qoyulan investisiyalar çox zaman üstün mövqeyə malik olub. Bundan başqa, ABŞ, Böyük Britaniya, BƏƏ, Almaniya, Fransa və Rusiyadan, demək olar, hər il Azərbaycanın qeyri-neft sektoruna müəyyən qədər investisiyalar yatırılır.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirmək üçün son illər bir sıra layihələr gerçəkləşdirilib. Məsələn, investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.

İnvestisiya mühitinin yaxşılaşdırılması və ölkədə biznes fəaliyyətinin asanlaşdırılması məqsədilə Azərbaycan Prezidentinin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib. Rəqəmsal transformasiyaya uyğun olaraq ölkədə xarici investorların biznes fəaliyyətinə başlaması elektronlaşdırılaraq sadələşdirilib.

İnvestorlarla bağlı güzəştlərdən biri də yaradılmış sənaye parklarının rezidentlərini əhatə edir. Parkda qeydiyyatdan keçən rezidentlər üçün ümumi fiziki infrastruktur və kommunal xidmətlər dövlət tərəfindən təmin olunacaq. Rezidentlər üçün 10 il müddətinə gəlir və əmlak vergisi, ƏDV və idxal rüsumlarından azadolunma kimi vergi güzəştləri və aşağı icarə haqqının təyin olunması nəzərdə tutulur.

Ötən illərdə özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi qeyri-neft-qaz sahəsi olduğu halda, get-gedə investorların marağının daha çox qeyri-neft sektoruna yönləndiyini bildirib. Qeyd edib ki, 2021-ci ildə qeyri-neft-qaz investisiyalarda özəl investisiyaların payı 44,6 faizə çatıb.

Bu investisiyalarda xarici investorlar mühüm rol oynayıb. Xarici investorların ölkəyə cəlbini əlverişli biznes mühiti və makroiqtisadi sabitlik şərtləndirir. Mərkəzi Bankın məlumatlarına əsasən, 2022-ci ilin 9 ayında qeyri-neft-qaz sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 2,4 dəfə artaraq, 1,4 milyard dollar olub.

Ümumi olaraq strategiyada 2026-cı ilə qədər qeyri-neft-qaz sektoru üzrə birbaşa xarici investisiyaların həcminin hər il 10-15 faiz artımı nəzərdə tutulub. Həmçinin, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması, iqtisadiyyatın şəffaflaşması kimi bir sıra məsələlər qarşıya məqsəd kimi qoyulub. Belə investisiya stimulları, ölkədə biznesin və sahibkarlığın inkişafı üçün atılan addımlar ölkəni get gedə daha da inkişaf etdirir.

**Azərbaycanın quruda yerləşən "Zərdab" neft yatağının istismarının bərpası üzrə tədbirlər planı hazırlanır. Bu barədə Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) məlumat verilib. Qeyd olunub ki, hazırda "Muradxanlı" və "Cəfərli" yataqlarında istismar işləri davam etdirilir.**



# Qurudakı yataqların neft ehtiyatları tükənməyib

Həmin yataqlarda, ümumilikdə, 25 quyu istismar olunur. Burada gündəlik neft hasilatının həcmi 32 ton təşkil edir. Bununla belə, yataqlar blokuna daxil olan "Zərdab" yatağında hazırda istismar işləri aparılmır. "Muradxanlı-Cəfərli-Zərdab" yataqlar bloku Azərbaycanın İmişli rayonunun Yevlax-Ağcabədi neft-qaz bölgəsində yerləşir. Bu üç yatağın ümumi sahəsi 642,2 kvadratkilometr təşkil edir. "Muradxanlı" yatağı 1971-ci ildə, "Cəfərli" 1984-cü ildə, "Zərdab" isə 1981-ci ildə istismara daxil edilib.

Xatırladaq ki, quruda yerləşən "Muradxanlı-Cəfərli-Zərdab" neft yataqları blokunun hasilat bölgüsü, bərpası, işlənməsi və kəşfiyyatı haqqında müqavilə 2016-cı ilin mart ayında Kanadanın "Zenith Energy" və Azərbaycanın "SOCAR" şirkətləri arasında imzalanıb. Həmin müqaviləyə əsasən adıçəkilən yataqlar bloku reabilitasiya və kəşfiyyat ərazilərinə bölünüb. Saziş çərçivəsində ilk neftin hasilatına isə 2016-cı ilin avqust ayında başlanılıb.

2020-ci ilin noyabrında "Zenith Energy Ltd." SOCAR ilə müqavilənin qüvvədən düşdüyünü bəyan edib. Həmin vaxtdan sözügedən yataqlar SOCAR-n "Azneft" İstehsalat Birliyinin balansına daxil edilib. Hazırda "Muradxanlı-Cəfərli-Zərdab" neft yataqları bloku "Azneft" İstehsalat Birliyi Əli Əmirov adına Neftqazçıxarma İdarəsinin Muradxanlı neftqazçıxarma kompleksi tərəfindən istismar olunur.

Yeri gəlmişkən, Azərbaycanın qurudakı karbohidrogen yataqları uzun illərdir istismar olunmasına baxmayaraq, buradakı neft-qaz ehtiyatları hələ tükənməyib. Məlumat üçün bildiririk ki, ölkəmizdə neftin sənaye üsulu ilə çıxarılmasına başlandığı ötən 177 ildə quruda və Xəzər akvatoriyasında çoxsaylı axtarış-geofiziki tədqiqat işləri aparılıb. Bunun da nəticəsində 150-yə yaxın perspektivli struktur aşkar edilib. Ötən illərdə həmin strukturların əksəriyyətində uğurlu geoloji kəşfiyyat işləri aparılaraq buradakı ehtiyatların işlənməyə cəlb edilməsinə başlanılıb.

Məlum olduğu kimi, hazırda ölkə üzrə 81 neft-qaz yatağı mövcuddur ki, bunun da 28-i dənizdə, 53-ü quruda yerləşir. Həmin yataqların 18-i dənizdə, 39-u isə quruda olmaqla istismar prosesindədir. Ehtiyatları tükənmiş 7 yataq konservasiya olunub. Bundan əlavə, 9 yataq fəaliyyətsiz fonda daxil edilib, eyni sayda yataqda isə kəşfiyyat işləri aparılır. Mütəxəssislərin proqnozlarına görə, hazırda Azərbaycanın çıxarıla bilən qalıq neft ehtiyatları 1 milyard tondan artıqdır ki, bunun da əksər hissəsi dəniz neft yataqlarının payına düşür.

Bununla belə, qurudakı yataqlarda da çıxarılması mümkün olan ehtiyatlar hələ çoxdur. Hazırda qurudakı yataqların 28-i SOCAR-ın "Azneft" İstehsalat Birliyinin balansındadır. Həmin yataqların isə 6-sı konservasiya prosesindədir. Bundan əlavə, ölkənin quru ərazisində yerləşən daha 25 neft-qaz yatağı SOCAR-la yaradılmış birgə müəssisə və əməliyyat şirkətləri tərəfindən istismar olunur.

Yeri gəlmişkən, qurudakı yataqların əksəriyyətinin cəmləşdiyi Abşeron neftli-qazlı rayonunda yerləşən "Balaxanı" və "Bibiheybət" yataqları zənginliyi ilə daha çox seçilir. Hazırda 1000-dən çox işlək quyusu olan "Balaxanı-Sabunçu-Ramana" yataqlar blokundan ötən 153 il ərzində təqribən 340 milyon ton neft hasil olunub.

Quruda yerləşən "Bibiheybət" yatağında da uzun illərdir neft və qaz çıxarılır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1929-cu ildən indiyə kimi burada qazılmış 3500-ə qədər quyudan 163 milyon tona yaxın neft hasil olunub. Bununla belə, adıçəkilən yataqda çıxarılması mümkün olan ehtiyatlar hələ çoxdur.

Quruda istismar olunan ən cavan yataq isə Xızı rayonunda yerləşən "Şurabad" yatağıdır. "Azneft" İstehsalat Birliyinin "Siyəzənneft" NQÇİ-nin balansında olan bu yatağın istismarına 2000-ci ildə başlanılıb. Ötən müddətdə burada 15 quyu qazılıb. Həmin quyuların hər birindən sutka ərzində 10-20 ton neft hasil olunur.

Bununla yanaşı, ölkəmizin quru ərazisində yerləşən "Zığ-Hövsan-Abşeron", "Muradxanlı-Cəfərli-Zərdab", "Kürsəngi-Qarabağlı" və "Mişovdağ-Kələməddin" yataqlar bloku, eləcə də "Neftçala", "Kirovdağ" və "Binəqədi" yataqları da uğurla istismar olunaraq Azərbaycanın neft-qaz sənayesinin inkişafına mühüm töhfələr verir.

Göründüyü kimi, Azərbaycanın quruda yerləşən yataqlarının işlənilməsinin davam etdirilməsi ölkəmizdə neft hasilatının artırılmasına əlavə imkanlar yarada bilər. Elə mütəxəssislər də bu yataqları hasilatın artırılması üçün sabit və etibarlı mənbə hesab edirlər.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***



# Enerji şəbəkəsinə yeni qoşulmalar 5 dəfə artıb

**"Azərişıq" ASC-dən aldığımız məlumata görə, cari ilin I rübündə Azərbaycanda enerji təchizatı şəbəkəsinə qoşulmaq üçün onlayn müraciət edən qeyri-əhali abonentlərinin sayı ötən ilin eyni dövrünə nisbətən 5 dəfə çox olub. Məlumata görə, martda "qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidməti üzrə elektron müraciətlərin xüsusi çəkisi isə 53,6 faizə çatıb.**

Elektron müraciət sistemi 2019-cu ildən tətbiq olunur. Onun əsas məqsədlərindən biri də vahid platforma üzərindən müraciətlərin idarə olunması, operativliyin və səmərəliliyin artırılması və şəffaflığın təmin edilməsidir. Bu sistem İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Dövlət Vergi Xidməti, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər qurumlarla inteqrasiya olunduğu üçün sahibkarların elektrikə qoşulma ilə bağlı sənədlər toplusunu təqdim etməsinə ehtiyac qalmayıb.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) elektron müraciət sistemini innovativ layihə kimi qiymətləndirib. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində elektrik şəbəkəsinə qoşulma üzrə prosedurların sayı 7-dən 2-yə, müddəti isə 41 gündən 20 günə endirilib.

***"Xalq qəzeti"***

# Laçın şəhərinin içməli su təchizatı yenidən qurulur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə su təchizatı sistemlərinin bərpası və yenidən qurulması istiqamətində işlər davam etdirilir. Ölkəmizin işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Laçın şəhərinin içməli və tullantı su sistemləri yenidən qurulur.**

Qeyd edək ki, işğal dövründə Laçın şəhərində su təchizatı infrastrukturu dağıdılaraq istismara yararsız vəziyyətə salınıb. Laçın şəhərində icra olunan yeni layihə hazırda bərpa edilən və tikilən yaşayış evlərinin, obyektlərin yeni yaradılan içməli su təchizatı və tullantı su sistemlərinə qoşulmasını təmin etməklə, ümumilikdə, 18 min nəfərin bu xidmətlərdən istifadəsinə hesablanıb.

Layihəyə əsasən Laçın şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təchiz etmək məqsədilə Sus kəndi yaxınlığındakı mövcud 6 subartezian quyusu bərpa edilir. Eyni zamanda, quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu, transformator məntəqəsi və digər yardımçı binalar inşa olunur.



Su mənbəyindən Laçın şəhərinədək polad borularla 10 kilometr uzunluğunda magistral su kəmərinin inşası nəzərdə tutulub. Artıq magistral kəmərin tikintisi üzrə işlərin 70 faizi başa çatdırılıb. Şəhərə içməli su pilləli nasoslar vasitəsilə çatdırılacaq. Bu məqsədlə quyu zonasında və magistral su kəməri üzərində 3 nasos stansiyası inşa edilir. Laçın şəhərində məskunlaşacaq əhalinin, idarə və müəssisələrin, ictimai-iaşə və turizm obyektlərinin fasiləsiz su təminatı məqsədilə şəhər ərazisində ümumi tutumu 4 min kubmetr olan 9 anbarın tikintisi və bərpası işləri davam etdirilir. Anbarlara toplanan su şəhərin böyük hissəsinə özüaxımlı rejimdə veriləcək. Relyef baxımından yüksəklikdə yerləşən yaşayış evlərini və obyektləri içməli su ilə təmin etmək məqsədilə 2 ədəd hidrofor quraşdırılır.

Layihəyə əsasən Laçın şəhərində 58 kilometr içməli su şəbəkəsinin 42 kilometrlik hissəsi, 49 kilometr tullantı su şəbəkəsinin isə 39 kilometrlik hissəsi inşa edilib. 4 kilometr yağış su xətlərinin və tullantı sularının təmizləyici qurğuya ötürülməsi məqsədilə 7 kilometr uzunluğunda kanalizasiya kollektorunun tikintisi də yekunlaşıb. Hazırda məhsuldarlığı sutkada 4 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğusunun inşası davam etdirilir. Laçın şəhərində formalaşacaq tullantı suları bu qurğuda ekoloji baxımdan tam təmizlənib kənarlaşdırılacaq. Layihə üzrə işlərin cari ildə başa çatdırılması nəzərdə tutulur.

Laçın şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək. Suyun mənbədən götürülməsi, subartezian quyularının işçi vəziyyəti, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə tənzimlənəcək.

Hazırda Laçın şəhərində "Azərsu" ASC tərəfindən fasiləsiz xidmət təşkil olunub. Bununla yanaşı, Şuşa şəhərində, Zəngilan və Kəlbəcər rayonlarında, Hadrut, Talış və Suqovuşan qəsəbələrində də fasiləsiz xidmət göstərilir.

***"Xalq qəzeti"***

# Daxili İşlər Nazirliyində kollegiya iclası

**Aprelin 14-də Daxili İşlər Nazirliyində mülkiyyət əleyhinə cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılmasının, prosessual araşdırmalar zamanı qanunçuluğa və uçot-qeydiyyat intizamına riayət edilməsinin, ailə münaqişəsi zəminində törədilən cinayətlərin profilaktikası sahəsində görülən işlərin vəziyyətinə həsr olunmuş kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov möhkəm təməllərə söykənən ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində



fəaliyyətin digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə cari ilin birinci rübündə məqsədyönlü şəkildə davam etdirildiyini bildirib.

Ümumi cinayətlərin açılması 81,9 faiz təşkil edib və 80,3 faizi böyük ictimai təhlükə törətməyən və az ağır növlər olub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 9.448 cinayətin 83,5 faizi, o cümlədən keçmiş illərdən bağlı qalmış 95 cinayət açılıb. Qəsdən adamöldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, mənzillərdən edilən oğurluqlar, mal-qara oğurluqları, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən və odlu silahın tətbiqi ilə baş verən hüquqazidd əməllər 2022-ci ilin 3 ayı ilə müqayisədə azalıb. Ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, habelə quldurluqların açılması yaxşılaşıb. İstintaq prosesində görülmüş tədbirlərlə cinayətlərdən zərər çəkmiş şəxslərə vurulmuş maddi ziyanın 78,5 faizi ödətdirilib.

Həmçinin yerli və dövlətlərarası axtarışda olan 1572 təqsirləndirilən şəxs tutulub, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 170 cinayətkar qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 59 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 1 ton 418 kiloqram, yəni ötən ilin analoji dövrü ilə müqayisədə 354 kiloqram çox narkotik vasitə çıxarılıb. Müxtəlif kriminal əməllər törətmiş 4 min nəfər məhkəmə məsuliyyətinə verilib.

Ölkədə keçirilmiş 183 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə, habelə işğaldan azad edilmiş ərazilərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti hüquq qaydasının təmini vəzifələrini tam yerinə yetirib.

Kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə 1258 vətəndaşın qəbulu həyata keçirilərək qaldırılan məsələlərin əksəriyyəti yerində həll edilib, 23 min 42 vətəndaş müraciəti hərtərəfli və obyektiv araşdırılıb, təşəbbüskarlar hüquqları izah edilməklə yazılı məlumatlandırılıb. Nazirliyin "102" xidmətinə və qaynar xətlərinə daxil olan, eləcə də sosial şəbəkələrdə yayımlanan hər bir şikayətə çevik reaksiya verilib, insanların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilib.

Kollegiyada bayır xidmətinin fəaliyyətinin təşkili və vətəndaşların narazılığını doğuran hüquqpozmaların qarşısının alınması üzrə verilmiş tapşırıqların icrası barədə nazir müavini polis general-mayoru Oqtay Kərimov, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə təşviq edilməsi məsələsi ilə əlaqədar Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov, gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi, polis general-mayoru Emil Usubov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Sərdar Səfərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bir sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələrin icrasını böyük əzmlə həyata keçirdiyini, xüsusən respublikada və onun paytaxtı Bakı şəhərində ağır və xüsusilə ağır cinayətlərin açılmasında yüksək peşəkarlıq, qətiyyət və operativlik göstərmiş nazirliyin və ərazi polis qurumlarının 136 əməkdaşının mükafatlandırıldığını diqqətə çatdırıb.

Eyni zamanda, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin və vətəndaş məmnunluğunun təmin edilməsinin vacibliyini nəzərə çatdıraraq bu istiqamətlərdə fəaliyyətin səmərəliliyinin artırılması, ümumi işə mənfi təsiri olan halların qarşısının alınması ilə bağlı vəzifələri müəyyən edib, eləcə də tapşırıq və tövsiyələrini verib.

Nazir, general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcək.

**Q.QASIMOV,**
**"Xalq qəzeti"**

# YAP-ın nümayəndə heyəti Bursada

**Qardaş Türkiyədə səfərdə olan Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Ədalət və İnkişaf Partiyasının (AK Parti) Bursa şəhər təşkilatında görüş keçirilib.**



Bursa təşkilatının sədri Davut Gürkan ölkələrimiz arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətindən danışıb. O, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin səfərinin həmrəyliyin nümunəsi olduğunu söyləyib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala bildirib ki, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ölkələr yoxdur. Qardaş ölkələrimizin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri, ilk növbədə, hər iki ölkənin liderləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iradəsi, səyləri sayəsində uğurla inkişaf edir. İki qardaş ölkənin hakim partiyaları YAP və AK Parti də bu prosesdə çox mühüm rol oynayırlar. Son iki-üç il ərzində partiyalar arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Sonra YAP nümayəndə heyəti Bursa Sənaye-Ticarət Palatasında olub.

Azərbaycanlı qonaqlar, həmçinin Bursada Qafqaz-Axıska dərnəkləri və azərbaycanlı tələbələrin iştirakı ilə təşkil edilən iftar mərasimində iştirak ediblər. Tahir Budaqov bildirib ki, bugünkü reallıqlar Türkiyə Respublikasının qurucusu, böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" kəlamlarının real həyatda təsdiqini tapdığını əks etdirir.

Azərbaycan–Türkiyə əlaqələri son dövrlər daha da inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə qalxıb. Xalqımız Türkiyənin İkinci Qarabağ müharibəsində verdiyi qardaşlıq dəstəyini heç zaman unutmur. Eyni zamanda, Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak edirlər. Azərbaycan da çətin anlarda daim Türkiyənin yanındadır. Fevral ayında baş verən zəlzələlər zamanı Azərbaycan xalq və dövlət olaraq qardaş Türkiyəyə öz yardımını göstərdi və bu dəstək bu gün də davam edir. Nümayiş etdirilən qarşılıqlı həmrəylik, dəstək, birlik və vahid mövqe, həyata keçirilən layihələr onu deməyə əsas verir ki, xalqlarımızın böyük qürur duyduqları Azərbaycan–Türkiyə birliyi və qardaşlığı gələcək nəsillər tərəfindən də davam etdiriləcək.

Qeyd edək ki, YAP nümayəndə heyətinə, həmçinin partiyanın İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan–Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev daxildir.

**"Xalq qəzeti"**

*Başlıbel faciəsindən 30 il keçir*

# İnsanlığa qarşı amansız cinayət

**Aprelin 14-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Başlıbel faciəsinin 30-cu ildönümü ilə əlaqədar Kəlbəcər rayonunun Başlıbel kəndindən məcburi köçkün düşmüş sakinlərlə görüş keçirilib.**



Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin, Ermənistanın törətdiyi hərbi cinayətlərin qurbanı olan həmvətənlərimizin xatirəsi ehtiramla yad edilib.

Dövlət komitəsinin sədri Rövşən Rzayev otuz ilə yaxın işğal altında qalmış Azərbaycan ərazilərində, o cümlədən Kəlbəcərdə erməni silahlı dəstələrinin dinc azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirməsini, ağır işgəncələrə məruz qoymasını xalqımızın heç vaxt unutmayacağını vurğulayaraq Başlıbellə yanaşı, Ağdaban, tunel qətliamlarının da bütövlükdə insanlığa qarşı amansız cinayət olduğunu qeyd edib.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi və diplomatik qətiyyəti, qəhrəman Azərbaycan Ordusunun rəşadəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsinin, xüsusilə Kəlbəcər də daxil olmaqla üç rayonu məğlub Ermənistanın döyüşsüz təhvil verməsinin tarixi əhəmiyyəti xatırladılıb. Qazanılan Zəfər nəticəsində doğma yurda qayıtmağa hazırlaşan məcburi köçkünlərə daim dövlət qayğısı göstərildiyi diqqətə çatdırılıb, onların problemlərinin həllinin Prezident İlham Əliyevin sosial siyasətinin prioritetləri arasında mühüm yer tutduğu, bu kateqoriyadan olan şəxslərin hüquq və mənafelərinin qorunmasına Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət yetirdiyi bildirilib.

Dövlət Komitəsinin sədri görüş iştirakçılarına Böyük Qayıdışa dair birinci Dövlət Proqramına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərinin dirçəldilməsi, dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün icra edilən irimiqyaslı layihələr barədə ətraflı məlumat verib.

Görüşdə Dövlət Proqramına müvafiq olaraq hazırlıq, bərpa və yenidənqurma işləri ilə bağlı məcburi köçkünlərin rəy və təklifləri dinlənilib, onların sualları cavablandırılıb.

Başlıbel icmasının nümayəndələri xalqımızın arzularının gerçəkləşdirilməsinə, erməni işğalına son qoyulmasına, yurd yerlərimizin bərpası və dirçəldilməsi, məcburi köçkünlərin geri qayıdışı üçün genişmiqyaslı mühüm tədbirlərin görülməsinə, onlara daim göstərilən diqqət və qayğıya görə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıq bildiriblər. Onlar Başlıbel faciəsi qurbanlarının xatirəsinin də kənddə əbədiləşdiriləcəyinə dərin inam ifadə ediblər.

Qeyd edək ki, 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zaman Başlıbel kəndində 62 nəfər qadın, uşaq və qoca evlərini vaxtında tərk edə bilmədiyindən kahalara – təbii mağaralara sığınmağa məcbur olub, işğaldan 18 gün sonra erməni silahlı qüvvələri onların yerini müəyyənləşdirərək sığınacaqlara hücum edib və kütləvi qətliam törədiblər. Nəticədə 14 dinc sakin girov götürülüb, 18 nəfər qətlə yetirilib, 1 nəfər itkin düşüb, 8 nəfər yaralanıb. Yaralılar və sağ qalanlar (ümumilikdə 29 nəfər) dağlara çəkilərək kahalarda gizlənib, yalnız 113 gündən sonra gizli dağ yolları ilə mühasirədən çıxa biliblər.

**"Xalq qəzeti"**

# Kimyaçı alimlər İtaliya şirkətində araşdırma aparacaqlar

**Sumqayıt Dövlət Universitetinin (SDU) təmsilçiləri İtaliyanın SAİPEM şirkətinin Azərbaycan filialının qonağı olublar. Görüşdə ali məktəblə şirkət arasında elmi-təcrübi əməkdaşlıq və faydalı əlaqələr qurulması barədə işgüzar müzakirə aparılıb.**



Filialın müdiri İlham Eminbəyli rəhbərlik etdiyi müəssisənin fəaliyyəti, inkişaf perspektivləri barədə qonaqlara ətraflı məlumat verib. SDU-nun prorektoru Əsəd Məmmədov isə təmsil etdiyi ali təhsil ocağında kimyaçı kadrlar hazırlığından və aparılan elmi tədqiqatlardan danışıb, ali məktəbin tanıtım videosunu şirkət rəhbərliyinə təqdim edib.

Müzakirələrdə SAİPEM şirkətinin davamlı inkişaf və xarici əlaqələr şöbəsinin müdiri Aytən Həsənova, insan resursları üzrə əməkdaşlar Nəzakət Əfəndiyeva və Vüsal Məlikov və təlim koordinatoru Almaz İbrahimova, SDU-nun mühəndislik fakültəsinin dekanı, dosent Ulduz Ağayev, neft kimyası və kimya mühəndisliyi kafedrasının müdiri professor Əkbər Ağayev, elmi hissənin müdiri dosent Samir Orucov, keyfiyyət təminatı şöbəsinin müdiri Nərmin Həsənova, strateji inkişaf mərkəzinin direktoru dosent Günel Paşayeva səmərəli birgə əməkdaşlığın müxtəlif yönlərinə aydınlıq gətiriblər, təkliflərini söyləyiblər.

Geniş fikir mübadiləsindən sonra SDU-nun kimya fakültəsinin neft kimyası kafedrasının SAİPEM şirkətinin karbonsuz enerji mənbələri sahəsində araşdırmalar aparması, HAKATON silsilə tədbirlərinin isə SDU-nun nəzdində İnnovasiya Yaradıcılıq Mərkəzində keçirilməsi məqsədəuyğun hesab edilib. Bundan əlavə, SAİPEM şirkəti üçün SDU-nun müəllim və tələbələrindən ibarət BREINSTORMING komandasının yaradılması barədə razılığa gəlinib.

Şirkətin və ali məktəbin belə işgüzar görüşləri davam etdirməsi qərara alınıb.

**"Xalq qəzeti"**

# Millətə, ümmətə xidmət, Vətənə, dövlətə sədaqət

## *Ölkəmizin dini kadrlara yanaşma meyarı budur*

**Müsahibimiz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıdır.**



**– Mübariz müəllim, bildiyimiz kimi, din təkcə mənəviyyat mövzusu deyil, həm də təhlükəsizlik məsələsidir. Xüsusilə Azərbaycan kimi həssas geostrateji regionda yerləşən ölkələr üçün bu məsələ olduqca əhəmiyyətlidir. Siz necə düşünürsünüz?**

– Azərbaycanın tarixən müxtəlif mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu, qədim İpək Yolunun üzərində yerləşən, Şərq ilə Qərb arasında körpü rolunu oynayan məkan olması burada yaşayan əhalinin dini-etnik tərkibinin və dini inanclarının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanın ərazisində tarixən müxtəlif xalqların və dinlərin nümayəndələri birgə, yanaşı yaşayıblar, aralarında daim dostluq əlaqələri olub.

Azərbaycanda milli, irqi və dini zəmində ayrı-seçkilik halları olmamış, dini-mədəni müxtəliflik tolerant və multikultural dəyərlərin inkişafına təkan vermişdir. Təbii ki, qloballaşma ilə bağlı çağırışların vüsət aldığı müasir dövrdə milli-mənəvi dəyərlərimizin və adət-ənənələrimizin qorunub saxlanılması bizdən xüsusi mənəvi məsuliyyət tələb edir. Nəzərə alsaq ki, din insanların şüuruna və cəmiyyətə təsir göstərmək baxımından olduqca güclü vasitədir, onun bu gücündən sui-istifadə edən məkrli qüvvələr tarix boyu öz maraqlarını, siyasi-iqtisadi hegemonluqlarını təmin etmək üçün dindən daha geniş şəkildə yararlanmağa çalışıblar. Bu proses müasir dövrdə də davam etməkdədir. Nəticədə isə insanları vəhdətə, qarşılıqlı hörmət şəraitində yaşamağa çağıran dinlərin əsl mahiyyəti təhrif olunur və din müxtəlif siyasi oyunların alətinə çevrilir.



Son illərdə Yaxın Şərqdə baş verən hadisələrin bu coğrafiyada yerləşən ölkələrə və onların vətəndaşlarına zərər vurmaqla yanaşı, region dövlətləri üçün də ciddi təhlükə yaratdığının şahidi olduq. Bunun əsas qaynağı isə dinin siyasiləşməsi və terror vasitəsinə çevrilməsidir ki, nəticədə yüz minlərlə insan həlak olub, milyonlarla insan öz yurd-yuvasından didərgin düşüb. Bir sözlə, din siyasiləşəndə çox təhlükəli silaha çevrilir. Hazırkı dövrdə dini təhlükəsizlik milli təhlükəsizliyin, o cümlədən qlobal təhlükəsizliyin əsas komponentlərindən biridir.

**– SSRİ dövründə mövcud olmuş ideoloji qadağalar xalqımızın dini-mədəni dəyərlərinə bağlılığını sıradan çıxara bilmədi. Azərbaycanın yenidən dövlət müstəqilliyini bərpa etməsindən sonra istər müsəlman, istərsə də xristian ölkələrindən respublikamıza missioner təşkilatlar ayaq açıb zərərli fəaliyyət göstərməyə çalışdılar. Ümumiyyətlə, qeyri-ənənəvi dini cərəyanların ölkəmizin dini durumuna təsiri hansı səviyyədədir?**

– Məlumdur ki, sovet hakimiyyəti dövründə mövcud olan ideoloji qadağalara baxmayaraq, xalqımız özünün milli-mənəvi dəyərlərini və adət-ənənələrini qorumuş, bəzən gizli, bəzən də aşkar şəkildə milli və dini bayramları qeyd etmişdir. Yaxın tarixi dövrü əhatə edən, mürəkkəb ictimai-siyasi və sosial-iqtisadi şəraitdə baş verən hadisələrin təhlili ölkəmizin taleyüklü sınaqlardan necə uğurla çıxdığını bir daha göstərir. 1990-cı ilin əvvəllərində Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı işğal etməsi nəticəsində bir milyondan artıq vətəndaşımızın doğma yurdlarından qaçqın və məcburi köçkün düşməsi, müstəqilliyini yeni bərpa etmiş dövlətin iqtisadi və sosial dayaqlarının zəif olması həmin dövrdə Azərbaycanı böyük humanitar fəlakətlə üz-üzə qoydu. Belə çətin sosial-iqtisadi şəraitdə humanitar yardım adı altında müxtəlif ölkələrin fondları, yardım təşkilatları respublikamıza ayaq açdı. Onlar ölkəmizdəki sosial-iqtisadi böhran vəziyyətindən və Qarabağda ağır döyüşlərin getməsindən istifadə edərək dini durumu gərginləşdirmək, radikal dini cərəyanların Azərbaycanda yayılması istiqamətində geniş fəaliyyət göstərirdilər. Hətta qonşu ölkələrdə fəaliyyəti qanunla qadağan edilmiş bir sıra qeyri-ənənəvi dini cərəyanların, qeyri-səmavi dinlərin mənsublarının zərərli dini təbliğatı genişlənirdi. Lakin bu cür əməllərlə məşğul olanlar müəyyən vaxtdan sonra qanunsuz fəaliyyətlərinin qarşısının alınacağını öncədən düşünərək gələcəkdə onların missiyasını yerinə yetirə biləcək davamçılar yetişdirirdilər.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkəmizin bütün sahələrində olduğu kimi, dini münasibətlərdə də inkişaf mərhələsinin əsası qoyuldu. Dini ekstremizmə və radikalizmə qarşı mübarizədə mühüm addımlar atıldı. Müxtəlif adlarla fəaliyyət göstərən missioner təşkilatlar Azərbaycandan çıxarıldı və 1997-ci ildə əcnəbilər, vətəndaşlığı olmayan şəxslərin ölkədə dini təbliğat aparmasına qanunla qadağa qoyuldu. Dövlət-din münasibətlərinin demokratik normalar əsasında tənzimlənməsi, radikal təriqətlərin və missioner təşkilatların fəaliyyətinin nəzarətə götürülməsi, tolerant ənənələrin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı. Dini etiqad və vicdan azadlığına dair ölkə qanunvericiliyi beynəlxalq hüquq normalarına uyğun olaraq təkmilləşdirildi. İbadət ocaqlarının və dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar Heydər Əliyevin məqsədyönlü siyasətinin nəticəsində aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu.

Hazırda qeyri-ənənəvi dini cərəyanların ölkəmizin dini durumuna təsiri məsələsi daim diqqət mərkəzində saxlanılır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xətti ilə bu istiqamətdə ölkəmizin bütün şəhər və rayonlarını əhatə edən dini maarifləndirmə işi aparılır. Dini vəziyyətə təsir göstərən neqativ halların aradan qaldırılması üçün kompleks tədbirlər həyata keçirilir, radikal dini cərəyanların, qrupların təsir dairəsindəki dini icmalarla lazımi iş aparılır. Burada əsas meyar dini sabitliyə mənfi təsirlərin qarşısını almaqla yanaşı, xalqımızın milli-mənəvi dəyərlərini qoruyub saxlamaqdır.

Ümummilli liderin dini münasibətlərlə bağlı siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə göstərdiyi fəaliyyət milli-mənəvi dəyərlərin qorunmasına yüksək diqqətin ifadəsidir. Onu da qeyd edim ki, milli-mənəvi irsimizin, onun tərkib hissəsi kimi dini dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması qloballaşmanın sürətlə inkişaf etdiyi müasir dövrdə xüsusilə vacibdir. Çünki bu dəyərlərin tarixən xalqımızın inkişafında, milli dövlətçiliyimizin möhkəmlənməsində xüsusi rolu vardır.

**– Vaxtilə Azərbaycanın çox savadlı din xadimləri olmuşdur. Buna görə də ölkəmizin milli ideologiyasına bağlı olan, eyni zamanda, müsəlman dövlətlərində tanına biləcək ruhanilərin ortaya çıxarılması üçün nə etmək lazımdır?**

– Azərbaycanda müxtəlif vaxtlarda nüfuzlu dini mərkəzlər və din xadimləri fəaliyyət göstərmişdir. Mirzə Əbu Turab Axundzadə, Axund Mir Məmməd Kərim Mircəfərzadə, Axund Molla Ruhulla Məmmədzadə, Şeyxülislam Axund Molla Ağa Əlizadə kimi maarifçiliyi, yeniliyi, tərəqqini dəstəkləyən din xadimlərimiz olub. Azərbaycanda tarixən müxtəlif ictimai-siyasi quruluşların mövcud olması cəmiyyətin bütün sferalarında olduğu kimi, dini sahəyə də mühüm təsir göstərmişdir. Məsələn, Çar Rusiyası Azərbaycanda özünün ictimai dayaqlarını daha da gücləndirmək üçün dini-etnik vasitələrdən istifadə edirdi. Bu məqsədlə Rusiya müsəlman din xadimlərini ələ almaq və özünə tabe etmək üçün xristianlıqdakı kilsə strukturuna bənzər İslam dini qurumu yaratmaq siyasəti yürüdürdü. Həmin dövrdə ruhanilərin müsəlman əhalisi üzərində böyük təsirə malik olduğu nəzərə alınırdı. Ona görə də müsəlman ruhaniliyini xalqın gözündən salmağa çalışılır və Çar hökumətinin tapşırıqlarını yerinə yetirən ruhani rəhbərlər vasitəsilə müsəlman əhaliyə təsir göstərilirdi. Bir tərəfdən xalqın dini hisslərini və duyğularını ifadə edə bilən ruhanilər nəzarətdə saxlanılır, digər tərəfdən ali müsəlman təbəqəsindən olan ailələrin övladları rus məktəblərində oxumağa məcbur edilirdi. Sovet dövründə müsəlman ölkələrindəki dini mərkəzlərdə təhsil almış ruhanilərin əksəriyyəti repressiya olundu, yas mərasimlərində iştirak edən ruhanilərin bir çoxunun dini savadı isə lazımi səviyyədə deyildi.

Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsindən sonra xalqımızın dini-mədəni dəyərlərinə qayıdışı üçün əlverişli tarixi şərait yarandı. Təəssüf ki, ölkəmizin müstəqilliyinin ilk illərində dini inancdan özlərinin geosiyasi maraqlarını həyata keçirmək vasitəsi kimi yararlanmağa çalışan xarici qüvvələr gənclərimizi dini təhsil almaq adı ilə xaricə aparırdı. Həmin gənclərdən bəziləri geriyə qayıdarkən təhsil aldıqları ölkələrin dövlət-din münasibətlərinin, habelə həyat tərzinin təbliğatçısına çevrilmişdilər ki, bunun da cəmiyyətimizə və dini mühitə təsirinin mənfi nəticələrini görürük.

Bu təhlükənin qarşısının alınması məqsədilə sağlam dini təhsil vermək və savadlı ilahiyyatçı yetişdirmək üçün elmi bazanın formalaşdırılması zərurəti yaranmışdı. Belə ki, 1990-cı ilin əvvəllərində Bakı İslam Universiteti, daha sonra Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi fəaliyyətə başladı. Amma Bakı İslam Universitetində tədrisin ödənişli əsaslarla olması müəyyən çətinliklərə səbəb olurdu. 2018-ci ildə dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Bu təhsil ocağı müasir dünyamızda gedən prosesləri mükəmməl bilən, qabaqcıl düşüncəyə malik, elmlə dinin qarşılıqlı əlaqəsini təhlil etməyi bacaran, İslamda vəhdəti təbliğ və təşviq edən, məzhəb ayrı-seçkiliyinə yol verməyəcək kadrlar yetişdirir. Bu tələbələr institutda ödənişsiz əsaslarla təhsil alırlar.

İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir və ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Sözsüz ki, bu istiqamətdə bəzi problemlərlə də rastlaşırıq. Dinlə bağlı kifayət qədər məlumatı olmayan gənclərin tez bir vaxtda din xadimi kimi formalaşması o qədər də asan olmur. Bu baxımdan gənclərin məhz dini kollec təhsili aldıqdan sonra İlahiyyat İnstitutuna daxil olmasının daha uğurlu nəticələr verəcəyini düşünürük. Qeyd etmək yerinə düşər ki, Azərbaycan İlahiyyat İnstitutunun ilk məzun buraxılışı olub və onlardan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün elan edilən müsahibədə uğur qazanaraq din xadimi kimi təyinat alanlar da var.

**– Sirr deyil ki, Azərbaycan məscidlərində İranda təhsil almış ruhanilər az deyil. Şübhəsiz ki, onların içərisində Vətənimizə bağlı olan insanlar da var. Bu məsələ necə tənzimlənir? Çünki bu yaxınlarda açıqlama verdiniz ki, Azərbaycandakı məscidlərdə İran öz adamlarını yerləşdirib…**

– Dini sahəyə təkcə milli-mənəvi dəyər və vicdan azadlığı prizmasından baxmaq olmaz. Hər bir dövlət bu sahəyə həm də özünün milli, ictimai və ideoloji təhlükəsizliyi kontekstində yanaşır. Azərbaycanın milli maraqları baxımından biz xaricdə dini təhsili məqsədəuyğun hesab etmirik. Çünki hər bir ölkənin özünəməxsus dövlət-din münasibətləri, hər bir xalqın spesifik dini həyat tərzi var. Xaricdə dini təhsil Azərbaycan üçün yad olan dövlət-din münasibətlərinin və dini həyat tərzinin ölkəmizə gətirilməsinə və təbliğinə zəmin yaradır. Bu mənada ən doğrusu ölkəmizdə dini təhsil almaqdır. Bunun üçün Azərbaycanda yetərincə şərait var. İrana gəlincə, bu dövlətin əsas məqsədi din pərdəsi altında öz maraqlarını təmin etmək və İrana xas həyat tərzini yaymaqdır. İranda təhsil alanlar arasında təsir altına düşənlər olub. Onların bəziləri hətta İranda Azərbaycan əleyhinə təbliğatlarda iştirak edirlər və hərəkətlərində cinayət əməlləri var. Azərbaycanın hüquq-mühafizə orqanları bununla bağlı müvafiq tədbirlər görürlər.

İranın regionda həyata keçirdiyi fəaliyyətin təhlili onu deməyə əsas verir ki, İslam, əslində, bu ölkənin öz məkrli niyyətini gizlətmək üçün vasitədir. İrandakı rejimin əsl məqsədi bu coğrafiyada məzhəbçiliyi yaymaq, inkişafın qarşısını almaq, öz nüfuz dairəsini genişləndirmək, kənarda molla rejimini dəstəkləyən kontingent formalaşdırmaqdır. Bunun üçün bütün vasitələrə əl atan İran məscidləri dağıdan, təhqir edən Ermənistanı dəstəkləməkdən, öz müsəlman qardaşına qarşı isə terror təşkil etməkdən çəkinmir. Bu cür çirkin fəaliyyətlə məşğul olan İran öz planlarını reallaşdırmaq məqsədilə adamlarını məscidlərimizə də yerləşdirməyə çalışıb. Belə cəhdlərin gələcəkdə də olması mümkündür. Amma biz buna imkan verə bilmərik. Ərazi bütövlüyümüz qədər mənəvi bütövlüyümüz də bizim üçün önəmlidir. Məscidlər mənəvi bütövlüyümüzü qorumaq üçün tikdiyimiz qalalardır. Biz o qalaları nə İranın, nə də başqa bir ölkənin adamlarına etibar edə bilərik.

Onu da deyim ki, xaricdə, o cümlədən İranda dini təhsil almış şəxslərin hamısını qaralamaq olmaz. Onların arasında Vətənini, dövlətini sevən, onun mənəvi sərhədlərini qorumağa hazır olan insanlar da var. Dini kadrlara münasibətdə konkret prinsipimiz var: Millətə, ümmətə xidmət, Vətənə, dövlətə sədaqət! Millətə xidmət, dövlətə sədaqət göstərməyən ruhani məsciddə fəaliyyət göstərə bilməz. Bunu həm cəmiyyətimizin, həm də dini sahədə fəaliyyət göstərənlərin bilməsi zəruridir.

**– Azərbaycanda dünyəvi dövlət-din münasibətləri, multikultural dəyərlər sistemi mövcuddur. İstərdik bu barədə danışasınız.**

– Ölkəmizdə dünyəvi dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, dini sahədə sabitlik qorunur, konfessiyalar arasında qarşılıqlı anlaşma və etimad mövcuddur. Dövlət-din münasibətləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrə əsaslanır. Azərbaycan dünyada multikulturalizmin inkişaf etdiyi dövlət kimi böyük nüfuz qazanmışdır. Demokratik dəyərlərdən biri olan dini-etnik tolerantlıq cəmiyyətimizdə mühüm yer tutur. Dövlətimiz dünyada dini azadlıqların qorunması ilə bağlı beynəlxalq təşəbbüsləri dəstəkləyir. Dünyada dini ayrı-seçkiliyin gücləndiyi və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissələrindən birini təşkil edir. Fəxrlə deyə bilərik ki, bu gün dünya birliyində demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər boyu formalaşan və bir çoxlarına örnək olan səciyyəvi xüsusiyyətidir. Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi, dini dəyərlərin təbliği və daha da möhkəmləndirilməsi, multikultural və tolerant ənənələrin qorunması Azərbaycan Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkəmiz dinlərarası və mədəniyyətlərarası dialoqa dünyada sülhün və sabitliyin təmin olunmasının mühüm vasitələrindən biri kimi baxır.

**– Məlumdur ki, dini maarifləndirmə işinin səmərəli təşkili həm də ideoloji işin tərkib hissələrindən biridir. Dövlət komitəsi bu sahədə hansı işləri görür?**

– Dini maarifləndirmə işinin dövrün tələblərinə uyğun səmərəli təşkili dini sahədə gedən proseslərin tənzimlənməsi üçün vacib əhəmiyyət kəsb edir. Burada əsas məqsəd insanlara doğru məlumatlar çatdırmaq, baş verən hadisələrin mahiyyəti, dini sahəyə təhdidlər barədə onları xəbərdar etməkdir. Xüsusilə milli-mənəvi dəyərlərimizin qorunması üçün dini maarifləndirmə işinin düzgün təşkili zəruridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini radikalizm və ekstremizmə qarşı mübarizə, həmçinin milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində kompleks tədbirlər həyata keçirir.

Dini maarifləndirmə işi onun hədəf qruplarının xüsusiyyətləri nəzərə alınmaqla təşkil edilir. Bu məqsədlə rayon (şəhər) icra hakimiyyətləri və hüquq-mühafizə orqanları əməkdaşlarının, təhsil müəssisələrinin, xüsusilə, orta ümumtəhsil məktəblərinin pedaqoji heyətinin iştirakı ilə tədbirlər keçirilir. Bu tədbirlər risk qrupuna daxil olan sosial qrupların dini fanatizm, radikalizm və ekstremizm meyillərindən qorunması, eləcə də xalqımızın multikultural, tolerant dəyərlərinin təbliği və təşviqi istiqamətində müxtəlif qurumların birgə və ayrıca fəaliyyətlərində effektivliyin artırılmasını nəzərdə tutur.

Dövlət komitəsi tərəfindən dini maarifləndirmə işi konfrans, seminar, vebinar, seminar-treninq, "dəyirmi masa" və digər formatlarda həyata keçirilir. Dini maarifləndirmə sahəsində işlər dövlət komitəsinin elektron mətbu orqanı olan "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti, həmçinin İTV kanalında yayımlanan "Cəmiyyət və Din", SPACE telekanalında efirə gedən "İnam", "Mədəniyyət" kanalındakı "Haqqın dərgahı" verilişləri vasitəsilə də aparılır. Dini maarifləndirmə işində səmərəliliyin artırılması üçün müvafiq nəşrlərin çap edilməsi böyük əhəmiyyət daşıyır. Dövlət komitəsi və onun tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən xeyli sayda dini maarifləndirmə xarakterli materiallar, kitab, jurnal və qəzet kimi çap məhsulları ilə yanaşı, sənədli filmlər də hazırlanır.

***Müsahibəni aldı:***
***Anar TURAN,***
***"Xalq qəzeti"***

# Milli ermənişünaslığın hədəfləri

**(Əvvəli qəzetimizin 11 aprel 2023-cü il tarixli sayında)**

**"Qərbi Azərbaycana Qayıdış missiyasının uğurla gerçəkləşdirilməsi Azərbaycan ermənişünaslığı qarşısında da önəmli vəzifələr qoyur. Azərbaycan üçün nəinki elmi-idraki, hətta strateji əhəmiyyət kəsb edən bu problem indiyədək xüsusi araşdırılmamış, müzakirə edilməmiş, bir sözlə, lazımi diqqətdən kənarda qalmışdır. Buna görə də Azərbaycan ermənişünaslığı sahəsində qeyri-qənaətbəxş vəziyyət yaranmışdır".**

**AMEA Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov mövzu ilə bağlı qəzetimizə açıqlamasının ikinci hissəsində bildirdi:**

**– Ermənilər və İran mövzusu da Azərbaycan ermənişünaslığında özünəməxsus yer tutmuşdur.** M.Məmmədzadə 1927-ci ildə "Ermənilər və İran" adlı əsərini çap etdirmişdir. Bu mövzu S.Onullahinin tədqiqatlarında da davam etdirilmişdir.

**Erməni dilində olan Azərbaycan qaynaqlarının öyrənilməsi.** Məlum olduğu kimi, müəyyən tarixi şərait üzündən bəzi alban qaynaqları (M.Kalankatuklu, K.Qandzaketsi, Mxitar Qoş və b.) müasir dövrə erməni dilində gəlib çatmışdır. Erməni tarixşünaslığında olduğu kimi, ilk vaxtlar Azərbaycanda da bu işi ermənilər həyata keçirmişlər. Kirakos Qandzaketsinin əsəri 1946-cı ildə Bakıda rus dilində çap edilmişdir. Z.Bünyadov M.Kalankatuklu və Mxitar Qoşun əsərlərini ingilis dilindən tərcümə etmişdir.

Albanların Dağlıq Qarabağda deetnizasiyası (erməniləşməsi) məsələsi Z. Bünyadovun monoqrafiyasında əsaslı şəkildə qoyulmuşdur. Ü.Hacıyeva Qafqaz albanlarının deetnizasiyasına (XIX əsr) xüsusi tədqiqat həsr etmişdir. Y.Mahmudov və K.Şükürov Qarabağa dair tədqiqatında da bu məsələyə toxunmuşlar.

**Erməni tarixçilərinin əsərlərinin resenziyalaşdırılması.** Bu tipli resenziyalar tarixi tədqiqat növü hesab olunur. Burada V.İşxaniyanın 1919-cu ildə Tiflisdə nəşr olunan kitabına resenziya ilk yeri tutur. Sonralar Q.Voroşil, M. Heydərov, Z.Bünyadov, M.Nemətova, V.Qiliyeva və b. resenziyalarını qeyd etmək olar.

**Azərbaycan və ermənilərin əlaqələri (ədəbi, tarixi və b.) haqqında.** Bu mövzu əsasən sovet dövründə üstünlük təşkil etmişdir. M.Seyidov (ədəbi əlaqələr), Q.Voroşil və Z.Budaqovanın (dil əlaqələri) və S.Məmmədovun (tarixi əlaqələr) monoqrafiya və məqalələri qeyd oluna bilər.

**Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə dair.** Ermənilərin İran və Osmanlı imperiyasından Cənubi Qafqaza köçürülməsi erməni tarixşünaslığında kifayət qədər öyrənildiyi halda, Azərbaycan tarixşünaslığı uzun zaman susmuşdur. D.İsmayılzadə 1982-ci ildə Moskvada nəşr olunan kitabında bu məsələ üzərində dayanmışdır. Bakıda isə K.Şükürov Cənubi Azərbaycan tarixi ilə əlaqədar bu süjeti nəzərdən keçirmişdir. 1980-ci illərin sonlarından bu məsələyə diqqət artmış, H.Verdiyeva və M.Muradov tərəfindən çarizmin köçürmə siyasətinin tərkib hissəsi kimi araşdırılmışdır.

**Ermənilərin 1980-ci illərin sonlarında yeni ərazi iddiaları və bunun reallaşdırılması üçün siyasi-hərbi fəallığı Azərbaycan ermənişünaslığının, demək olar ki, həyati əhəmiyyətli suallara cavab verə bilmədiyini qeyd edən alim dedi:**

– Belə bir şəraitdə Ermənistan və ermənilər haqqında qeyri-Azərbaycan müəlliflərinin əsərlərinin reprint nəşrləri, xarici ədəbiyyatın tərcüməsi (rus və Azərbaycan dillərində) və çapı həyata keçirilməyə başladı. Ermənistanın öz tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı siyasəti, toponimləri dəyişdirməsi, maddi-mədəniyyət abidələrini məhv etməsi və azərbaycanlıların deportasiyası haqqında. Demək olar ki, uzun müddət üzərindən sükutla keçilən bu məsələlər də 1980-ci illərin sonlarından öyrənilməyə başlanır. "Didərginlər" adlı toplu (1990) ilk belə nəşrlərdən biri hesab oluna bilər.

1948–1953-cü illərdə köçürülməsinə dair əsaslı sənədli tədqiqatların başlanması və onun deportasiya kimi nəzərdən keçirilməsində A.Paşayevin rolu böyükdür. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 18 dekabr fərmanından sonra deportasiyanın öyrənilməsi geniş hal almışdır. Ermənistanın azərbaycanlılara qarşı siyasətinin araşdırılmasında İ.Məmmədov, S.Əsədov, H.Rəhimoğlu və başqalarının tədqiqatları xüsusi qeyd oluna bilər.

Ermənistanın Azərbaycan yer adlarını dəyişdirməsi siyasəti və onun nəticələri B.Budaqov, Q.Qeybullayev, İ.Bayramov və b. tərəfindən öyrənilmişdir. Ermənilərin Azərbaycandakı fitnəkar rolu, cinayətkar fəaliyyətinin öyrənilməsi də son dövrə aiddir.Bu məsələ üzrə B.Nəcəfov, Q.Sadıxov, R.Məmmədov, L.Məmmədova, V.Quliyevin tədqiqatlarını, DTX, Azərbaycan MEA Tarix və İnsan Hüquqları İnstitutlarının nəşrləri diqqəti cəlb edir.

Uydurma erməni genosidi, erməni lobbisi, erməni şovinizmi, erməni terrorizmi, ermənilərin mənşəyi və tarixi haqqında araşdırmalar Azərbaycan ermənişünaslığında yeni süjetlərdir. "Qarabağ dünən, bu gün və sabah" elmi-əməli konfransları respublikada ermənişünaslığın inkişafına da müəyyən təsir göstərmişdir.

Nəzərdən keçirdiyimiz məsələləri uyğun istiqamətlər üzrə aşağıdakı kimi ümumiləşdirmək olar:

**1)** erməni qaynaqlarının Azərbaycan tarixinin mənbələrindən biri kimi araşdırılması; erməni müəlliflərinin əsərlərinin resenziyalaşdırılması; Azərbaycan müəlliflərinin bizə erməni dilində çatmış əsərlərinin öyrənilməsi və s.;

**2)** ermənilərin Azərbaycana köçürülməsi, azərbaycanlılara qarşı genosidi;

**3)** Ermənistanın öz tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı siyasəti; azərbaycanlıların deportasiyası, Azərbaycana qarşı ərazi iddiaları, müharibəsi və onun ağır nəticələri;

**4)** dünya ermənişünaslığından seçmə yolu ilə nəşrlər və tərcümələr;

**5)** ermənilərin İran və Türkiyədə fəaliyyəti;

**6)** ermənilərin mənşəyi, tarixi, terrorçuluğu və s.

Bu istiqamətlərdən daha çox Azərbaycanla bağlı olanlar nisbətən geniş ədəbiyyat yaratmışdır. Ermənişünaslığın mərkəzi məsələlərinə az diqqət yetirilmiş və ya ümumiyyətlə, bu məsələlər qoyulmamışdır. Azərbaycan ermənişünaslığına beynəlxalq aləmdə istinad olunması faktları isə nadir hadisədir.

**Professor Kərim Şükürov sonda qeyd etdi ki, beləliklə, qarşıya qoyulan vəzifələr üzrə aparılan araşdırmalardan aydın olur ki, sözün əsl mənasında, Azərbaycan ermənişünaslığının formalaşmasından danışmaq mümkün deyildir:**

– Ermənistanın Azərbaycana qarşı müharibəsi, ölkə ərazisinin müəyyən hissəsinin işğalı, ideya-siyasi, hərbi, bir sözlə, həyatın bütün sahələrində Azərbaycana qarşı düşmənçilik siyasəti apardığı dövrdə Azərbaycan ermənişünaslığının belə bir vəziyyəti qənaətbəxş hesab oluna bilməz və burada köklü dəyişikliklər edilməlidir. Bütün zəruri tələbləri nəzərə alan Azərbaycan ermənişünaslığı modeli hazırlanmalı (erməni dilinin tədrisi, ermənişünaslıq mərkəzlərinin təşkili və s. əsas götürülməklə) və həyata keçirilməlidir.

Qısa müddətdə Azərbaycan ermənişünaslığının dünyanın qabaqcıl ermənişünaslıq mərkəzləri səviyyəsinə çatdırılması təmin edilməlidir. Azərbaycan ermənişünaslığının dünya ermənişünaslığına inteqrasiyası dövlətin strateji maraqlarına uyğun elmi-idraki və əməli informasiya əldə etməsini yeni səviyyəyə yüksəldə bilər.

***Hazırladı: T.RÜSTƏMLİ, "Xalq qəzeti"***









# "Qərbi Azərbaycan iqtisadiyyatı" elmi-tədqiqat qrupu

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda "Qərbi Azərbaycan iqtisadiyyatı" adlı müvəqqəti yaradıcılıq qrupu yaradılıb. İnstitutdan qəzetimizə bildirilib ki, bu barədə İqtisadiyyat İnstitutunun Elmi Şurasının iclasında qərar qəbul olunub.**

İnstitutun baş direktoru, iqtisadiyyat elmləri doktoru professor Nazim Müzəffərlinin sədrliyi ilə keçirilən iclasda bu məsələ geniş müzakirə olunub. Baş direktor bildirib ki, vaxtilə azərbaycanlılar Ermənistan ərazisindən, öz dədə-baba yurdlarından, tarixi torpaqlarımızdan kütləvi şəkildə deportasiya olunublar.

Hazırda əsas hədəflərdən biri Qərbi azərbaycanlıların pozulmuş hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ edilməsi və tam məhv olunmasının qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsidir.

Xatırladaq ki, Ermənistandan deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaq üçün Qərbi Azərbaycan İcması yaradılıb. Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Bütün bunları nəzərə alaraq, hesab edirik ki, Qərbi Azərbaycan iqtisadiyyatının da öyrənilməsi, bu sahədə elmi araşdırmaların aparılması dövlətimiz üçün çox faydalı ola bilər.

Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Fuad Qənbərov bildirib ki, Qərbi Azərbaycanın həm keçmiş, həm də müasir iqtisadiyyatının öyrənilməsi çox vacib və əhəmiyyətli məsələdir. Qərbi Azərbaycan İcmasının tərkibində bu məqsədlə İqtisadiyyat Komissiyasının yaradılması da təklif olunub. İqtisadiyyat İnstitutunda "Qərbi Azərbaycan iqtisadiyyatı" adlı müvəqqəti yaradıcılıq qrupu isə Qərbi Azərbaycan iqtisadiyyatı ilə bağlı elmi tədqiqatlar aparacaq.

"Qərbi Azərbaycan iqtisadiyyatı" yaradıcılıq qrupuna İqtisadiyyat İnstitutunun bir qrup əməkdaşı – professor Fuad Qənbərov, aparıcı elmi işçilər Tanrıverdi Paşa, Nəsimi Əhmədov, Çingiz Baxış, Ələsgər Sarıyev, Vilayət Ramazanov və gənc tədqiqatçı Səftər Vəlizadə daxil ediliblər.

***"Xalq qəzeti"***

# Könlümün həm dağı, aranı Mığrı

*Tağəmir yaylağın, Xəllərgə dağın,*
*Ağdərə dağların, Kazımbulağın.*
*Sənin hər obadan gəlir sorağın,*
*Dadlı meyvələrin loğmanı Mığrı.*

*Yayda qar istəsən, Ələngəzə bax,*
*Lehvəzdən çiçək dər, öz saçına tax.*
*Ən ləzzətli üzüm Lökdədir ancaq,*
*Könlümün həm dağı, aranı Mığrı.*

*Hələ Maralzəmi, çıxmır yadımdan,*
*Gəzir təpələrdə o Rəhim çoban.*
*Könlüm ayrılmadı köksündən bir an,*
*Dolanmaq istədim hər yanı, Mığrı.*

*Yayda bağlardadır qış-qarın sənin,*
*Dəyir alma, üzm, yay narın sənin.*
*Gözəldir payızın, baharın sənin,*
*Kəkliktək qızların məkanı Mığrı.*

**HİDAYƏT**



# Doğma yurda qayıdış bəşəri missiyadır

**Soydaşlarımız İrəvan şəhəri də daxil olmaqla Qərbi Azərbaycanın bürtün bölgələrində yaşayıblar və bu ərazilərdən zaman-zaman soyqırımı və kütləvi deportasiyaya məruz qalıblar. İndiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların öz doğma yurdlarına qayıtması onların qanuni haqlarıdır.**

Qarabağ uğrunda Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu məsələnin gündəmə gəlməsi qanunauyğundur. Qərbi azərbaycanlılar doğma dədə-baba yurdlarına qayıtmalıdırlar. Xatırladaq ki, Qarabağ ətrafında münaqişə başlanan zaman prosesin ilk qurbanları həmin dövrdə Ermənistan SSR-də yaşayan azərbaycanlılar olublar.

Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın sonuncu nəsli öz dədə-baba yurdlarından qısa müddətdə amansız şəkildə qovuldular. Bəzi yerlərdə qətliamlar baş verdi, dinc insanlar amansızlıqlarla üzləşdilər. İndi zaman və şərait köklü surətdə dəyişib, qaçqınların və məcburi köçkünlərin dədə-baba yurdlarına qayıdışı artıq vaxtı çatmış məsələdir və bu prosesin gündəmə gətirilməsi tamamilə qanunauyğun haldır. Lakin bu prosesi reallaşdırmaq üçün, ilk növbədə, soydaşlarımızın Qərbi Azərbaycanda, yəni indiki Ermənistan ərazisində təhlükəsizliyinin təmin olunmasını formalaşdırmaq lazımdır.

Tarixi faktlar da sübut edir ki, ermənilər davamlı olaraq azərbaycanlılara qarşı terror aktları, dəhşətli soyqırımları törədiblər. Bu faciələr beynəlxalq təşkilatlar tərəfindən hələ də hüquqi qiymətini almayıb. Ermənilərin vəhşiliyini, qəddarlığını bütün dünyaya nümayiş etdirən Xocalı, Ağdaban, Qaradağlı faciələrini, sərhədboyu ərazilərdəki digər amansız qətliamları xatırlatmaq istərdim.

Vaxtilə, bütövlüklə, Azərbaycan türklərinə məxsus olmuş İrəvan xanlığının torpaqlarında "erməni dövləti" yaradıldıqdan sonra azərbaycanlılar sıxışdırılmağa, təzyiqlərlə üzləşməyə başladılar. Son nəticə dünya ictimaiyyətinin gözü qarşısındadır. Azərbaycanlıların kütləvi deportasiyası, bu zaman məruz qaldıqları vəhşiliklər, qırğınlar beynəlxalq hüquq prinsiplərinə zidd olsa da, indiyədək sükutla qarşılanıb.

Qayıdışla bağlı indiki Ermənistan ərazisində yaşayacaq azərbaycanlıların təhlükəsizliyinin təmin olunması əsas məsələlərdən biridir. 1988-ci ildə azərbaycanlıların kompakt yaşadıqları, çoxluq təşkil etdikləri ərazilərdə mədəni muxtariyyətin təmin olunması zəruri vəzifədir. Yerli və inzibati idarəçilik məhz azərbaycanlılara məxsus olmalıdır. Söhbət Zəngəzurdan, Göyçəətrafı ərazilərdən gedir. İlkin qayıdış həmin ərazilərdə təmin edilməlidir.



Tarixə nəzər saldıqda bir daha aydın olur ki, ermənilər yüz illik tarix ərzində imzaladıqları sazişlərə, müqavilələrə heç vaxt əməl etməyiblər. Ermənistan tərəfi 44 günlük müharibədən sonra imza atdığı sənədləri də icra etməkdən boyun qaçırır. Məhz o səbəbdən ikitərəfli müqavilələrlə yanaşı, beynəlxalq səviyyədə qarantın olması da əsas şərtdir. Təəssüf ki, beynəlxalq təşkilatlar Ermənistanın hüquqazidd hərəkətlərinə, qətliamlarına, terror aktlarına və deportasiyalara hələ də qiymət verməyib.

Ermənilər münaqişəyə siyasi, diplomatik, hüquqi yanaşmada məğlub olduqda tarixilik prinsipinə əl atırlar. Artıq buna adət ediblər. Halbuki, ərazi iddialarında tarixilik deyil, real məskunlaşma prinsipi əsasdır. Tarixdən ermənilərin nəinki şifahi vədlərinə, hətta imzaladıqları saziş və müqavilələrə əməl etmədikləri yaxşı məlumdur.

1918-ci ilin iyununda imzalanmış Batum müqaviləsi ilə götürdükləri öhdəlikləri yerinə yetirmədilər, 1919-cu il noyabrın 23-də imzalanmış sazişə də əməl etmədilər. Zəngəzurda yenidən azərbaycanlılar məhv edildi, müsəlman kəndlərinə divan tutuldu. Sazişin bağlanması prosesində vasitəçilik etmiş ingilis rəsmi nümayəndələrinin, Britaniya Xarici İşlər Nazirliyinin çoxsaylı yazışmaları var. İngiltərənin ən yüksək çinli siyasi və hərbi xadimləri rəsmi məlumatlarında erməni dövlətinin götürdüyü öhdəliklərə əməl etmədiyini, saziş bağladığına baxmayaraq, müsəlman kəndlərinə hücum edib, müsəlmanları məhv etdiyini bildiriblər. Ona görə də hüququ yanaşma ilə yanaşı, tarixilik də diqqətdə saxlanılmalıdır. Bu sənəd və materiallar xarici səfirliklərə, diasporlara çatdırılmalıdır.

Sonda bildirək ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması prosesində xarici qüvvələrin təzyiqi ilə İrəvan şəhəri şərti olaraq ermənilərə siyasi mərkəz kimi güzəşt edilib. Həmin vaxt Ararat respublikası iki qəzada yaradılmışdı ki, onlar da İrəvan azərbaycanlılarının ərazisi idi, amma bu barədə Azərbaycan Milli Şurasının protokolunda güzəşt kimi bəhs edilməyib. İrəvan şəhərinin güzəşt edilməsinə dair protokol bu gün İrəvanın azərbaycanlıların yurdu olduğunu təsdiq edən daha bir hüququ sənəddir. Bundan diplomatik, siyasi müstəvidə istifadə etmək lazımdır.

Həmin dövrdə "Azərbaycan" qəzetində dərc edilən teleqramda yazılmışdı ki, müsəlmanlar İrəvandan başlayaraq Şuşayadək məhv edilir. İndi isə azərbaycanlıların Şuşadan başlayaraq doğma yurdlarına, o cümlədən İrəvan ellərinə qayıtmalarının zamanı çatıb.

**Firdovsiyyə ƏHMƏDOVA,**
**Dövlət İdarəçilik Akademiyası tarix kafedrasının müdiri, dosent, Əməkdar müəllim**

# Ən yüksək rütbəli şəhid həkim

**Bu gün Qarabağın işğaldan azad edilməsindən, torpaqlarımızda gedən abadlıq, quruculuq işlərindən qürurla söz açırıq. Köçkünlərin ata-baba yurdlarına qayıtmasını böyük sevinclə dəstəkləyirik. Bu günləri xalqımıza yaşadan şəhidləri və qaziləri isə əsla unutmuruq. Şükür edirik ki, şəhidlərimizin ruhu bu gün şaddır, qazilərimiz hər cür diqqət və qayğı ilə əhatə olunublar. Kəlbəcərdə, Laçında, Şuşada... bayrağımız dalğalanır, ordumuz güclüdür və üzərinə düşən vəzifələrə uyğun olaraq istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Vətən uğrunda canını qurban verən hər bir şəhidin ruhu qarşısında ehtiramla baş əyirik!**



Vətən müharibəsində kimisi silahı ilə vuruşub, kimisi də yaralılara yardım edib həyata qaytararaq özü şəhidlik məqamına yüksəlib. Şəhid polkovnik-leytenant, Azərbaycanın hərb tarixində və həmçinin Vətən müharibəsi tarixində canını qurban verən ən yüksək rütbəli tibb xidməti qulluqçusu Rasim Abdullayev kimi.

Rasim Yaqub oğlu Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcərin Milli kəndində doğulmuşdu. Orta məktəbi də, Azərbaycan Tibb Universitetini də yüksək səviyyədə başa vurmuşdu...

O, 2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu vəzifəsinə başlayır. İlk xidmətini 2000-ci ildə Əhmədbəyli hospitalında keçir. 2005–2016-cı illərdə Mərkəzi Hərbi Poliklinikada terapiya şöbəsinin, daha sonra Gəncədə yerləşən hərbi poliklinikanın rəisi olur. O, 2016-cı ilin Aprel döyüşləri zamanı yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərir. 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunur. 2020-ci ilin əvvəllərində Rasim Abdullayev son vəzifəsinə – Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri təyin olunur və Vətən müharibəsi başlayana qədər bu vəzifəni icra edir.

Vətən müharibəsində Rasim cəbhəyə getməyə onun daha çox haqqı olduğunu deyirdi. Çünki təbiətin gözəl, axar-baxarlı guşələrindən olan doğma yurdu vandal ermənilər tərəfindən işğal olunmuşdu. Yurd yanğısı onun üreyində ermənıyə qarşı elə nifrət oyatmışdı ki, "qarşıma çıxanı əllərimlə boğaram" – deyirdi.

Vətən savaşında döyüşçü kimi yox, hərbi tibb qulluqçusu kimi iştirak edən Rasim Abdullayev Hadrut qəsəbəsi və Şuşa istiqamətində 100-dən çox ağır yaralı zabitə yerindəcə tibbi yardım göstərib. O, yeni azad edilən, təhlükəli və döyüşdə ən qaynar nöqtələr olan yerlərdə qalmış hərbçilərə də ilk tibbi yardım göstərməkdən çəkinməyib. Güllə yağışı altında yaralılarımızı təhlükəsiz mövqelərə çəkərək tibbi yardım göstərməyi bacarıb.

O, Vətən müharibəsinin son günlərində komandanlıq tərəfindən növbəti tapşırıq alır: Şuşa istiqamətində ağır yaralı zabitlərə təcili tibbi yardım göstərilməlidir! Rasim cəld lazım olan tibbi ləvazimatlar və preparatlarla dolu çantanı çiyninə alıb tapşırığı yerinə yetirməyə tələsir. Həmin gün o, yaralılara son tibbi yardımını edir. Xocalının Çanaqçı kəndində, aldığı yaralardan həlak olur...

Yeri gəlmişkən qeyd edək ki, Rasim Abdullayev şeir yazmağı çox sevərmiş. Onun 100-dən çox şeiri qalıb. Kədər, həsrət hiss olunan, şəhidimizin ruhuna ehtiram ifadə edən "Tələsmə" şeirindən bir bəndi xatırlayaq:

*Bu da yol ayrıcı, bu da son vida...*
*İndi günəş soyuyacaq, tələsmə!*
*Ayrılıq gələcək əlində qılınc,*
*Bizi qana boyayacaq, tələsmə!..*

Həmin gün 2020-ci il noyabrın 10-da gəldi və o, Vətənə iki – Miryaqub və İslam adlı oğullarını əmanət edərək cənnətə köçdü. Şəhid polkovnik-leytenant II Şəhidlər xiyabanında uğrunda canını fəda etdiyi torpağa tapşırıldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Rasim Abdullayev "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, Rasim Abdullayev xidmət illərində "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, həmçinin 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə də təltif olunub.

**Z.BƏŞİRQIZI, "Xalq qəzeti"**

**O, 1997-ci ildə şairlər yurdu Şamaxıda dünyaya gələndə adını Nazim ("Nəzm yazan") qoyublar. Uşaqlıqdan poeziyaya, ədəbiyyata marağı olub. Ara-sıra şeirlər yazaraq dostlarına oxuyub. 2015-ci ilin oktyabr ayında Milli Ordu sıralarına həqiqi hərbi xidmətə çağırılıb. Yola düşəndə isə sevdiyi "naməlum" qıza ünvanladığı şeirdə ona: "Sən mənim qəlbimdə nübar payımsan", – deyərək yolunu gözləməsini istəyib.**

# Qələbə şeirini qanıyla yazdı...



Haqqında söhbət açdığımız Nazim Zəkarayev Silahlı Qüvvələrin Quru Qoşunlarında qulluq edib. 18 yaşı olan şair qəlbli əsgər Tərtər–Ağdərə istiqamətindəki təmas xəttində döyüş tapşırıqlarını şərəflə yerinə yetirib. Sanki, şəhid olacağı üreyinə damıbmış kimi, bir şeirində də yazıb:

*Böyüyə, kiçiyə hörmət elədim,*
*Allaha inandım, niyyət elədim.*
*Altı ay Vətənə xidmət elədim,*
*Torpaqdan yaranıb, torpağa döndüm.*

2016-cı ilin aprel ayında erməni işğalçılarının növbəti dəfə atəşkəs rejimini pozması səbəbindən başlanan şiddətli atışma zamanı Nazim qəhrəmancasına şəhid olub. Şeirləri əsgər gödəkçəsinin cibindən çıxıb. Ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

Qismətinə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmaq, ilk şeirlər kitabını buraxdırmaq düşməsə də, ən gözəl misralarını üreyinin qanıyla yazıb.

Şamaxı şəhərindəki Şəhidlər xiyabanında onun dəfn mərasiminə minlərlə şəhər sakini, qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatılıb. Avtomatlardan açılan yaylım atəşləri altında nəşi uğrunda can verdiyi torpağa tapşırılıb.

Şəhid şair Nazim Zəkarayevin bir şeirini oxuculara təqdim edirik.

**MƏNİ GÖZLƏYƏRSƏN GƏLƏNƏ KİMİ?**

*Dözə biləcəksən, bilməyəcəksən,*
*Adımı qəlbindən silməyəcəksən?*
*İl yarım üzümü görməyəcəksən,*
*Məni gözləyərsən gələnə kimi?*

*Adını qəlbimə şirin yazmısan,*
*Sən mənim qəlbimdə nübar yazımsan.*
*Ömrümə havatək, sutək lazımsan, -*
*Bunu bilməyirdin dünənə kimi.*

*Gedirəm düşməndən kamını alım,*
*Torpağımı alım, qanımı alım.*
*Şəhid oğlanların yanında qalım,*
*Göylərdə Allahım biləna kimi!*

**Əli ƏLİYEV, "Xalq qəzeti"**

# Dastana dönən ömür

**Vətən müharibəsi zamanı düşmənə qan uddurub adını zəfər tariximizə yazan Azərbaycanın igid, mərd övladı Fariz Fərhad oğlu Zülfüqarzadə Lənkəran elində dünyaya göz açmışdı. Qeyrətli Vətən oğlu 30 il düşmən əsarətində olan ulu yurd yerlərinin azadlığı naminə can qoyanda ömrünün 28-ci ilini yaşayırdı. Tankçı kimi növbəti hücum zamanı xain erməni hərbçilərinin belini qırandan sonra şəhidlik zirvəsinə ucaldı.**

Həyat yolu indi Vətən, torpaq sevgisinə dönərək gənclərə nümunə olan Fariz Zülfüqarov 2012-ci ildə həqiqi hərbi xidmətə gedir. Müqəddəs borcunu şərəflə yerinə yetirir, əsgər dostlarının, zabitlərin sevimlisinə çevrilir. Cəbhə xəttində dəfələrlə erməni dığaları ilə qarşılaşır və hər dəfə də onların cavabını layiqincə verir.



Fariz əsgəri xidmətini bitirib evə qayıdandan sonra ilyarım Lənkəranda mülki sahədə işləyib və xətir-hörmət qazanıb. Amma onun kimi mərd oğullar Vətənin ağır günlərində dalda-bucaqda gün keçirə bilməzdi. Məhz buna görə Fariz hərbçi olmağa qərar verib. Milli Ordu sıralarına üreyinin səsinə qulaq asaraq müqavilə əsasında müddətdən artıq xidmət etməyə başlayıb.

Fariz öz tankı ilə ilk dəfə 2016-cı ilin məlum Aprel döyüşlərində qarı düşmənlə üz-üzə gəlir. Lələtəpənin, eləcə də digər strateji mövqelərin azad olmasında böyük rəşadət göstərir. Buna görə Müdafiə Nazirliyinin fəxri fərmanlarına layiq görülür.

Vətən müharibəsində də Silahlı Qüvvələrin sərrast tankçısı daim öndə gedərək şiddətli mövqe döyüşlərinin cəngavəri olur. Daim döyüş meydanında cəsarətlə cövlan edir, sərrast atəşlər açır, düşmənin çoxlu sayda canlı qüvvəsini, hərbi texnikasını sıradan çıxarır.

İgid döyüşçü Qubadlının azad olunmasında erməni dığaları üstünə onlardan qənimət götürülən tankla gedib, işğalçıları pərən-pərən salıb və onlar öldürülən, eləcə də yaralı yoldaşlarını döyüş meydanında qoyaraq qaçıblar. Beləcə, Fariz hər döyüşdə düşmənə ağır itkilər verib. Özü isə 2 dəfə yaralansa da, geri durmayıb. Oktyabrın 19-da yenə də onun tankı qarşı tərəfdən atılan top mərmisinə tuş gəlib. Fariz ekipaj üzvlərini xilas etsə də, özü tankın içərisində qalaraq qan itirmə nəticəsində həlak olub.

Ölməz qəhrəmanın Vətən naminə xidmətləri dövlətimiz tərəfindən "Vətən uğrunda", "İgidliyə görə", həmçinin Füzuli, Zəngilan və Qubadlının azad olunmasına görə medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "YAŞAT" Fondu qazinin kredit borclarını ödəyib

**"YAŞAT" Fondu tərəfindən dəstək tədbirləri davam edir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən qəzetimizə verilən məlumata görə, "YAŞAT" Fondu Azərbaycan Ordusunun ehtiyatda olan zabiti, qazi Mədəd Süleymanovun borc öhdəliklərini qarşılayıb.**



M.Süleymanovun Vətən müharibəsində döyüş yolu Füzuli rayonundan başlayıb. Həmin rayon uğrunda 25 gün döyüşdükdən sonra yuxarı komandanlığın əmri ilə növbəti istiqamət Xocavənd rayonunun Tuğ kəndi olub: "Həmin kənddə üç gün artilleriya divizionu olaraq fəaliyyət göstərdik. Bundan sonra isə arzularımız və xəyallarımızın şəhəri olan Şuşa istiqamətinə yol aldıq. Topxana meşəsində ağır döyüşlər, amansız mübarizə gedirdi. Xocalı rayonunun Çanaqçı kəndində atəş mövqeyi quraraq döyüşlərə başladıq. Şuşa şəhərinin düşməndən xilas edilməsi uğrunda döyüşlərdə artilleriya divizionu kimi verilən tapşırıqları qüsursuz yerinə yetirməyə çalışdıq. Nəhayət ki, noyabrın 8-də Şuşa işğaldan azad edildi. Döyüşlər başa çatdıqdan sonra Zəfər yolunda qalan sıradan çıxmış texnikaların təmizlənməsi barədə tapşırıq gəldi. Həmin ərazidə xidməti vəzifəmi yerinə yetirərkən 2021-ci il yanvarın 8-də ağır avtoqəza keçirdim. Zəfər yolunun çəkilməsində iştirak edən işçi qrupların köməyi ilə məni Hadrutda yerləşən hospitala təxliyə etdilər. Bir gündən sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalına gətirildim. Onurğam, fəqərə sümüklərim, biləyim, çiynim qırılmışdı. Onurğam üzərində əməliyyat doqquz saat davam etdi. Müalicələrdən sonra hərbi həkim komissiyasının qərarına əsasən müdafiə nazirinin müvafiq əmri ilə ordu sıralarından ehtiyata buraxıldım. Əlilliyim təyin olunduqdan sonra "YAŞAT" Fonduna kredit borcuma görə müraciət etdim və Fond mənə borcumu bağlamağa kömək etdi".

Qeyd edək ki, Fondun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə etmək olar.

**"Xalq qəzeti"**

# Könüllü döyüşçünün hekayəsi...

**Birinci Qarabağ müharibəsi qazisi Balaş kişi şəhid atası Kərim dayı haqqında mənə danışmışdı. Demişdi ki, onun oğlu Həci Hüseynov Vətən müharibəsində qəhrəmancasına həlak olub. Balaş əmi ilə Xocəsənə, şəhid atasına baş çəkməyə gedirik.**




Kərim dayı ilə şəhid ailəsi kimi aldıqları evin qarşısında dolaşırıq. O, övladı haqqında ürək ağrısı ilə danışır: "General-mayor Polad Həşimov şəhid olduqdan sonra oğlum evdə heç kimə demədən hərbi komissarlığa gedib könüllü orduya yazıldı. Polad Həşimovun şəhid olmasını heç cür qəbul edə bilmirdi".

Polad Həşimov şəhid olduqdan bir ildən sonra II Qarabağ müharibəsi başlanır. Vaxtilə Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinin birində həqiqi hərbi xidmət keçmiş Həci Hüseynov kəşfiyyatçı ixtisasının sirlərinə yiyələnir. Sentyabrın 23-də ordu sıralarına könüllü qatılan Həcinin döyüş yolu kəşfiyyatçı kimi Füzulidən başlayır. Oktyabrın 23-də şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra Füzuli, Hadrut, Xocavəndin azad edilməsinə görə və "Vətən uğrunda" medalları ilə təltif edilir. Komandirləri Həcini cəsur, Vətənini sevən əsgər kimi xarakterizə edirlər.

Həci 1996-cı il iyunun 12-də Sumqayıt şəhərində doğulub. 1-ci sinfi də orada oxuyub. Ailə daha sonra Binəqədi rayonunun Xocəsən qəsəbəsinə köçüb. 24 yaşında Vətən yolunda canını qurban vermiş şəhidimiz hələ evlənməmişdi. Kərim kişinin sonbeşiyi – ikinci oğlu idi. Atası Həcinin son gedişini belə xatırlayır: "Günlərin birində həyəcanlı halda evə gəlib hərbi biletini axtarmağa başladı. Dedi ki, Vətəni qorumağa gedirəm, nigaran qalmayın. Elə iş paltarındaca çıxıb getdi".

Kərim dayı Həci ilə müharibə vaxtı telefon danışıqlarından da söz açır: "Hər dəfə bir nömrə ilə zəng edirdi. Axşam saatlarında ara-sıra danışırdıq. Həmişə hər şeyin yaxşı olduğunu deyirdi. Sonuncu dəfə oktyabrın 14-ü danışmışıq. Müharibə bitdikdən sonra öyrənmişəm ki, iki dəfə yaralı olub, hospitalda yatıb".

Həcinin silahdaşları ilə söhbətləşərkən bildirdilər ki, Qəbələdə, daha sonra isə Bakıda hərbi hospitalda müalicə alıb. Ona deyiblər ki, vəziyyəti yaxşı deyil, amma müharibə üçün nə qədər çalışsalar da, fikrindən yayındıra bilməyiblər, qayıdıb cəbhəyə – Füzuliyə.

Kərim dayı oğlunun şəhid olması xəbərini necə almağından da söz açdı: "Oktyabrın 23-ü gecə saat 1-ə işləmiş rayondan dayım oğlu zəng etdi. Dəstəyi qaldırmamış hiss etdim alacağım xəbəri. Dayım oğlu dedi ki, Həci yaralanıb. Tez Füzuliyə getdik. Oğlum şəhid olmuşdu. İcazə verməsələr də, cansız cəsədinə baxdım. Sanki, üzü gülürdü balamın".

Şəhid atasının gözləri yol çəkir. Bir qədər susandan sonra deyir: "Mənə bircə təsəlli verən odur ki, nəvəmə Tural adını şəhid balam qoyub. Həcini heç kim əvəz edə bilmir. Bir balaca çətinliyim olan kimi hiss edər, çatışmazlığı aradan qaldırardı. O, şəhid olduqdan sonra neçə adam gəlib deyib ki, mənə xeyli kömək edib. Hələ yaşlı bir qadın deyirdi ki, evimin süpürgəsinə qədər alıb gətirirdi. Yaxşılıq etməkdən zövq alırdı..."

Kərim dayı ilə gəzintidən sonra evlərinə qalxırıq. Bizi şəhidimizin anası Rəna Hüseynova qarşılayır. Salamlaşırıq. Evin hər tərəfi Həci Hüseynovun və digər şəhidlərimizin şəkilləri ilə bəzədilib. Polad Həşimov hərbi salam verir. Diqqətimi daha çox çəkən isə divardan asılmış saat oldu. Üzərinə belə yazılmışdı: "Həcisiz keçən dəqiqələr".

Rəna ana məyusluq içindədir. Lakin xüsusi bir qürur hiss olunur. Gözləri dolur, şəhid oğlunun şəklini göstərir: "Bu şəkli əsgərlikdə çəkdirib. Elə gülərüz idi ki. Amma tez solan gül oldu balam... Təki Vətən sağ olsun".

Şəhid anası söhbətinə davam edir: "Bir dəfə atasının ayağı ağrıyırdı. Demişdi ki, ata, mən özüm işə girib səni işləməyə qoymayacağam". Cəbhə dostlarına deyib ki, əgər mənə bir şey olarsa, anama çatdırın ki, özünə yaxşı baxsın, anam yaxşı olsa, mən də məzarda rahat ola bilərəm.

Mənzildən çıxanda şəhid qardaşımızın valideynləri ilə qucaqlaşırıq. Rəna ana deyir: "Hiss edirdim, gözlərini saatdan çəkmirdin. Bil ki, Həcisiz dəqiqələr də keçmir, orada yazılana çox da fikir verme".

**Rizvan FİKRƏTOĞLU, "Xalq qəzeti"**

*Türkiyə seçkilər qarşısında*

# Debatlarda Qərbə münasibətdə fərqli mövqelər sərgilənir

**Türkiyə vətəndaşları ölkələrinin tarixində yeni bir eranın başlanğıcını qoya biləcək seçim qarşısındadırlar. Bu il mayın 14-də keçiriləcək ümumi seçkilərin nəticələri qardaş ölkənin daxili və xarici siyasətində böyük dəyişikliklərə yol aça bilər. Dünya bunun fərqindədir və seçkiqabağı kampaniya zamanı gedən gərgin müzakirələri diqqətlə izləyir.**



Məlum olduğu kimi, Türkiyədə bu il prezident seçkilərində dörd siyasətçinin namizədliyi qeydə alınıb. Bunlar hakim Ədalət və İnkişaf Partiyasının (AKP) qurucusu və lideri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan, ana müxalifətin rəhbəri sayılan, Cümhuriyyət Xalq Partiyasının (CHP) başçısı Kamal Kılıçdaroğlu, yeni təsis olunmuş Məmləkət Partiyasının (MP) başqanı Məhərrəm İncə və Millətçi Hərəkat Partiyasının (MHP) rəhbəri Sinan Oğandır.

Rəy sorğularına görə, budəfəki prezident seçkilərində əsas mübarizə 69 yaşlı R.T.Ərdoğan ilə 75 yaşlı K.Kılıçdaroğlu arasında gedəcək. Bununla yanaşı, səsvermənin nəticələrində sürprizlərin olacağı heç də istisna olunmur. Məsələn, mühafizəkar siyasətçi Məhərrəm İncənin cəmiyyətin millətçi kəsiminin səslərinin böyük bir qismini qazana biləcəyi və səs sayına görə CHP liderini üstələyəcəyi mümkün sayılır.

Qeyd etmək lazımdır ki, seçicilərlə görüşlər və ilkin debatlar zamanı bir daha məlum olub ki, prezidentliyə namizədlərin bir çox aktual problemlərin həllinə yanaşmaları fərqlidir. Biz qəzetin ötən sayında namizədlərin suriyalı qaçqınlara münasibətdə fərqli platformalardan çıxış etdikləri barədə söz açmışdıq. Budəfəki yazıda Türkiyənin xarici siyasətində mühüm yer alan Qərbə və Qərb dəyərlərinə münasibət barədə fikrimizi bildirmək istəyirik.

Bu məsələdə AKP lideri R.T.Ərdoğanla rəqibi K.Kılıçdaroğlunun mövqeləri xeyli fərqlənir. İyirmi ildən çox Türkiyənin xarici siyasət kursunu böyük uğurla yönəldən hazırkı dövlət başçısı hesab edir ki, ölkəsinin Avropa İttifaqı (Aİ) ilə əlaqələri bundan sonra da davam etdirilməlidir. Lakin Aİ rəhbərliyi də rəsmi Ankara ilə əlaqələrdə adekvat mövqe sərgiləməlidir.

R.T.Ərdoğanın fikrincə, Aİ bu gün Türkiyə üçün nə qədər vacibdirsə, bir o qədər də Türkiyə Aİ üçün mühüm tərəfdaş kimi qəbul olunmalıdır. Ankara əbədi olaraq Aİ qapısının qarşısında dayanıb onun Ankaraya qarşı nə vaxt ədalətli qərar qəbul edərək üzvlüyünə qəbul etməsini gözləyə bilməz. R.T.Ərdoğan haqlı olaraq Aİ-ni "bir xristian klubu" adlandırır və müsəlman Türkiyəsi ilə imitasiya etdiyini açıq surətdə dilə gətirir.

Bu qətiyyətli və prinsipial mövqe Brüsseldə sözdə demokratik dəyərləri gözə soxan, əməldə isə müsəlman Türkiyəsinə qarşı ayrı-seçkilik edən siyasətçiləri qane etmir. Onlar həqiqəti söyləyə bilmirlər. Həqiqət isə budur ki, "Köhnə və qoca Avropa" 85 milyonluq gənc, çevik, dinamik insan resursları olan Türkiyəni Aİ sıralarına qəbul etmək istəmir. Çünki bu zaman Türkiyə üçün iqtisadi imkanlar daha da genişlənər, qitənin aparıcı dövlətləri olan Fransa və Almaniyadan da zəngin ölkəyə çevrilə bilər.

Digər tərəfdən ABŞ başda olmaqla kollektiv Qərb Türkiyənin NATO-da ikinci böyük hərbi gücə malik olmasını və alyansın cənub cinahını qorumasını göz önünə gətirib Prezident R.T.Ərdoğanın dilindən səslənən "tikanlı sözlərə" dözməli olur. Bunun üçün də Qərb canını çağdaş zəmanəmizin ən xarizmatik və qətiyyətli siyasətçilərindən olan, görkəmli dövlət adamı R.T.Ərdoğandan qurtarmaq istəyir.

CHP lideri K.Kılıçdaroğlu Prezident R.T.Ərdoğandan fərqli olaraq iqtidara gəldiyi təqdirdə ölkəsinin Aİ ilə əlaqələrini daha yüksək müstəviyə yüksəldəcəyini bəyan edir və bu xidmətin qarşısında Brüsselin dəstəyinə arxalanır. Türkiyədə bir çox təhlilçilər bu yanaşmanın Türkiyənin milli maraqlarına cavab vermədiyini düşünürlər.

K.Kılıçdaroğlu unudur ki, 2020-ci illərin əvvəllərində R.T.Ərdoğan da Aİ ilə yaxınlaşmaq üçün cəhdlər etmişdi. Lakin dövlət başçısı tezliklə tərəflər arasında maraqların üst-üstə düşmədiyini hiss edərək Brüsselin üzvlüklə bağlı cəfəng tələblərinə baş qoşmağın mənasız olduğunu anlamışdı.

Böyük ehtimalla, K.Kılıçdaroğlu da prezidentliyi qazansa, Aİ-nin Türkiyə ilə səmimi olmadığını başa düşəcək, təəssüf ki, bu, vaxt itkisindən başqa bir şey olmayacaq. Ankara Bilkənd Universitetinin professoru Əmirulla Məmmədov bildirir ki, bunu birdəfəlik bilmək lazımdır ki, nə Fransa, nə də Almaniya Türkiyənin yüksək inkişaf etmiş, zəngin bir dövlətə çevrilməsini istəyir. Buna görə də Türkiyənin inkişafına qarşı hər cür əngəllər yaratmağa davam edirlər.

Prezidentliyə digər iki namizəd Məmləkət və Millətçi Hərəkat partiyalarının liderləri Məhərrəm İncə və Sinan Oğan isə yaxşı başa düşürlər ki, Aİ hələ uzun illər boyu Türkiyənin Qərbə iqtisadi inteqrasiyasının qarşısını almağa çalışacaq və buna görə də Ankara, ilk növbədə Cənubi Qafqazda Azərbaycan üzərindən Orta Asiyanın türk dövlətləri ilə tarixi birliyini daha da gücləndirməlidir. Onların fikrincə, bu gün artıq Türkiyə dünyanın ən böyük güc mərkəzlərindən birinə çevrilib və qardaş türk ölkələrinin və xalqlarının inkişafı və tərəqqisi üçün lokomotiv rolunu oynamalıdır.

Sinan Oğan seçicilərlə görüşlərində dəfələrlə vurğulayıb ki, güc birlikdədir və türk dövlətləri bir-birinə hərtərəfli dəstək verməlidir. Bunun üçün bu dövlətlər arasında təkcə mədəni, iqtisadi deyil, həm də hərbi əlaqələr gücləndirilməlidir. S.Oğan Türkiyənin qardaş dəstəyilə Azərbaycanın 2020-ci ilin payızında Qarabağda əldə etdiyi parlaq qələbənin Zəngəzur dəhlizinin açılması üçün fürsət yaratdığını vurğulayır və bütün türk dünyasını quru yolla birləşdirəcək bu yolun açılmasının vacib olduğunu vurğulayır. Əslində, Böyük Turanın ortaya çıxaraq möhkəmlənməsi üçün Türkiyənin hazırkı iqtidarı olduqca böyük işlər görmüşdür. Bu mənada bütün türk xalqları böyük siyasətçi R.T.Ərdoğanın yenidən prezident seçilməsini çox arzulayırlar.

Bu yaxınlarda internetdə R.T.Ərdoğanın Daşkənddə necə dərin sevgi, məhəbbətlə qarşılanması mərasimini əks etdirən videoya yenidən nəzər yetirdim. Qürur duydum. Təkcə Azərbaycanda deyil, bütün türk və müsəlman dünyasında sayın R.T.Ərdoğanı çox sevirlər. Belə sonsuz inam və rəğbət qazanmaq çox az siyasətçiyə nəsib olur!

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Atamoğlan MƏMMƏDLİ,**
**Bakı Dövlət Universitetitinin professoru, siyasi icmalçı**

Bu il mayın 14-də Türkiyədə keçiriləcək ümumi seçkilər təkcə qardaş ölkənin deyil, bütün regionun taleyində mühüm rol oynayacaq. Məlum olduğu kimi, hazırda yeni dünya düzəni şəkillənir və Türkiyədəki seçkilərin nəticələrinin bu prosesə böyük təsiri olacağı şübhəsizdir.

Təsadüfi deyil ki, Türkiyədəki seçkiləri 2023-cü il üçün nəzərdə tutulan bütün seçkilərin ən əhəmiyyətlisi hesab edirlər. Kollektiv Qərb Türkiyə ilə hərbi müttəfiq olsa da, bu ölkənin hazırkı lideri, Prezident R.T.Ərdoğanın hakimiyyətdə qalmasını istəmir. Buna səbəb odur ki, nə ABŞ-yə, nə də Avropa İttifaqına (Aİ) müstəqil siyasət həyata keçirən, güclü, qüdrətli Türkiyə sərf edir.

Türkiyədə seçkilərin taleyini, əlbəttə, müdrik türk xalqı müəyyən edəcək. Biz qardaş ölkə olaraq, səsvermənin real nəticələrini qəbul edəcəyik. Eyni zamanda bir vətəndaş olaraq R.T.Ərdoğanın daha beş il hakimiyyət sükanı arxasında qalmasının Türkiyənin özü və bütün türk dövlətləri üçün vacib olduğunu qeyd etməyə bilmərəm.

Bir məqamı da vurğulamaq istərdim. O da budur ki, bu gün Türkiyə böyük bir coğrafi ərazidə, yəni Balkanlardan tutmuş Özbəkistana və Qırğızıstana qədər, Qafqazda, Yaxın Şərqdə, hətta Afrikada böyük nüfuz sahibidir. Türkiyə çağdaş dünyanın "yumşaq güc"lərindən birinə çevrildiyi üçün onun nümunəsi türk və müsəlman dövlətləri və xalqları üçün çox cəlbedicidir. Allah Türkiyəni və türkü qorusun!

# ABŞ-da məxfi sənədləri yayan hərbçi tutulub

**ABŞ-ın Federal Təhqiqat Bürosu Massaçusetsdə Milli Qvardiyanın hərbçisini Pentaqonun məxfi sənədlərinin sızdırılmasında şübhəli bilərək həbs edib. Ədliyyə naziri Merrik Harland bəyan edib ki, 21 yaşlı Cek Teyşeyr milli müdafiə ilə bağlı məxfi informasiyaları yaymaqda şübhəli kimi həbs edilib. Xəbəri "Euronews" verib.**



Məlumata görə, sənədləri yayan kiçik onlayn oyun qrupunun rəhbəri 21 yaşlı Cek Teyşeyr olub. Həbsdən sonra onun evində axtarış aparılıb. Onu 10 il həbs cəzası gözləyir.

Teyşeyr Massaçusetsdə Milli Qvardiyanın kəşfiyyat qanadında xidmət edib. O, silahlara, videooyunlara həvəsi olan təxminən 20-30 nəfərin bir araya gəldiyi "Thug Shaker Central" adlı özəl internet qrupunun kuratoru olub. Qrup üzvləri sızan sənədlərin sırf məlumat xarakteri daşıdığını, onların çoxunun Ukraynadakı münaqişə ilə bağlı olduğunu qeyd ediblər.

Pentaqonun sözçüsü Patrik Rayder bildirib ki, məxfi sənədlərin sızması qəsdən törədilmiş cinayətdir: "Vurğulamaq istəyirəm ki, bu, mövcud prosedurların pozulması ilə qəsdən törədilmiş cinayət əməlidir".

Ukrayna Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov isə deyib ki, məxfi sənədlərin geniş miqyasda sızmasından yalnız Rusiya qazanır. "Araşdırmadan sonra biz yekun cavabı alacağıq. Bizim ABŞ-ın müvafiq xidmətləri ilə əlaqələrimiz var. İlk saatlardan danışıqlara başladıq. Ukrayna-ABŞ münasibətlərinə xələl gətirəcək heç bir risk yoxdur. Məlumat sızması müharibənin gedişatına böyük təsir göstərə bilməz. Problem varsa, həll ediləcək. Problem yoxdursa, daha yaxşı... Bu, hücum əməliyyatlarının real nəticələrinə təsir edə bilməz. Yaxın gələcəkdə əks-hücumun nəticələrini hamı görəcək və hiss edəcək".

Xatırladaq ki, sızmış sənədlərdən ABŞ-ın BMT-nin Baş katibi Antonio Quterreşi də izlədiyi məlum olub. Sənədlərdən görünür ki, baş katib taxıl sövdələşməsini qoruyub saxlamaq üçün Rusiyanın maraqlarını nəzərə alıb və Avropa Komissiyasının başçısı Ursula fon der Lyayenin Ukrayna üçün çoxlu silah istehsal etmək zərurəti ilə bağlı çağırışını başa düşmədiyini bildirib.

ABŞ-ın fikrincə, bu addımlar Ukraynadakı hərəkətlərinə görə Rusiyanın məsuliyyətə cəlb edilməsi ilə bağlı səyləri pozub.

***"Xalq qəzeti"***

**Fransa prezidenti Emmanuel Makron Çinə səfərdən qayıtdıqdan sonra verdiyi bir sıra bəyanatlar avropalı siyasilər tərəfindən ciddi narazılıqla qarşılanıb. Hələ də bəzi ölkələrdə Makronun fikirləri tənqid atəşinə tutulmaqdadır. Xüsusilə onun nüvə silahının sahib ölkələrin ərazisindən kənar ölkələrdə yerləşdirilməsinin yolverilməzliyi (bu fikirlər Rusiyaya ünvanlanmış olsa da, əslində ABŞ-a da toxunur) və Avropanın ABŞ-dan asılılığı barədəki fikirləri kəskin reaksiya doğurub.**

# Makron Avropada böyük təcrid qarşısında

## Fransa hökuməti isə ölkədə pensiya islahatları ilə bağlı "gərginliyi azaltmaq" qərarına gələrək geri çəkilir



Makron Çin səfərindən sonra "Les Echos" qəzetinə müsahibəsində Avropanın müstəqil siyasət yürütməli olduğunu demişdi: "Avropa son illərdə ABŞ-dan çox asılı vəziyyətə düşüb, lakin o strateji muxtariyyətini gücləndirməlidir..." Makronun Avropanın ABŞ-dan strateji müstəqillik qazanması və Tayvan böhranına qarışmamasının vacibliyi barədəki sözləri Avropada süngü ilə qarşılanıb. Dünən Almaniya parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Maykl Rot Fransa prezidentinin bu fikirlərin bədəlini ağır ödəyəcəyini bildirib.

Rot birmənalı şəkildə bəyan edib ki, Makronun açıqlaması ilə razılaşmır. Çünki onun ABŞ-a qarşı səsləndirdiyi ittihamların heç bir əsası yoxdur: "Bu, çox narahatedicidir. Makron bunun bədəlini ağır ödəyəcək. Bəyanatları ilə birlik və komanda ruhunun lazım olduğu bir vaxtda Avropanı parçalamaqla hədələyir. Bu, əlbəttə, beynəlxalq tərəfdaşlarımızı qıcıqlandırır".

Rotun sözlərinə görə, Vaşinqton da Makronun fikirlərindən narazı qalıb. Belə ki, onun iddiaları vahid Avropanın təməllərinin sarsıdılmasına yönəlib. Xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələrində Makrona qarşı böyük reaksiya yaranıb. Çünki bu ölkələr təhlükəsizliklərinin təminatı məsələsində Almaniya və Fransadan çox ABŞ-a güvənirlər. Amma Makronun ritorikası bu ölkələri Avropa İttifaqından siyasi cəhətcə uzaqlaşdırmağa xidmət edir.

Qeyd edək ki, bir qədər əvvəl Almaniyanın müdafiə naziri Boris Pistorius da Fransa prezidentini tənqid etmiş, Avropanın ABŞ-ın subyekti olması iddiasını "uğursuz tapıntı" adlandırmışdı.

Ümumiyyətlə, Makronun son illərdə həyata keçirdiyi siyasət, demək olar ki, bütün istiqamətlərdə uğursuzluqla nəticələnir. Onun bir neçə aydan bəri geniş etirazlara səbəb olmuş pensiya islahatları ilə bağlı hazırladığı qanun layihəsi də bu sıradandır. Dünən Fransanın Moskvadakı səfirliyinə içərisində sümüklər olan bağlama göndərilməsi də, şübhəsiz ki, Makronun siyasətinə etiraz əlaməti hesab edilməlidir. Kiçik heyvan və ya quşa aid olan sümüklərin nə məqsədlə göndərildiyi məlum olmasa da, hər halda, Fransaya qarşı mesaj olduğu birmənalıdır.

Ölkədəki pensiya islahatları ilə bağlı geniş kütlələri əhatə edən aksiyalar isə daha böyük söhbətin mövzusudur. Maraqlıdır ki, Fransada pensiya islahatına qarşı etiraz edən nümayişçilər mübarizədən əl çəkmək fikrində deyillər və bu mübarizədə ölkənin həmkarlar təşkilatları da onlarla birgədir. Nümayişçilər hər dəfə toplaşanda növbəti aksiyanın anonsunu verməyi və bu barədə Makron hökumətini xəbərdar etməyi də unutmurlar. Yəni mübarizə davam edəcək...

Aprelin 13-də ölkənin 300-dən çox şəhər və qəsəbəsində keçirilmiş aksiyalar da kifayət qədər kütləvi oldu. Bu, sayca 12-ci aksiya idi. Etirazlara əsasən təhsil, nəqliyyat və energetika işçiləri qoşulublar. Həmkarlar ittifaqları 1,5 milyon, Daxili İşlər Nazirliyi isə 380 min etirazçının nümayişlərdə iştirak etdiyini bildirib.

Paytaxt Parisdə isə, Həmkarlar İttifaqlarının məlumatına görə, 400 min insanın, polisin məlumatına görə isə, 42 min etirazçının nümayiş keçirdiyi bildirilib. Nümayişçilər Opera meydanından Bastiliya meydanına doğru irəliləyiblər. Konstitusiya Məhkəməsinin binası qarşısına toplaşan nümayişçilər qurumun pensiya islahatlarının taleyinə aydınlıq gətirəcəyini gözləyiblər. Lakin cavab almayan kütlə binanın önünə zibil qalaqları töküblər. Konstitusiya Məhkəməsi özünün qərarını aprelin 14-də elan edəcəyini bildirib.

Etirazçılar isə hökumətin pensiya sahəsindəki dəyişikləri ləğv etməsi tələbini səsləndiriblər. Hökumətin rəsmi nümayəndəsi Olivye Veran bildirib ki, Fransa hökuməti ölkədə gərginliyi azaltmaq istəyir. Görünür, Makron "iki ayağını bir başmağa soxub" inadlaşmaqdan çəkinmək qərarına gəlib.

Daxili işlər naziri Jerald Dermanen Parisin polis departamentinə aprelin 15-nə qədər Konstitusiya Məhkəməsinin qarşısında nümayişə toplaşmağın qadağan edilməsi barədə göstəriş verib. Ərazidə toplaşanlar polis tərəfindən dağıdılıb, 2240 nəfər yoxlanılıb. Onlarca nümayişçi polis tərəfindən saxlanılaraq dindirilib. Toqquşmalar nəticəsində nümayişçilər və polislər arasında yaralananlar olub.

Bordo, Lion, Renn kimi şəhərlərdə də nümayişçilərlə polis arasında toqquşma qeydə alınıb. Məlumata görə, Lionda "Actu Lyon" saytının jurnalisti yaralanıb.

Həmkarlar İttifaqları may ayında daha böyük etiraz aksiyasının keçiriləcəyi barədə xəbərdarlıq edib.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Tural İSMAYILOV,**
**Politoloq**

Fransada Emmanuel Makron hakimiyyətə gəldikdən sonra ölkənin bütün siyasi münasibətlər sistemi ancaq dağıdıcılığa və xaosa köklənib. Ümumiyyətlə, Makronun hakimiyyəti Fransa tarixinin bəlkə də ən pis siyasi dövrü kimi xarakterizə edilə bilər. Bu, təkcə Fransanın xarici siyasət məsələləri ilə bağlı deyil, eyni zamanda, daxili siyasətlə bağlı da çox ciddi problemlər mövcuddur.

Emmanuel Makronun birmənalı olaraq Ermənistanı dəstəkləyən siyasət həyata keçirməsi, Avropa İttifaqı daxilində bölücü funksiya icra etməsi ittifaqın parçalanmasına səbəb olur. Böyük Britaniyanın "Brexit" qərarı verməsindən sonra Makronun açıq şəkildə Londona qarşı demarş siyasəti yürütməsi, Çin səfərindən sonra Tayvan mövzusunda ABŞ-a qarşı açıq demarş etməsi, eləcə də Vaşinqtonu Avropanın işlərinə qarışmaqda ittiham etməsi Avropa-ABŞ münasibətləri baxımından da vəziyyətin gərginləşməsinə səbəb olur. Bu gərginliyi yaradan da, heç şübhəsiz, Makronun həyata keçirdiyi siyasətdir.

Eyni zamanda, Fransanın daxili siyasətində atılan yanlış addımlar, xüsusilə pensiya islahatları adını almış qanun layihəsi xalqın kütləvi etirazlarına səbəb olub. Bu gün Makron xalqın səsini eşidərək, islahatlar həyata keçirmək əvəzinə, daha da dağıdıcı və xaotik addımlar atır. Bu, isə ölkədə vəziyyətin daha da gərginləşməsinə səbəb olur.

Ümumiyyətlə, Makron hər zaman aldığı siyasi qərarlarda sabitlikdən kənar addımları ilə tanınıb. Bu isə onun idarəetmə sistemindəki naşılığı və qeyri-peşəkarlığı ilə bağlıdır. Eyni zamanda, Fransa tarixinin bir çox dövrlərində irqçilik və radikal siyasəti üzündən problemlərlə qarşılaşanda hər zaman geriyə addımlar atıb. Bu da həm Fransanın tarixi missiyası və siyasəti, həm də Makronun özünün şəxsi keyfiyyətsizlikləri baxımından labüd və adi bir prosesdir.

# “Azərbaycanda MINEPS VII beynəlxalq konfransı ən yüksək səviyyədə keçiriləcək”

**İyunun 26-dan 29-dək Bakıda Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı (MINEPS VII) keçiriləcək. Azərbaycanın gənclər və idman nazirinin müavini Fərhad Hacıyev konfransın əhəmiyyəti, ölkəmizin bu mühüm tədbirə evsahibliyi və hazırlıq məsələləri ilə bağlı “Xalq qəzeti”nə müsahibə verib.**



**– Fərhad müəllim, bu konfransın məqsəd və vəzifələri nədən ibarətdir?**

– Bədən tərbiyəsi və idman sahəsində intellektual və texniki mübadiləni asanlaşdıran beynəlxalq konfrans 1976-cı ildən keçirilir. O, idman sahəsində hökumətlərarası təşkilatlar, idman hərəkatları, ixtisaslaşmış QHT-lər və idman mütəxəssislərini bir araya toplayan qlobal platformalardan biridir və dünyada bədən tərbiyəsi və idman sahəsinə töhfə verən ən nüfuzlu tədbirlərdən hesab olunur. Konfransa 4 ildən bir seçki vasitəsi ilə üzv ölkələrdən biri evsahibliyi edir.

Konfransın əsas məqsədi idman sahəsində beynəlxalq tendensiyaların qiymətləndirilməsi, bu sahədə beynəlxalq strategiyalar üçün mexanizmlərin hazırlanmasıdır. Bu da gələcəkdə idman siyasətinin reallaşmasında məsul dövlət orqanları və idman təşkilatları üçün əsas istiqamət olacaq.

**– Beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından tədbirin rolunu necə qiymətləndirirsiniz?**

– Konfransda müzakirə edilən çox mühüm məsələlərin nəticələri və tövsiyələri dünyada bədən tərbiyəsi və idmanın təhsil, mədəni və sosial sahələrinin inkişafına xidmət edir. Konfransda UNESCO-ya üzv 196 ölkənin bədən tərbiyəsi və idman sahəsinə məsul rəhbər şəxslərinin və nazirlərinin, həmçinin dövlət, beynəlxalq, qeyri-hökumət və elmi idman təşkilatlarının nümayəndələrinin və ekspertlərinin iştirakı gözlənilir.

Azərbaycan artıq bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbir də beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. UNESCO tərəfindən idman da daxil olmaqla, müxtəlif istiqamətlərdə həyata keçirilən və idman sahəsində mövcud olan mənfi halların qarşısının alınması məqsədilə əməkdaşlıq etməyə yönəldilmiş tədbirlərin təşkili vacib məsələlər kimi diqqət mərkəzindədir.

**– Ölkəmiz evsahibliyi ilə konfransın işinə hansı töhfələr verəcək?**

– Şübhəsiz, bu nüfuzlu idman tədbirinə evsahibliyi qərarı verilərkən ölkəmizin, ilk növbədə, qlobal beynəlxalq tədbirlərin keçirilməsi sahəsində formalaşmış uğurlu təcrübəsi, mötəbər yarışlara ev sahibliyi etmək üçün zəruri siyasi sabitliyə, iqtisadi potensiala malik olması nəzərə alınıb. Digər tərəfdən Bakının müasir şəhər infrastrukturu, gözəl təbiəti və turizm imkanları yüksək qiymətləndirilir. Ən əsas məsələlərdən biri isə Azərbaycanda tarixən müxtəlif etnosların dinc yanaşı yaşamaq təcrübəsi, xalqımızın yüksək dini, milli tolerantlıq səviyyəsi, həmçinin qonaqpərvərliyi, zəngin mədəni irsi müasir dünyamız üçün gözəl nümunədir.

**– Tədbirə hazırlıqla bağlı hansı işlər görülür?**

– Mötəbər tədbirin yüksək səviyyədə təşkili üçün Azərbaycan Prezidenti İlham Əliyev martın 11-də “Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransının (MINEPS VII) 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Sərəncam imzalayıb.

Hazırlıqla bağlı aprelin 12-də Təşkilat Komitəsinin ilk iclası keçirilib. İclasda MINEPS VII konfransına hazırlıq işləri barədə təqdimat dinlənilib və Təşkilat Komitəsinin üzvü olan aidiyyəti qurumların təmsilçiləri ilə müzakirələr aparılıb. Təşkilat Komitəsinin nəzdində işçi qrup fəaliyyət göstərir. Tədbirin yüksək səviyyədə təşkili üçün bütün məsələlər müvafiq sahələrə məsul qurumlarla koordinasiya olunur. Əminik ki, Azərbaycanda MINEPS VII beynəlxalq konfransı da digər mötəbər tədbirlər kimi ən yüksək səviyyədə keçiriləcək.

Onu da qeyd edim ki, ötən ay Parisdə UNESCO-nun qərargahında yüzə qədər ölkənin iştirakı ilə MINEPS VII-nin ilk təqdimatı baş tutub.

**– Nüfuzlu tədbirin ölkəmiz üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin varisi və onun uğurlu davamçısı ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan beynəlxalq müstəvidə ən güclü ölkələrdən biri kimi tanınır. Konfrans mahiyyətcə Azərbaycanın malik olduğu idman potensialının, siyasi və iqtisadi qüdrətinin, zəngin mədəniyyətinin beynəlxalq səviyyədə təbliğinə xidmət etməklə yanaşı, ölkəmizin mədəniyyət və sivilizasiyaların qovşağındakı unikal coğrafi mövqeyini, mədəni və etnik rəngarəngliyini bütün dünyaya nümayiş etdirəcək. UNESCO-nun MINEPS konfransının ölkəmizdə keçirilməsi olduqca məsuliyyətli bir məsələdir. Bütün dünyanı əhatə edən komitə üzvlərinin ölkəmizin belə nüfuzlu bir tədbirə ev sahibliyi etməsinə səs verməsi, ilk növbədə, Azərbaycanın dünyada artan nüfuzuna müsbət təsir edəcək. Mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafına da təkan verəcək.

Tədbirdə iştirak edəcək nümayəndələrin hər biri öz ölkələrinin yüksək səviyyəli dövlət məmurları və idman sahəsinin ən ciddi mütəxəssisləridir. Bu tədbir təkcə Azərbaycan üçün deyil, həm də dünya ölkələri üçün vacib hesab olunur. 190-dən çox ölkənin nümayəndələrinin iştirak edəcəyi tədbir dünya mətbuatında geniş işıqlandırılacaq. Bu baxımdan konfransı ermənilərin işğal etdiyi ərazilərimizdə dağıtdıqları nadir mədəniyyət abidələrinin, idman obyektlərinin bərpası ilə bağlı görülən işlər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün çox yaxşı fürsət hesab edirik.

***Müsahibəni apardı,***
***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

*Replika*

# Bir meydanın ərzi-halı

**Ötən ay elə bir telekanal, elə bir xəbər saytı qalmamışdı ki, siqaret kötüyünü yerə atanların inzibati məsuliyyətindən bəhs etməsin. Hətta Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin əməkdaşı bildirmişdi ki, polis Bakıda prosesə nəzarəti gücləndirib.**



...Səhər işə gələndə adətim üzrə “28 May” metrostansiyasının qarşısındakı meydanda dahi dramaturq Cəfər Cabbarlının uca abidəsinə salam verib keçirdim ki, sanki sözlü adama oxşadığını görüb dayandım. Xəyali dialoqumuz başlandı. –

-“Neçə ildir ki, burda əliqoynunda durmuşam. Baxıram, küləkli havada yerə tüpürən kim, çəkdiyi siqaretin kötüyünü hara gəldi, atan kim... Mat qalmışam ki, canım, əgər zibil qabları varsa, niyə ora atmırlar?”

-“Axı, "Azərbaycanda "Tütün və ya tütün məmulatı haqqında" Qanuna əsasən, küçəyə siqaret kötüyü atmaq inzibati məsuliyyət yaradır. Bunu edən şəxs 50 manat cərimə edilir. Bu məsələ İnzibati Xətalar Məcəlləsində də öz əksini tapıb. Polis də nəzarəti gücləndirib. Bir də ki, gərək camaat özü şəhərin, xüsusilə də xarici qonaqların gəlib-getdiyi yerlərin təmizliyi qayğısına qalsın. Yoxsa, təkcə xadimələr – “Vəfalı Səriyyə”lər bunun öhdəsindən bilmərrə gələ bilməzlər.

Cəfər Cabbarlı başını buladı: “Nəzarət-zad güclənməyib, camaat da özünü heç o yerə qoymur”.

Doğru sözə nə deyəsiydim? Ətrafa nəzər saldım. “28 May” metrostansiyasından çıxan, dəmiryol vağzalına gedib-gələn sərnişinlərin arasında, doğrudan da, siqaret çəkənlər vardı və bəziləri siqaretin kötüyünü yerə atmaqdan çəkinmirdi. Halbuki, burada hər beş-on metrdən bir zibil qabı var. Natəmiz mənzərə – tullantı bolluğu həm də o üzdən yaranır ki, meydana başdan-başa plitələr döşənib, küləksə atılan siqaret kötüklərini qabağına qatıb sovura-sovura həmin plitələrin ara-bərəsinə doldurur. Asfalt çatları da, ağacların dibləri də eynilə o haldadır. Hələ bu tullantıların ağacların inkişafına, ekologiyaya necə ciddi ziyan vurduğunu demirik.

İndi ya gərək o plitələr sökülüb çıxarıla, asfaltlar yamana, ağacların ətrafına hündür çəpərlər çəkilə ki, bütün bunlar da çoxlu xərc və vaxt tələb edir. Fikrimizcə, yenidən velosiped kəşf etməyə ehtiyac yoxdur. Salamatı budur ki, paytaxtın sakinləri və qonaqlar xüsusi ayrılmış yerlərdə siqaretlərini çəkib, kötüklərini zibil qablarına atsınlar.

İstanbullu dostum demişkən: bu qədər bəsit!

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

*Yaddaşlarda yaşayanlar*

# İslam Səfərlinin 100 illiyindən də yazdım, Hidayət müəllim…

**Hidayət Səfərlinin səsini efirdən çox eşitsəm də, özünü ilk dəfə 1973-cü ilin payızında məhz kəndimizdə – Mirzəbəylidə görmüşdüm. Dostu İlyas Adıgözəlli ilə birlikdə Dövlət radiosunun göndərişi ilə Qutqaşen (indiki Qəbələ) Rayon Komsomol Komitəsinə gəlmiş, oradan isə məsləhət bilmişdilər ki, rayonun qabaqcıl gənclərindən olan mexanizator İttifaq Qaçayevlə də görüşüb söhbət etsinlər. Gəlib görüşdülər.**





Veriliş efirə gedəndə “kaş mən də o radioda işləyə biləydim” – deyə Allaha nə qədər yalvarmışdımsa, onu ancaq Allah bilir. Həmin günlər atam “A bala, orada ali təhsili olanlar işləyir, sən kəndin kolxozçususan, orada necə işləyə bilərsən?”, – deyə məni göylərdən yerə endirməyə çalışır, anam isə “Hər şey Allahın əlindədir!” – deyə ümidimi ölməyə qoymurdu.

… Sonralar mən ali təhsil də aldım, Dövlət radiosunda da işlədim. Hələ, üstəlik, cəmi iki-üç il orada çalışandan sonra “ Son xəbərlər” kimi mühüm şöbənin müdiri təyin olundum. Ən böyük qazancım isə Mövlud Süleymanlı, Mailə Muradxanlı, Şamil Məcidov, İlyas Adıgözəlli, Hidayət Səfərli, Telli Pənahqızı, Fərhad Zeynalov, Heydər Zeynaloğlu, Qaçay Köçərli, Yasin Qaraməmmədli, Telman Qarayev, Şəfəq Əlixanlı, Akif Cabbarlı, Tahir Talıblı, Kələntər Kələntərli, Əhməd Həpo, Şəmşad Rza, Zərxanım Əhmədli, Qulu Kəngərli kimi tanınmış qələm sahibləri ilə çiyin-çiyinə çalışmağım oldu.

Etiraf edim ki, bu adamların hamısının xoş münasibətini görsəm də, İlyas Adıgözəllinin səmimiyyətini, Heydər Zeynaloğlunun sadəliyini, Hidayət Səfərlinin isə nikbinliyini, şən əhval-ruhiyyəsini heç zaman unuda bilməyəcəm. Hidayət müəllim, sözün həqiqi mənasında, nikbinlik nümunəsi idi. Teleşirkətdə (o zaman belə adlanırdı) elə bir adam olmazdı ki, Hidayət Səfərli ona zarafat eləməsin. Hamı onun zarafatını məmnunluq və təbəssümlə qəbul edirdi.

O, fevralın 5-də dünyaya gəlmişdi, mən isə həmin ayın 10-da. Ona görə də mənə gah “Qutqaşınlı”, gah da “Dolça” deyirdi. Bir dəfə dedi ki, ey Dolça, mənim lentimi efirə verməyi unutma: “Mən həm ana tərəfdən, həm də ata tərəfdən xan nəvəsiyəm. Sözüm yerə düşməməlidir”. Sonralar danışırdı ki, anası Hökümə xanım məşhur Ordubad xanı Mirzə Mehdiqulu xanın qızıdır. Atası isə Naxçıvanın tanınmış xanı olan Səfər xanın oğludur. Deyirdi ki, şəcərəmiz Nəsirəddin Tusi nəslinə aiddir. “Bütün bunları nəzərə alaraq”, onun hazırladığı lent yazılarını öz verilişimdə təqdim edirdim.

Bir dəfə dedi ki, Qutqaşınlı, İslamın (qardaşı, mərhum şair İslam Səfərlini nəzərdə tuturdu) 70 yaşı tamam olur. Onun haqqında elə bir yazı hazırla ki, orada oxucu İslamı olduğu kimi görsün. Dedim, axı, mən İslam Səfərlini görməmişdim, tanımırdım. Bəlkə də iki saat qardaşı haqqında danışdı. Üzeyir Hacıbəyovun və Səməd Vurğunun İslam Səfərliyə qayğısından, şairin Azərbaycan təbiətinə vurğunluğundan... çox şeydən danışdı.

Yazını hazırladım. “Yol gedirəm, əldə qələm, dizdə varaq...” adlı məqalə “Dalğa” qəzetinin 16 fevral 1993-cü il tarixli sayında verildi... və həmin yazı ilə də mənim “İslamşünaslığım” başlandı. Yəni Hidayət müəllim hər il məndən xahiş edirdi ki, “o qələmi yenə də işə sal!”

... Bir dəfə dedi: “Qutqaşınlı, İslamın yüz yaşınadək mən öləcəm. Sən isə ölənə oxşamırsan. Onun yüzilliyində yenə də yazarsan”. Yaxşı dedim. Amma həmin yüzilliyin bu ilin fevralında olduğunu unutdum. Ona görə də bu sətirləri “Yol gedirəm, əldə qələm, dizdə varaq...” adlı məqaləmin girişi ilə tamamlayıram. Bəlkə də kimsə bir yazının girişinin başqa yazının sonunda verilməsini qəribə qarşılaya bilər. Hər halda, hər ikisi özümündür. Təkrardan incimərəm:

– Göydən bir ulduz uçdu, baba.

– Demə, onu görəndə danışmazlar, oğlum.

– Danışanda nə olur ki?

– Göydə hərənin bir ulduzu var. Hər ulduz uçanda...

– Hə, de, nə olur baba!

– Yaxşı olar qabağa baxasan, qaranlıqdır.

– Qaranlıq olsa da, yol ağarır, baba. Döyənəkdir. Adam rahat gedir.

– Yox, oğlum. Döyənək yol rahat olsa da, xoşlama. Hərənin öz yolu olmalıdır. Öz ulduzu kimi...

... Hidayət müəllim danışırdı ki, Səməd Vurğun “mənim qara İslamım” dediyi gənc şairin “öz yolu” olduğunu dəfələrlə təkrar eləmişdi: “İslam ailə quranda Səməd Vurğunu da öz toyuna dəvət edir. Böyük şair təəssüf edir ki, iki saatdan sonra Moskvaya uçacaq və kağız-qələm götürüb nə isə yazır. İslam elə bilir ki, şair onun toyuna təbrik şeiri yazır. Amma həmin vərəqdə başqa şey yazılmışdı: “...jurnalının redaksiyasına. “Ceyran” şeirinə görə mənə çatacaq qonorarı şair İslam Səfərliyə verməyinizi xahiş edirəm!”

... Mən ölmədim, Hidayət Səfərli! Sənin qardaşının yüzilliyinə də “nə isə” yazdım. Allah hər ikinizə rəhmət eləsin!

***İ.MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”,***
***Əməkdar jurnalist***



**Elə ki, yaz gəldi, Gəncənin yol kənarları da gül-çiçəyə bürünür, şəhər ərazisinə mövsümi güllərin əkini başlanır…**

# “Yollarına gül düzüm…”

## *kiçik fotoreportaj*

Şəhərin Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin yaşıllaşdırma şöbəsi tərəfindən Müseyib Bağırov küçəsindəki körpüdə, hər iki tərəf və mərkəzi ərazilərinə əkilmiş mövsümi güllərə baxırıq. Biri digərindən gözəldir, cəlbedicidir… Şöbənin rəhbəri Elmar Əzizov da həmişəki kimi ərazidədir, iş prosesinə özü nəzarət edir.

– Baxın, bu, petunyadır, bu isə delfiniumdur, o kənarlardakı hanna sortudur, hamısını özümüz yetişdirmişik,– deyir.

Qeyd edək ki, bura gəlməzdən əvvəl şöbə işçiləri tərəfindən Heydər Əliyev meydanındakı və Cavadxan küçəsindəki güldanlara primula, kalseolyariya, sxizantus və marqarita güllərinin əkilməsini müşahidə etmişdik.





Bilirsiniz nə maraqlıdır? Gül-çiçəklərdən daha çox bu sahə işçilərinin hərəkətlərini izləmək. Çiçəklərin başına elə dolanırlar ki, sanki ana səhər tezdən övladını məktəbə yola salır, saçlarına sığal çəkir, ehmalca toxunur…

… Həmin gün qeyd etdiyimiz ərazilərdə mövcud yaşıllıqlara, güllərə və dekorativ kol bitkilərinə aqrotexniki qulluq göstərildi, suvarılması təmin olundu.

Bəli, Gəncənin park və xiyabanlarına, küçə və prospektlərinə, yaşayış məntəqələrinə gül əkini aksiyası davam etdirilir. Bir daha xatirladaq ki, gül və dekorativ kollar MKTİB-nin yaşıllaşdırma şöbəsinin istixanalarında yerli mütəxəssislər tərəfindən yetişdirilir.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***

*Azərbaycan kinosu – 125*

# Milli kinomuz xalqımızın qiymətli mənəvi sərvətidir



**"Xalq qəzeti" redaksiyasında keçirilən növbəti "dəyirmi masa" görüşü Azərbaycan kinematoqrafiyasının 125 illik və ölkənin aparıcı kino müəssisəsi "Azərbaycanfilm" studiyasının 100 illik yubileylərinə həsr edildi. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı rəhbərliyinin iştirakı ilə aparılan müzakirədə milli kinomuzun 2 əlamətdar yubileyinə hazırlıq, ötən dövrdə ekran yaradıcılığı sahəsində əldə edilmiş uğurlar, müstəqillik dövründə kino sənətinin üzləşdiyi çətinliklər və qarşıda duran hədəflər diqqət mərkəzində oldu.**



Qonaqları salamlayan "Xalq qəzeti"-nin baş redaktoru Əflatun Amaşov ölkənin tanınmış kino xadimlərini əlamətdar yubiley münasibətilə təbrik etdi, kino yaradıcılığının, xüsusən Azərbaycan kinematoqrafiyasının uğurlarının qəzetin səhifələrində daimi mövzulardan olduğunu bildirdi. Redaksiya rəhbəri bildirdi ki, kino mövzusu, sahənin problemləri, qarşıda duran vəzifələr bundan sonra da kollektivin həssaslıqla yanaşacağı mövzulardan olacaq. Bugünkü "dəyirmi masa" müzakirəsinin hədəfi isə milli kinematoqrafiyanın yubileyləri çərçivəsində ölkənin kino həyatının aktual mövzularının gündəmə gətirilməsi, uğur və problemlərin mediada işıqlandırılması ilə bağlı peşəkarlıq məsələləridir.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədovanın bu günlərdə keçiriləcək Kino Forumuna son hazırlıqla bağlı müzakirədə iştirak edə bilmədiyini söyləyən qurumun icraçı katibi, Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Qulyev milli kinomuzun ötən müddətdə keçdiyi məhsuldar və peşəkar yoldan, dünya kinematoqrafiyasına töhfəsindən söz açdı. O, ulu öndər Heydər Əliyevin milli kinomuzun inkişafına göstərdiyi müstəsna diqqət və qayğı sayəsində ölkəmizdə kino incəsənətinin öyünclü nailiyyətlər əldə etdiyini vurğuladı.

Tanınmış kinorejissorlar, ittifaqın katibləri – Xalq artistləri Oqtay Mirqasımov, Vaqif Mustafayev və Əməkdar incəsənət xadimi Ayaz Salayev milli kinomuzun 125 illik inkişaf tarixinin diqqətçəkən fakt və hadisələrindən, son bir əsrdə "Azərbaycanfilm" studiyasının kinematoqrafiyamıza gətirdiyi şöhrət və yeniliklərdən danışdılar. Tanınmış kino jurnalisti, Azərbaycan kinematoqrafiyasının salnaməsini yaratmış Əməkdar incəsənət xadimi Aydın Kazımzadə milli kinonun tarixinin parlaq səhifələri ilə yanaşı, çağdaş çətinlikləri, inkişaf meyilləri barədə mülahizələrini açıqladı.

Davam edən işgüzar diskussiyada fundamental kino yaradıcılığınının dəstəklənməsində dövlət himayəsinin zəruriliyi vurğulandı, həvəskar studiyaların milli mentalitetimizə uyğun gəlməyən aşağı səviyyəli, gerçəkliyi əks etdirməyən şou və biznes səciyyəli fəaliyyətinin xaricdə ölkəmizin imicinə mənfi təsir göstərməsindən narahatlıqla söz açıldı. Kino xadimləri bu sahədə baş verən proseslərin xalqa çatdırılmasında, milli kinematoqrafiyamızın fəaliyyəti barədə sağlam və faydalı ictimai rəyin formalaşdırılmasında medianın təsirli rolu da məmnunluqla qeyd olıundu.

**("Dəyirmi masa"dan geniş material növbəti saylarımızda təqdim olunacaq)**

**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**


## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

### Fəlsəfə doktoru hazırlığı ilə əlaqədar 2023-cü il üçün aşağıdakı ixtisas üzrə dissertanturaya (büdcə hesabına)

## QƏBUL ELAN EDİR

3305.03–"İnşaat konstruksiyaları, bina və qurğular" -1 yer.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul üçün aşağıdakı sənədlər instituta təqdim edilməlidir:

- elmi müəssisənin rəhbərinin adına ərizə;
- kadrların şəxsi qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;

Fəlsəfə doktoru proqramları üzrə dissertanturaya sənədlərin qəbulu 2023-cü il aprelin 5-dən mayın 5-dək keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər əlavə məlumatı institutun Elmi-texniki informasiyalar və doktorantura şöbəsindən ala bilərlər.

Əlaqə telefonu- 012 - 496 – 37- 60 (215).

Ünvan- Bakı, Füzuli küçəsi 65.

## "Sumqayıt Tikiş" ASC səhmdarlarının nəzərinə!

30 may 2023-cü il saat 13.00-da "Sumqayıt Tikiş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2021–2022-ci illərə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. Təsisçi Cəfərov Samir Dönməz oğluna məxsus səhmlərin satılmasına səhmdarların münasibəti .
3. Təşkilati məsələ: ASC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə aid materiallarla tanışlıq üçün iş günlərində ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Nəzərinizə çatdırırıq ki, ASC uzun müddət fəaliyyət göstərməmiş və hazırda da fəaliyyət göstərmir. Bu barədə keçmiş Vergilər Nazirliyinin müvafiq rəsmi sənədi vardır.

Ünvan – Sumqayıt şəhəri, 24-cü məhəllə, 38-ci keçid, ASC-nin inzibati binası.

***İdarə heyəti***

**Təkrar**

## "Azərenerji" ASC

### 6/10/35/110 kv-luq xətlərdə elektrik enerjisinin ötürülməsi, qəbul olunması, çevrilməsi və paylanılması, müxtəlif malların satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56; e-mail: araz.mammadzada@azerenerji.gov.az

Hesab- AZ35AIIB33020019441024659102
VÖEN - 9900000421
Bank- "Kapital Bank" ASC Mərkəz filialı
Kod- 200026
VÖEN- 9900003611
M/H- AZ37NABZ01350100000000001944
S.W.İ.F.T: AIIBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;
- İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının analoji satınalmalarda təcrübəsi haqqında məlumat;
- iddiaçının son 2 (iki) illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;
- müvafiq sertifikatlar və lisenziyalar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2023-cü il saat 15.00-a qədər, bank təminatını və tender təklifini isə 24 may 2023-cü il, saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına "Azərenerji" ASC-nin ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 25 may 2023-cü il saat 15.00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**Təkrar**

## "Azərenerji" ASC

### Elektrik stansiyalarında istifadə olunacaq müxtəlif energetik yağların satın alınması (elektrik stansiyalarının mühərriklərində mövcud olan energetik yağlara istehsalçının tələbinə və avadanlıqların istismar qaydalarına uyğun olaraq eyni markalı yağların əlavə edilməsi və yenilərinin tədarük olunması) üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs- Azad Məmmədov, telefon- 598-26-96, 490-09-27; e-mail: azad.mammadov@azerenerji.gov.az).

İştirak haqqı heç bir halda geri qaytarılmır.

H/h- AZ35AIIB33020019441024659102
VÖEN-9900000421
Bank - "Kapital Bank" ASC-nin Mərkəz filialı
Kod - 200026
VÖEN - 9900003611
M/h - AZ37NABZ01350100000000001944
S.W.İ.F.T: AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının ən azı 3 il energetik yağların satışı üzrə təcrübəyə malik olmasına aid təsdiqedici sənədlərin, eləcə də, energetik yağların satışı üzrə müqavilələrin ümumi dəyəri 800 000 (səkkiz yüz min manat) AZN-dən yuxarı olması barədə təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, akt, qaimə, forma 2 və forma 3) təqdim olunması;
- təklif olunan qaz-mühərrik yağları üçün material təhlükəsizliyi məlumat bazası (MSDS), texniki məlumat bazası (TDS) və uyğunluq sertifikatı tələb olunur. Bütün yağların uyğunluq sertifikatlarını təqdim etməyən iddiaçıların tender təklifləri qiymətləndirməyə alınmayacaq. Həmçinin iddiaçılar təqdim edilən bütün yağların uyğunluq sertifikatlarının mövcudluğu və orijinal olmaları barədə öhdəlik götürməli və öhdəlik sənədini imzalayıb möhürləyərək təqdim etməlidirlər;
- müvafiq sertifikatlar və lizensiyalar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 may 2023-cü il, saat 15.00-a, bank təminatını və tender təklifi isə 24 may 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 nömrəli ünvana, "Azərenerji" ASC-nin ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 25 may 2023-cü il saat 15.00-da yuxarıda göstərilən ünvanda (online qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Gürcüstanda çörək ucuzlaşdı

**Gürcüstan Milli Statistika Xidmətinin dünən yaydığı məlumata görə, 2022-ci ildə ölkədə buğda istehsalı 15,8 faiz, arpa istehsalı isə 0,5 faiz artıb. Amma qarğıdalı istehsalında 35,8 faiz, kartof istehsalında isə 15,6 faiz azalma qeydə alınıb. Məlumatı "Novosti Qruziya" verib.**



Məlumatda bildirilir ki, keçən ilin yekunlarına əsasən, buğda istehsalında qeydə alınan artım ölkədə çörəyin qiymətinin aşağı düşməsinə səbəb olub. Aprelin 12-dən etibarən çörəyin qiyməti 10 tetri ucuzlaşıb. Gürcüstan Çörək İstehsalçıları Assosiasiyasından bildirilib ki, buna səbəb bazarda unun ucuzlaşmasıdır. Ötən ildən bəri bir kisə unun qiyməti təxminən 15 lari aşağı düşüb və hazırda 52-55 lari arasında dəyişir.

Hazırda çörək istehsalçıları kommunal xidmət tariflərinə yenidən baxılması ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi ilə danışıqlar aparırlar. Onların fikrincə, danışıqlar müsbət nəticə verərsə, çörəyin qiyməti daha da ucuzlaşa bilər.

Qeyd edək ki, Gürcüstan keçən il iyulun 4-dən 2023-cü il iyulun 4-dək ölkədən taxıl məhsullarının ixracına qadağa qoyub. Kənd təsərrüfatı naziri Otar Şamuqiya bildirmişdi ki, ərzaq təhlükəsizliyinin təminatı üçün ölkədə istehsal olunan taxıl məhsullarından yalnız daxili bazarda istifadə edilməlidir. O vaxta qədər Gürcüstan həmin məhsulları İraq və İrana ixrac edirdi.

**P.ƏMİRCANOV,**
**"Xalq qəzeti"**



# İqlim dəyişikliyi Xəzər lotosunu solduracaqmı?

**Öz fəsadları ilə dünyanın bütün qitələrində günün mühüm mövzusuna çevrilən qlobal istiləşmə alimlərin və təbiətsevərlərin bir çox məsələlər barədə həyəcan zəngi çalmasına səbəb olur.**

Təbiətşünas alimlər Xəzərin şimal sahillərində – Volqa çayının deltasında hər bahar minlərlə insanın qəlbini və gözünü oxşayan Xəzər lotosu üçün də həyəcanlı dövrün başlandığını qeyd edirlər. Mütəxəssislərin fikrincə, Şimalda buzlaqların əriməsi Volqanın suluğunun artmasına səbəb olsa da, bu fakt deltanın florasının sabahı üçün ümidverici proqnozlar yarada bilir. Ancaq ümidlər nə qədər böyük olsa da, əminlik üçün əsas deyil.

Çünki Volqa çayı Rusiyanın sənaye, gəmiçilik, enerji və ən mühüm su yollarından biridir.Yeni bu çayın illərdən bəri çirklənməsi şəksizdir. Hətta belə rəylər var ki, deltanın ekosistemi süniləşir. Ona görə də həmin ərazinin florasını çətin günlər gözləyir. Aydın məsələdir ki, Xəzər lotosu dənizin digər sahillərində yetişə bilməz. Ona mütləq şirinsulu sahillər lazımdır. İnanırıq ki, iqlim dəyişiklikləri bu təbii gözəli soldura bilməyəcək.

**İldırım İSMAYIL,**
**"Xalq qəzeti"**

Sosial şəbəkələrdən seçmələr

# Bəşir Səfəroğludan yadigar şəkil

**Sosial şəbəkələrdə çeşidli və bir-birindən maraqlı statuslara rast gəlirik. Onlardan bəzilərini "Xalq qəzeti"nin səhifələrinə çıxarmağı lazım bilirik ki, silinib getməsin. Bu dəfə Azərbaycan Yazıçılar Birliyi "Turan" Ədəbi Məclisinin sədri Rəfiqə Şəmsin "Yadigar şəkil" adlı xatirəsi diqqətimizi cəlb etdi...**



"Onun dünyayla mücadiləsi ömrünün 44-cü baharında bitdi. Sadə, lakin şərəfli bir ömür yaşadı Azərbaycanın Xalq artisti Bəşir Səfəroğlu. Az danışdı, amma çox güldürdü. Bizə simsar adam idi.

Üzünün ciddi ifadəsi ilə yumoru təzad təşkil edirdi. Atamın: "Ay qız, Bəşir gəlir, dur əl-ayaq elə!" deməsi ilə anam dərhal hərəkətə keçirdi. Bəşir dayım gələndə sənət dostlarını da gətirirdi bizə. Şəmsi Bədəlbəyli və Lütfəli Abdullayevi ilk dəfə 7 yaşımda görmüşdüm evimizdə. Atam muğamı çox sevirdi. Valları oxutdurur, muğamın sədaları altında istirahət edirdilər. Mənim yaxşı səsim vardı. Hətta mənə məktəbdə "Çahargah"ı Mənsuriyyəsi ilə bərabər 45 dəqiqə oxutdurmuşdular.

Bir gün Bəşir dayım atamla pəncərəmizin altından keçərkən səsimi eşidib: "Ay Heybət, bu oxuyan uşaq kimdi?"- deyə soruşdu. Atam da cavab verdi: "Bizim gözüçıxmışdı". Atam qadın-qız xeylağının səsini ucaltmasını qəbul etməzdi. Bəşir dayım otağa girib məni yanına çağırdı. Uzun hörüyümü qoluna dolayıb məni özünə tərəf çəkdi və nə illah elədisə, oxumadım. Atamla onun arasında belə bir dialoq oldu: O, üzünü atama tutaraq: "Ver, bu uşağı aparım Asəf Zeynallıya, bu, hazır müğənnidi ki..." – dedi. Atam onun üzünə tərs-tərs baxıb: "Bir artistimiz var, bəsdi" – dedi (bu, Bəşirə işarə idi).

Həyat yoldaşı Minirə xanım da işə qarışdı. Mümkün olmadı. Bununla da mənim musiqi karyeram bitdi...

1969-cu il martın 23-də xalqın sevimli aktyoru Bəşir Səfəroğlunun ölüm xəbəri ildırım sürəti ilə əks-səda verdi. Sanki tavan uçub, altında qalmışdıq hamımız. Axşam böyüklər evə dönəndə atamın yaxasında qara haşiyəli şəkil asılmışdı. Bir yaz günü doğulmuşdu, bir yaz günü də dünyadan köçdü. Ondan bizə neçə-neçə digər şəkillər də yadigar qalıb. Birini "Facebook"da təqdim edirəm. Əyləşənlər sağdan 1-ci atam, ortadakı Bəşir Səfəroğludur. Qalanlarsa yaxın qohumlarımızdır.

Bəşir Səfəroğlunun iki qız yadigarı qalır – onun sənətini yaşadan Xalq artisti Afaq Bəşirqızı, bir də Zümrüd xanım (memar). Adını Zümrüdün qızı Bəşirə yaşadır. Azərbaycan Televiziyası onun yaradıcılıq yolu və ailəsi haqqında sənədli film çəkmişdir".

**P.S.** Bu kövrək qeydləri "Xatirələr yaşadır" da adlandırmaq olardı. Hər bir halda maraqlıdır.

**Ə.NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**

# Yeddiqüllə zindanı – tarixin şahidi



**İstanbulun Fateh bölgəsində yerləşən Yeddiqüllə zindanı tarix boyu gözətçi qülləsi, heyvanxana, konsert və tamaşalara evsahibliyi edən bir məkan, bəzən isə məhkumların cəzalandırıldığı bir yer olaraq tanınıb. Günümüzdə muzey kimi ziyarət edilən bu məkan möhkəm qala divarları və qüllələrlə əhatə olunub.**

Eramızın 390-cı ilində Roma imparatoru Theodosius tərəfindən inşa edilmiş bu tikilidən əsasən Bizans imperatorluğu dövründə xarici ölkələrdən bura təşrif buyurmuş kralları və digər rəsmi qonaqları qarşılamaq üçün istifadə olunurdu. O zamanlar burada cəmi dörd qüllə inşa edilmişdi. II Mehmet adı ilə tanınan Fateh Sultan Mehmetin İstanbulu fəth etməsindən sonra daha üç qüllə əlavə olunmuşdur.

**Qüllələr** - Gənc Osman, Cəbbəxana, III Əhməd, Xəzinə, Zindan, Top və Bayraq adlanır.

**Gənc Osman qülləsi** - Osmanlı padşahların arasında ən gənc hökmdar olan Osman paşa bu binanın ikinci mərtəbəsində qətlə yetirildiyi üçün qülləyə onun şərəfinə bu adı veriblər.

**Cəbbəxana qülləsi** - o dönəmlərdə bura silah-sursat anbarı kimi istifadə olunduğuna görə bu cür adlandırılıb.

**III Əhməd qülləsi** - Osmanlı hökmdarlarından olan III Əhmədin bu qüllənin tikintisində böyük əməyi olmuşdur. Buna görə qülləyə onun adı verilib. Lakin müəyyən dövrlərdə baş verən zəlzələlərə tab gətirməyən qüllə dağılıb məhv olmuş, dövrümüzə qədər gəlib çıxa bilməmişdir.

**Xəzinə qülləsi** - Adından da məlum olduğu kimi, burada dövlətin xəzinəsi saxlanılırdı. Lakin III Murad taxta çıxandan sonra naməlum səbəblərdən xəzinə saraya aparılıb.

Digər adı Yazılar qülləsi olan **Zindan qülləsi** məhkumların saxlandığı və işgəncə verildiyi yer olaraq nəzərdə tutulmuşdu. Lakin qüllədə baş vermiş yanğınlar nəticəsində taxta hissələrə ciddi ziyan dəymişdir.

**Top qülləsi** - baş verən yanğınlarda zərər görmüş digər qüllələrdən biri də bu qüllədir ki, burada da məhkumlar saxlanılırdı.

**Bayraq qülləsi** - qüllələrin içində ən sağlam qüllədir. Bu qülləyə türk bayrağı sancılır və şanlı türk əsgərləri də gecə-gündüz bu bayrağın keşiyində dayanırdılar.

**Yeddi qüllə** zindanları çox qədim tarixə malik olduğuna görə, bu barədə çoxlu əfsanələr də yayılmışdı. Yayılan rəvayətlərə görə burada saxlanılan məhkumların qüllənin divarlarına hopmuş hayqırtı səsləri hələ də eşidilməkdədir.

**Fidan HÜQUQQIZI,**
**"Xalq qəzeti"**

# Günəşdən daha parlaq…

**Elm adamları fizika qanunlarına tabe olmayan yeni obyektin ətraflı müşahidələrini aparıblar. "M82 X-2" adlanan obyekt Günəşdən, təxminən, 10 milyon dəfə parlaqdır.**

"The Astrophysical Journal" elmi jurnalında NASA-dan olan tədqiqatçılar obyektin təfərrüatları haqqında ətraflı məlumat veriblər. Mütəxəssislərin fikrincə, hətta "M82 X-2"nin mövcudluğu fizika qanunlarına ziddir. Alimlər bu cür obyektləri ultra-parlaq rentgen mənbələri ("ULX") adlı sinfə aid edirlər. Onlar çox vaxt Günəşdən milyonlarla dəfə çox enerji yayırlar. Bu enerji miqdarı fizikada "Eddinqton limiti" kimi tanınan qanunu pozur. Alimlər bildirirlər ki, əgər obyekt "Eddinqton limiti"ni keçərsə, onun öz-özünə parçalanması gözlənilir. NASA tədqiqatçıları yeni obyektin bu limiti mütəmadi olaraq 100-500 dəfə keçərək onları təəccübləndirdiyini vurğulayıblar.



Əvvəlki nəzəriyyələr həddindən çox parlaqlığın, optik illüziya ola biləcəyini irəli sürsə də, yeni araşdırma bunun belə olmadığını göstərib.

Bundan əlavə, astronomlar əvvəllər "ULX"lərin, əslində, qara dəlik ola biləcəyinə inanırdılar. Lakin NASA tədqiqatçıları "M82 X-2"in neytron ulduzu olduğunu müəyyən ediblər. Neytron ulduzlarının cazibə qüvvəsi Yerin cazibəsindən, təxminən, 100 trilyon dəfə güclüdür.

**Aytən NƏCƏFOVA,**
**"Xalq qəzeti"**



# Kosmosa ilk dəfə ərəb qadın uçacaq

**Mayın əvvəlində Səudiyyə Ərəbistanı ilk astronavtlarını Beynəlxalq Kosmik Stansiyaya göndərəcək. Pilot və elmi tədqiqatçı Rayyana Bərnavi isə kosmosa uçacaq ilk ərəb qadın olacaq.**

Səudiyyə Ərəbistanının ilk milli astronavt proqramının üzvləri olan Əli əl-Qarni və Rayyana Bərnavi ABŞ-ın Florida ştatındakı Kennedi Kosmik Mərkəzindən kosmik fəzaya göndəriləcək dörd nəfərlik "Axiom-2" missiyasına daxil ediliblər.

Bu, Səudiyyə Ərəbistanının 1985-ci ildə ilk ərəb astronavtı – şahzadə Sultan bin Salmanı kosmosa göndərməsindən təxminən 40 il sonraya təsadüf edir. Səudiyyə Ərəbistanı astronavtları "Axiom Space" missiyasının Beynəlxalq Kosmik Stansiyaya ikinci tam özəl astronavt qrupuna qoşulacaqlar.

İndiyədək Beynəlxalq Kosmik Stansiyaya 20 ölkədən 263 nəfər uçub. Sayca 21-ci ölkə olacaq Səudiyyə Ərəbistanı, həmçinin orbital laboratoriyada eyni vaxtda iki milli astronavtı işləyən altıncı ölkə olacaq. Qeyd edək ki, Rayyana Bərnavi "Axiom-2 missiyasında" mütəxəssis kimi xidmət edir. O, həmçinin döş xərçəngi və xərçəng kök hüceyrə tədqiqatında doqquzillik təcrübəyə malik tədqiqat laboratoriyası texnikidir.

***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 15-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, gündüz havanın qısa müddətə arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal küləyi əsəcək. Gecə 10-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-8°, gündüz 17-22° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 1-6°, gündüz 8-13° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 1-6°, gündüz 8-13° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 18-23° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında şimşək çaxacağı, qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Gecə 4-9°, gündüz 15-20° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Gecə 8-11°, gündüz 22-27° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-13°, gündüz 19-24°, dağlarda gecə 5-8°, gündüz 13-18° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin prorektoru Vüqar Mehrabova əzizi

**TEYMUR MEHRABOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5008
SİFARİŞ 912
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00